# Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

25



AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİ

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş***

# “KONSTİTUSİYA NORMALARININ TƏTBİQİ VASİTƏSİLƏ QANUNVERİCİLİYİN İNKİŞAFI”

***mövzusunda***

# BEYNƏLXALQ KONFRANSIN MATERİALLARI

Bakı – 2023

**MƏSUL REDAKTOR:**

**Dürdanə MƏMMƏDOVA**
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
Cinayət və İnzibati hüquq şöbəsinin müdiri, h.ü.f.d.

**REDAKSİYA HEYƏTİ:**

1. **Ceyhun QARACAYEV**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, h.ü.e.d.

2. **Rövşən İSMAYILOV**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, h.ü.f.d.

3. **Rauf QULİYEV**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının rəhbəri

4. **Nigar DÜNYAMALIYEVA**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
   Beynəlxalq hüquq və əməkdaşlıq şöbəsinin müdir müavini, s.e.ü.f.d.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda 4 iyul 2023-cü il tarixində keçirilmiş beynəlxalq konfransın materialları. 2023, 148 səh.

ISBN: 978-9952-445-47-3

*“KONSTİTUSİYA NORMALARININ TƏTBİQİ VASİTƏSİLƏ QANUNVERİCİLİYİN İNKİŞAFI”*

**AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANS**

*“PROGRESSION OF LEGISLATION THROUGH APPLICATION OF CONSTITUTIONAL NORMS”*

**INTERNATIONAL CONFERENCE DEVOTED TO THE 25th ANNIVERSARY OF THE CONSTITUTIONAL COURT OF THE REPUBLIC OF AZERBAIJAN**

*«РАЗВИТИЕ ЗАКОНОДАТЕЛЬСТВА ПОСРЕДСТВОМ ПРИМЕНЕНИЯ КОНСТИТУЦИОННЫХ НОРМ»*

**МЕЖДУНАРОДНАЯ КОНФЕРЕНЦИЯ ПОСВЯЩЕННАЯ 25-ЛЕТИЮ КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**



## AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*Hörmətli konfrans iştirakçıları!*
*Konstitusiya Məhkəməsinin hörmətli hakimləri və əməkdaşları!*

*Sizi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfransın açılışı ilə əlaqədar səmimi-qəlbdən salamlayıram.*

*Konstitusiya Məhkəməsinin hazırkı yubileyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinin qeyd olunduğu dövrə təsadüf edir və bu, dərin simvolik məna kəsb edir. Məhz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında Konstitusiya Məhkəməsinin əsas səlahiyyətləri, bu təsisatın dövlət hakimiyyəti orqanları sistemində mühüm yeri və rolu müəyyən olunmuşdur.*

*Ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq, Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir.*

*Əminəm ki, Konstitusiya Məhkəməsi bundan sonra da ölkəmizdə hüquqi dövlət və konstitusionalizm ideya və prinsiplərinin həyata keçirilməsində səylərini əsirgəməyəcəkdir.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini və əməkdaşlarını 25 illik yubiley münasibətilə təbrik edir, konfransın işinə müvəffəqiyyətlər arzu edirəm!*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 03 iyul 2023-cü il*

## TO THE PARTICIPANTS OF THE INTERNATIONAL CONFERENCE DEDICATED TO THE 25TH ANNIVERSARY OF THE CONSTITUTIONAL

*Dear conference participants!*
*Dear judges and employees of the Constitutional Court!*

*I sincerely greet you on the occasion of the opening of the international conference on "Development of legislation through the application of constitutional norms" dedicated to the 25th anniversary of the Constitutional Court of the Republic of Azerbaijan.*

*The current anniversary of the Constitutional Court coincides with the celebration of the 100th anniversary of the National Leader of the Azerbaijani people, Heydar Aliyev, which has a deep symbolic meaning. It was in the Constitution of the Republic of Azerbaijan prepared under the leadership of Heydar Aliyev and adopted in 1995 that the main powers of the Constitutional Court, as well as the important place and role of this institution in the system of state authorities were defined.*

*Over the years, the Constitutional Court with its effective activity and decisions has been ensuring the supremacy of the Constitution of the Republic of Azerbaijan, protecting human rights and freedoms, improving national legislation in accordance with dynamic social relations, taking into account the provisions of the Constitution, the legal culture in society and the practice of applying law in various fields, thereby making a valuable contribution to its further development.*

*I am sure that the Constitutional Court will not spare its efforts in the implementation of the ideas and principles of the law-governed state and constitutionalism in our country.*

*I congratulate the judges and employees of the Constitutional Court of the Republic of Azerbaijan on the occasion of the 25th anniversary and wish the conference every success!*

**Ilham ALIYEV,**
**President of the Republic of Azerbaijan**

*Baku, 3 July 2023*

## УЧАСТНИКАМ МЕЖДУНАРОДНОЙ КОНФЕРЕНЦИИ, ПОСВЯЩЕННОЙ 25-ЛЕТИЮ КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

*Уважаемые участники конференции!*
*Уважаемые судьи и сотрудники Конституционного суда!*

*Сердечно приветствую вас в связи с открытием международной конференции на тему «Развитие законодательства посредством применения конституционных норм», посвященной 25-летию Конституционного суда Азербайджанской Республики.*

*Нынешний юбилей Конституционного суда совпал с периодом, когда отмечается 100-летие со дня рождения общенационального лидера азербайджанского народа Гейдара Алиева, что имеет глубокий символический смысл. В подготовленной именно под руководством Гейдара Алиева и принятой в 1995 году Конституции Азербайджанской Республики были определены основные полномочия Конституционного суда, важное место и роль данной структуры в системе органов государственной власти.*

*За минувшие годы Конституционный суд своей плодотворной деятельностью и принятыми постановлениями внес ценный вклад в обеспечение верховенства Конституции Азербайджанской Республики, защиту прав и свобод человека, совершенствование национального законодательства с учетом положений Конституции в соответствии с динамично меняющимися общественными отношениями, дальнейшее развитие правовой культуры в обществе и правоприменительной практики в различных сферах.*

*Уверен, что Конституционный суд и впредь будет прилагать все усилия в реализации идей и принципов правового государства и конституционализма в нашей стране.*

*Поздравляю судей и сотрудников Конституционного суда Азербайджанской Республики с 25-летним юбилеем, желаю работе конференции успехов!*

**Ильхам АЛИЕВ,**
**Президент Азербайджанской Республики**

*город Баку, 03 июля 2023 года*

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş Beynəlxalq Konfrans keçirilmişdir**

İyulun 4-də Bakıda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illik yubileyi ilə əlaqədar "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfrans keçirilib.




Konfransda Azərbaycan Respublikası Milli Məclisi, Ədliyyə Nazirliyi, Ali Məhkəmə, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Vəkillər Kollegiyasının rəhbər və nümayəndələri, Bakı Dövlət Universitetinin rəhbər və nümayəndələri, habelə bir çox məhkəmələrin sədr və hakimləri, tanınmış alimlər, hüquq ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Həmçinin, tədbirdə iştirak etmək üçün Bakı şəhərinə Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Albaniya, Belarus, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, İndoneziya, Macarıstan, Serbiya və Tailand Konstitusiya Məhkəmələrinin nümayəndə heyətləri təşrif buyurublar.

Konfransın əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı açıq elan edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ilk öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Konstitusiya Məhkəməsinin 25 illiyi ilə əlaqədar ünvanlandığı təbrik məktubu səsləndirib.

Sədr Fərhad Abdullayev təbrik məktubuna görə Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevə Konstitusiya Məhkəməsinin bütün kollektivi və konfrans iştirakçıları adından öz dərin təşəkkürünü və minnətdarlığını bildirib. Fərhad Abdullayev qeyd edib ki, Dövlətimizin Başçısının Konstitusiya Məhkəməsinin işinə verdiyi bu qiymət Məhkəmənin kollektivi üçün yüksək etimadın təzahürüdür.

Fərhad Abdullayev xüsusilə vurğulayıb ki, Dövlət Başçısı cənab İlham Əliyev məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olaraq hakimlərin və ümumilikdə məhkəmə orqanlarının qərəzsiz, müstəqil və şəffaf fəaliyyətini, onların maddi-sosial təminatını daim diqqət mərkəzində saxlayır. Bu diqqət məhkəmə hakimiyyəti üçün çox dəyərlidir və hər bir hakim üçün çox əhəmiyyətlidir.

Daha sonra sədr Fərhad Abdullayev Konfransda iştirak edən qonaqları salamlayaraq qeyd edib ki, bu il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ulu Öndərin 100 illik yubileyi münasibətilə 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan olunması Ümummilli Liderin əziz xatirəsinə əbədi ehtiramın ən bariz nümunəsidir.

Sədr dahi şəxsiyyət Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzolunmaz xidmətlərindən biri olan uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulması haqqında söhbət açdı. Qeyd edilib ki, həmin proses çərçivəsində ən əlamətdar hadisələrdən biri 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi idi.

Vurğulanıb ki, insan hüquq və azadlıqlarının müdafiəsini dövlətin ali məqsədi elan etmiş Konstitusiyanın aliliyinin təmin edilməsi, Əsas Qanunda təsbit olunmuş insan hüquq və azadlıqlarının dövlət tərəfindən müdafiə olunması məqsədilə 14 iyul 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmışdır.

Sədr Konstitusiya Məhkəməsinin fəaliyyətindən danışaraq qeyd etdi ki, Konstitusiya Məhkəməsinin əsas səlahiyyətləri məhz Konstitusiyada öz əksini tapıb. Ölkənin Əsas Qanunu Konstitusiya Məhkəməsinin fəaliyyəti üçün fundamental hüquqi baza qismində çıxış edir.

Odur ki, Konstitusiya Məhkəməsi insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı öz missiyasını həyata keçirərkən ilk növbədə Konstitusiya müddəalarını, orada əks olunan dəyər və prinsipləri rəhbər tutur.

Məhz Əsas Qanunun normalarına istinad edilməsi insan hüquq və azadlıqlarının daha effektiv və səmərəli müdafiəsi üçün təminat yaradır.

Daha sonra tədbirdə iştirak edən Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli, Ədliyyə naziri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri İnam Kərimov, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Baş prokurorun müavini Heydər Məmmədov və Vəkillər Kollegiyasının sədri Anar Bağırov təbrik nitqləri ilə çıxış ediblər.


ƏLİ
HÜSEYNLİ
İNAM
KƏRİMOV
ANAR
BAĞIROV


FİKRƏT
MƏMMƏDOV
FƏRHAD
ABDULLAYEV

Konfransın praktiki hissəsində Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan "Fərdi şikayət: Türkiyədə son inkişaflar", Serbiya Respublikası Konstitusiya Məhkəməsinin Sədri xanım Snejana Markoviç "Əsas konstitusiya prinsiplərinin müdafiəsində Konstitusiya Məhkəməsinin rolu", Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin Sədri xanım Elvira Azimova "Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi üzrə öhdəliklərə əməl olunmasına konstitusiya nəzarətinin səmərəliliyi" Albaniya Respublikası Konstitusiya Məhkəməsinin Sədri xanım Holta Zaçay "Albaniya Konstitusiya Məhkəməsi məhkəmə islahatları və konstitusiya dəyişiklikləri fonunda – əldə edilmiş nəticə", Bolqarıstan Respublikası Konstitusiya Məhkəməsinin Sədri xanım Pavlina Panova "Ənənə və tərəqqi arasında tarazlıq", Qırğız Respublikası Konstitusiya Məhkəməsinin Sədri Emil Oskonbayev "Konstitusiya nəzarəti orqanının məhkəmə fəallığının qanunvericiliyin inkişafına təsiri", İndoneziya Respublikası Konstitusiya Məhkəməsinin Sədri Anvar Usman "İndoneziyada qanunvericiliyin inkişafına töhfə verilməsində insan hüquqlarının və qanunun aliliyinin rolu", Özbəkistan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Mirza Ulugbek Abdusalomov "Özbəkistanda konstitusiya islahatı və konstitusiya nəzarətinin inkişafının yeni mərhələsi", Belarus Respublikası Konstitusiya Məhkəməsinin Hakimi xanım Alla Bodak "Konstitusiya nəzarəti: qanunvericiliyin konstitusiyalaşdırılması", Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin Hakimi Qadis Hacıyev "Rusiya Federasiyası qanunvericiliyinin konstitusiya əsaslarının formalaşdırılmasında Konstitusiya Məhkəməsinin iştirakı", Bakı Dövlət Universitetinin Əmək və Ekologiya hüququ kafedrasının müdiri Alış Qasımov "Əmək məzuniyyətlərinin hüquqi tənzimlənməsi: mövcud boşluqlar və onların Konstitusiya normalarının şərhi vasitəsilə aradan qaldırılması" və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Hakimi Rövşən İsmayılov "Konstitusiya nəzarəti orqanlarının təcrübəsində qanunların Konstitusiyaya uyğun təfsiri" mövzular üzrə çıxış edərək, təmsil etdikləri ölkələrdə konstitusiya ədalət mühakiməsi sahəsində mövcud olan təcrübəni təqdim etmişlər.

Təqdim edilmiş məruzələrdən sonra müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda sədr Fərhad Abdullayev yekun nitqi ilə çıxış edərək konfransın gedişatında müxtəlif aktual mövzulara toxunaraq, səmərəli fikir mübadiləsi aparmağa nail olunduğunu bildirib.

Qeyd edilib ki, müxtəlif hüquq sistemlərinə malik ölkələrin öz təcrübələrinin bölüşdüyü bugünkü konfransda maraqlı müzakirələr aparıldı, konstitusiya hüququnun müxtəlif sahələri, xüsusilə də Konstitusiya Məhkəməsinin qərarlarında formalaşdırdığı hüquqi mövqelər və konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericilikdə boşluqların aradan qaldırılması, onun inkişafı ilə bağlı maraqlı fikirlər ifadə edildi.

Sədr xüsusilə vurğuladı ki, Dövlət Başçısı cənab İlham Əliyevin məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olması hər zaman məhkəmələrin müstəqil və şəffaf fəaliyyətinə, qərəzsiz şəkildə qərarların qəbul edilməsinə imkan yaradır. Öz növbəsində Konstitusiya Məhkəməsi də fəaliyyət göstərdiyi müddət ərzində ilk əvvəl Ulu Öndər Heydər Əliyevin, bu gün isə möhtərəm cənab Prezidentin dəstəyini hər zaman hiss edib. Bu dəstək əlbəttə ki, qürurverici olmaqla yanaşı, eyni zamanda olduqca böyük məsuliyyət deməkdir. Konstitusiya Məhkəməsinin kollektivi hər zaman üzərinə düşən bu məsuliyyətli missiyanı layiqincə yerinə yetirməyə çalışır.

Bununla da, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunan "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafi" mövzusunda beynəlxalq konfrans işini başa çatdırıb.



Tədbirdən sonra Azərbaycan, Türkiyə, Qazaxıstan, Ozbəkistan və Qırğızıstan Konstitusiya Məhkəmələrinin sədrlərinin Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TDKYK) çərçivəsində işçi iclası keçirilmiş, konstitusiya ədalət mühakiməsi sahəsində məhkəmə-hüquq əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Xarici dövlətlərin Konstitusiya Məhkəmələrinin nümayəndə heyətləri səfər çərçivəsində həmçinin Azərbaycanın zəngin tarixi və mədəniyyəti ilə tanış olmuşlar.

**Fərhad ABDULLAYEV**

***Azərbaycan Respublikası***
***Konstitusiya Məhkəməsinin Sədri***

## AÇILIŞ NİTQİ

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

İcazənizlə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransı açıq elan edirəm.

**İlk öncə böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyi ilə bağlı Konstitusiya Məhkəməsinin kollektivinə, habelə beynəlxalq konfransın iştirakçılarına ünvanladığı təbrik müraciətini diqqətinizə çatdırmaq istərdim.**

Bu təbrik sözlərinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevə Konstitusiya Məhkəməsinin bütün kollektivi və konfrans iştirakçıları adından öz dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirmək istərdim.

Dövlət Başçısı cənab İlham Əliyev məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olaraq hakimlərin və ümumilikdə məhkəmə orqanlarının qərəzsiz, müstəqil və şəffaf fəaliyyətini, onların maddi-sosial təminatını daim diqqət mərkəzində saxlayır. Bu diqqət məhkəmə hakimiyyəti üçün çox dəyərlidir və hər bir hakim üçün çox əhəmiyyətlidir. Bir daha təşəkkürümüzü bildiririk.

Mən ölkəmizə təşrif buyurmuş Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Albaniya, Belarus, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Macarıstan, Serbiya, Tailand Krallığı, İndoneziya Konstitusiya Məhkəmələrinin sədr və hakimlərini, əməkdaşlarını salamlayır və Bakı şəhərinə xoş gəlmisiniz deyirəm.

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin keçmiş 25 il ərzində əməkdaşlıq etdiyi Azərbaycan Respublikası dövlət orqanlarının rəhbərlərini və nümayəndələrini, həmçinin təhsil müəssisələrinin rəhbər və məsul şəxslərini, elm xadimlərini salamlayır və tədbirimizdə görməyə çox şad olduğumu bildirirəm.

Hörmətli konfrans iştirakçıları!

Bu il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dahi öndərin 100 illik yubileyi münasibətilə 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan olunması Ümummilli Liderin əziz xatirəsinə əbədi ehtiramın ən bariz nümunəsidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ən önəmli istiqamətlərindən biri və eyni zamanda ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Liderin bu arzusu və vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının

möhtərəm Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev və onun rəhbərliyi ilə igid Azərbaycan ordusu yerinə yetirdi. 44 günlük Qarabağ müharibəsi nəticəsində dövlətimizin ərazi bütövlüyü bərpa edildi və bayrağımız yenə də doğma yurdumuzda – Şuşada qürurla dalğalandırıldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində hər zaman mühüm yer tutacaq. Bu gün işğaldan azad olunan ərazilərin bərpa və yenidənqurma prosesi yüksək səviyyədə və sürətlə həyata keçirilir. Bərpa və yenidənqurma prosesi dövlətimiz qarşısında duran ən vacib və prioritet istiqamət olmaqla daim Dövlət Başçısı cənab İlham Əliyevin diqqət mərkəzindədir. Biz hamımız bu ərazilərdə həyata keçirilən mühüm yeniliklərin şahidiyik.

Xüsusilə vurğulanmalıdır ki, işğal altındakı torpaqlarımızın azad olunması ilə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunmuş torpaqlarımızda da bərpa edildi. Bu gün 30 ilə yaxın öz yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın Əsas Qanunda təsbit edilmiş bir sıra hüquqlarının, o cümlədən sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək, təhlükəsiz yaşamaq kimi hüquqlarının tam şəkildə təmin edilməsinə zəmin yaranır.

Hörmətli konfrans iştirakçıları!

Dahi şəxsiyyət Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzolunmaz xidmətlərindən biri uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulması oldu. Həmin proses çərçivəsində ən əlamətdar hadisələrdən biri 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi idi.

Referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyətinin yaradılmasına və hüquq sisteminin müasir tələblərə uyğun formalaşmasına geniş imkanlar açdı.

İnsan hüquq və azadlıqlarının müdafiəsini dövlətin ali məqsədi elan etmiş Konstitusiyanın aliliyinin təmin edilməsi, Əsas Qanunda təsbit olunmuş insan hüquq və azadlıqlarının dövlət tərəfindən müdafiə olunması məqsədilə 14 iyul 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmışdır.

Ötən 25 il ərzində Konstitusiya Məhkəməsi ümumilikdə 545 qərar və 160 qərardad qəbul etmiş və bu qərarların böyük bir hissəsi məhz insan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı olmuşdur. Həmin qərarlarda Konstitusiyanın və qanunların bir sıra müddəaları şərh edilmiş, pozulmuş hüquq və azadlıqların bərpa olunması ilə yanaşı, mövcud hüquqi təminatlar sistemi təkmilləşdirilmiş, zəruri hüquqi mövqelər formalaşdırılmışdır.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri Konstitusiyanın və qanunların şərhidir. Ümumiyyətlə, Konstitusiya və qanunların, habelə digər normativ hüquqi aktların şərhi konstitusiya nəzarəti orqanlarının fəaliyyətində mühüm yer tutur. Konstitusiyanın məzmununun hərfi şərhi, qanunların və digər normativ hüquqi aktların müddəalarının Konstitusiyanın normalarını tətbiq etməklə onların konstitusion mənasının izah olunması nəticəsində ifadə edilən hüquqi mövqelər bu və ya digər məsələdə qeyri-müəyyənliyin aradan qaldırılmasına və ümumilikdə qanunvericiliyin inkişafına xidmət etmiş olur.

Konstitusiya Məhkəməsinin verdiyi rəsmi şərhlər konkret hüquqi mübahisələrin həllinə imkan yaratmaqla yanaşı, həm də məhkəmələrin hüquq tətbiqetmə təcrübəsini düzgün istiqamətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın əsasları, onun aliliyi və birbaşa qüvvəsi, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları, habelə insan hüquq və azadlıqlarının prioriteti prinsipi

nəzərə alınmaqla qəbul etdiyi qərarları ilə Konstitusiya Məhkəməsi milli hüquq sisteminin və qanunvericiliyinin inkişafına öz töhfəsini vermiş, onları konstitusionalizm ideyaları ilə zənginləşdirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizdə ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olmaqla, qanunvericilik sisteminin iyerarxiyasında onun yeri digər normativ hüquqi aktlara nisbətdə ilk pillədə müəyyən edilib.

Konstitusiya Məhkəməsinin əsas səlahiyyətləri məhz Konstitusiyada öz əksini tapıb. Ölkənin Əsas Qanunu Konstitusiya Məhkəməsinin fəaliyyəti üçün fundamental hüquqi baza qismində çıxış edir.

Odur ki, Konstitusiya Məhkəməsi insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı öz missiyasını həyata keçirərkən ilk növbədə Konstitusiya müddəalarını, orada əks olunan dəyər və prinsipləri rəhbər tutur.

Məhz Əsas Qanunun normalarına istinad edilməsi insan hüquq və azadlıqlarının daha effektiv və səmərəli müdafiəsi üçün təminat yaradır.

Konstitusiya Məhkəməsi fəaliyyət göstərdiyi 25 il ərzində qəbul etdiyi qərarlarla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna öz töhfəsini vermiş, konstitusiya ədalət mühakiməsinin müasir tendensiyalarından faydalanmaq üçün geniş beynəlxalq əlaqələr qurmuşdur. Məhkəmə bu illər ərzində hüquq və azadlıqların müdafiəsi üzrə fəaliyyətini daim təkmilləşdirmiş və beynəlxalq təcrübəni, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnu, həmçinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya və ona dair Protokolları tətbiq etməyə çalışmışdır.

Eyni zamanda, Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı dövrdən xarici ölkələrin Konstitusiya nəzarəti orqanları ilə, habelə beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinə xüsusi önəm vermişdir. Təsadüfi deyildir ki, biz 25 illik yubileyimizi məhz beynəlxalq konfrans formatında keçirməklə qeyd edirik.

Hörmətli konfrans iştirakçıları!

Bugünkü konfransımız çox vacib bir məsələyə, Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı mövzusuna həsr olunmuşdur.

Konstitusiya normaları digər hüquq normalarının keyfiyyət və xarakterinin müəyyən edilməsi üçün başlıca meyar kimi çıxış edir. Bununla da, Konstitusiya bütövlükdə hüququn sistemləşdirilməsinə kömək edir. Qanunvericilik sisteminə daxil olan bütün aktlar məhz Əsas Qanunda öz əksini tapmış hüquq qaydaları və prinsipləri əsasında qəbul edilməlidir. İstənilən hüquq normasının təfsiri və tətbiqi zamanı konstitusiya hüquq normalarının ümumməcburi olduğu mütləq şəkildə nəzərə alınmalıdır.

Bugünkü konfransın mövzusu ətrafında maraqlı çıxışlar gözlənilir. Hesab edirəm ki, Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı ilə bağlı mühüm məqamlara toxuna və məhsuldar müzakirələr apara biləcəyik. İnanıram ki, konfrans çərçivəsində müasir dövrdə Konstitusiya ədalət mühakiməsinin xüsusiyyətləri və inkişaf yolları, onun müasir meyllərinə və konstitusiya nəzarət orqanının təcrübəsində Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafına dair maraqlı çıxışlar dinləyərək Konstitusiya hüququnun müxtəlif problemləri barədə faydalı fikir mübadiləsi və müzakirələr aparmağa müvəffəq olacağıq.

Mən ümumi məqsədə nail olmaq üçün bütün iştirakçıları konfransın işində fəal iştirak etməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Mr. Farhad ABDULLAYEV**

*Chairman of the Constitutional Court*
*of the Republic of Azerbaijan*

## OPENING SPEACH

Dear Ladies and Gentlemen,
Dear Guests,

Let me to announce the opening of the International Conference dedicated to the 25th Anniversary of the Constitutional Court of the Republic of Azerbaijan.

**First of all, I would like to voice the letter addressed by the His Excellency Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan to the collective of the Constitutional Court, as well as to the participants of the International Conference, dedicated to the 25th Anniversary of the Constitutional Court of the Republic of Azerbaijan.**

I would like to express our deepest thanks and gratitude to His Excellency Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan on behalf of the entire collective of the Constitutional Court and the participants of the conference for these congratulatory words.

As a guarantor of the independence of the judiciary, the President of the State, Mr. Ilham Aliyev, always focuses on the impartial, independent and transparent activity of judges and judicial bodies in general, as well as their material and social support. Such attention is very valuable for the judiciary and very important for every judge. Thank you again.

I welcome the presidents, judges and employees of the Constitutional Courts of Türkiye, Kazakhstan, Uzbekistan, Russia, Albania, Belarus, Bulgaria, Georgia, Kyrgyzstan, Hungary, Serbia, Kingdom of Thailand, Indonesia, who have visited our country, and I say welcome to the city of Baku.

Along with this, I welcome a number of senior representatives of state bodies with whom the Constitutional Court has cooperated for the previous 25 years and heads and responsible persons of other bodies, as well as educational institutions and I would like to say that I am very glad to see all of you at our event.

Dear Conference Participants,

The 10th of May this year marks the 100th anniversary of the birth of the National Leader of the Azerbaijani people, the architect of the independent Azerbaijani state, the outstanding political and statesman Heydar Aliyev. The declaration by the Decree of the President of the Republic of Azerbaijan, the year of 2023 in the Republic of Azerbaijan as the "Year of Heydar Aliyev" on the occasion of the 100th anniversary of the National Leader is the clearest example of eternal respect for the dear memory of the National Leader.

One of the most important goals of the Great Leader Heydar Aliyev's leadership and at the same time his greatest desire was the liberation of our historical lands from occupation and the restoration of the territorial integrity of native Azerbaijan. This desire and will of the National Leader were fulfilled by the worthy follower of his

political course, the honorable President of the Republic of Azerbaijan, the Victorious Commander-in-Chief of the Armed Forces Mr. Ilham Aliyev and the brave Azerbaijani army under his leadership. As a result of the 44-day Karabakh war, the territorial integrity of our state was restored, and our flag was again proudly waved in our homeland – Shusha.

Ensuring the territorial integrity of Azerbaijan will always occupy an important place in the centuries-old history of our nation. Today, the process of restoration and reconstruction of territories liberated from occupation is carried out at a high level and quickly. The process of restoration and reconstruction is the most important and priority area facing the state, is constantly in the center of attention of the Head of State, Mr. İlham Aliyev. We are all witnesses of important innovations implemented in these territories.

It should be emphasized that with the liberation of our occupied lands, the legal force of the Constitution of the Republic of Azerbaijan was restored on our lands liberated from occupation. Today, our citizens, who have been internally displaced from their countries for about 30 years, have the basis for fully ensuring a number of rights enshrined in the Basic Law, including such as free movement, choosing their place of residence, and safe living.

Dear ladies and gentlemen,

One of the invaluable cares of the genius Heydar Aliyev to our nation and state was laying the foundations of a successful state-building process. One of the most significant events in the framework of these reforms was the adoption on November 12, 1995, of the first Constitution of independent Azerbaijan by popular vote.

The Constitution of the Republic of Azerbaijan adopted through a national vote, opened wide opportunities for the creation in our country of a democratic, legal state, civil society, and the formation of the legal system in accordance with modern requirements.

On July 14, 1998, in order to ensure the supremacy of the Constitution, which has declared the protection of human rights and freedoms as the supreme goal of the state, and to protect the human rights and freedoms stipulated in the Basic Law at a high level the Constitutional Court of the Republic of Azerbaijan was established.

Over the past 25 years, the Constitutional Court has adopted a total of 545 decisions and 160 rulings, and a large part of these decisions were related to the implementation of human rights and freedoms. In those decisions, a number of provisions of the Constitution and laws were interpreted, along with the restoration of violated rights and freedoms, the existing system of legal guarantees was improved, and necessary legal positions were formed.

One of the important authorities of the Constitutional Court is the interpretation of the Constitution and laws. In general, the interpretation of the Constitution and laws, as well as other normative legal acts, occupies an important place in the activity of constitutional review bodies. The legal positions expressed as a result of the literal interpretation of the content of the Constitution, the interpretation of the constitutional meaning of the provisions of laws and other normative legal acts by applying the norms of the Constitution, serve to eliminate uncertainty in one or another issue and develop the legislation in general.

The official interpretations of the Constitutional Court are important in terms of not only enabling the resolution of specific legal disputes, but also in properly directing the law enforcement practice of the courts. The Constitutional Court made its contri-

bution to the development of the national legal system and legislation with its decisions, taking into account the principles of the Constitution, its supremacy and direct force, the provisions of the international agreements to which the Azerbaijan is a party to, as well as the principle of the priority of human rights and freedoms, and enriched them with the ideas of constitutionalism.

As the Constitution of the Republic of Azerbaijan has the highest and direct legal force in our country, its place in the hierarchy of the legislative system is determined at the first level compared to other normative legal acts.

The main authorities of the Constitutional Court are reflected in the Constitution. The Basic Law of the country acts as a fundamental legal basis for the activity of the Constitutional Court.

Therefore, the Constitutional Court, while carrying out its mission related to the protection of human rights and freedoms, is primarily guided by the provisions of the Constitution, the values and principles reflected therein.

Namely the referring to the norms of the Basic Law ensures more effective and efficient protection of human rights and freedoms.

Over the 25 years of its activity, the Constitutional Court, by its decisions, contributed to the creation of a rule of law and civil society, established wide international ties to take advantage of modern trends in constitutional justice. Over the years, the Court has constantly improved its activity on the protection of rights and freedoms and tried to apply international experience, including the case-law of the European Court of Human Rights, as well as the Convention on the Protection of Human Rights and Fundamental Freedoms and its Protocols.

At the same time, since the beginning of its activity, the Constitutional Court has attached particular importance to the expansion of relations with the constitutional review bodies of foreign countries, as well as with international organizations. It is no coincidence that we celebrate our 25th anniversary in the format of an international conference.

Dear conference participants,

Today's Conference is dedicated to a very important issue, the development of legislation through the application of Constitutional norms.

Constitutional norms act as the main criterion for determining the quality and character of other legal norms. Thus, the Constitution helps to systematize the law as a whole. All acts included in the system of legislation must be adopted precisely based on the legal rules and principles reflected in the Basic Law. When interpreting and applying any legal norm, it must be considered that constitutional legal norms are universally binding.

Interesting speeches are expected around the topic of today's conference. I’m sure that we will be able to touch the important points related to the development of legislation through the application of constitutional norms and conduct productive discussions. I believe that within the framework of the conference, we will be able to successfully exchange ideas and discuss various problems of Constitutional law by listening to interesting speeches on the development of legislation through the application of constitutional norms in the practice of the constitutional review body and the characteristics and the development ways of Constitutional justice in the modern era.

I call all participants to actively participate in the work of the conference to achieve the common goal.

Thank you for your attention.

**Фархада АБДУЛЛАЕВ**

*Председателя Конституционного суда*
*Азербайджанской Республики*

## ВСТУПИТЕЛЬНАЯ РЕЧЬ

Уважаемые дамы и господа,
Уважаемые гости!

С Вашего позволения хочу объявить международную конференцию, посвященную 25-летию Конституционного суда Азербайджанской Республики, открытой.

**Прежде всего, мне очень приятно довести до вашего внимания поздравительное обращение Президента Азербайджанской Республики Его превосходительства господина Ильхама Алиева, адресованное коллективу Конституционного суда, а также участникам международной конференции в связи с 25-летием Конституционного суда Азербайджанской Республики.**

От имени всего коллектива Конституционного суда и участников конференции хотелось бы выразить Его превосходительству Президенту Азербайджанской Республики господину Ильхаму Алиеву глубокую благодарность и признательность за это поздравление.

Глава государства Ильхам Алиев, как гарант независимости судебной власти, постоянно уделяет внимание беспристрастной, независимой и прозрачной деятельности судей и судебных органов в целом, их материально-социальному обеспечению. Это внимание очень ценно для судебной власти и очень важно для каждого судьи. Еще раз выражаем благодарность.

Приветствую пожаловавших в нашу страну председателей и судей, сотрудников конституционных судов Турции, Казахстана, Узбекистана, России, Албании, Беларуси, Болгарии, Грузии, Кыргызстана, Венгрии, Сербии, Королевства Таиланд, Индонезии и говорю им добро пожаловать в Баку.

Приветствую также руководителей и представителей государственных органов Азербайджанской Республики, с которыми Конституционный суд сотрудничал на протяжении последних 25 лет, руководителей и ответственных лиц образовательных учреждений, деятелей науки и хочу сказать, что очень рад видеть их на нашем мероприятии.

Уважаемые участники конференции!

10 мая этого года исполнилось 100 лет со дня рождения общенационального лидера азербайджанского народа, архитектора независимого Азербайджанского государства, выдающегося политического и государственного деятеля Гейдара Алиева. Объявление Распоряжением Президента Азербайджанской Республики 2023 года “Годом Гейдара Алиева” в Азербайджанской Республике по случаю 100-летнего юбилея гениального лидера является самым ярким примером вечного уважения к светлой памяти общенационального лидера.

Одно из важнейших направлений руководства великого лидера Гейдара Алиева Азербайджаном, а также самое сокровенное его желание были связаны с освобождением наших исторических земель от оккупации и восстановлением территориальной целостности родного Азербайджана. Это желание и завет общенационального лидера осуществил достойный продолжатель его политического курса, уважае-

мый Президент Азербайджанской Республики, Победоносный Верховный главнокомандующий Вооруженными силами господин Ильхам Алиев и доблестная Азербайджанская армия под его руководством. В результате 44 – дневной Карабахской войны территориальная целостность нашего государства была восстановлена, и наш флаг вновь стал гордо развеваться в родном краю в Шуше.

Обеспечение территориальной целостности Азербайджана всегда будет занимать важное место в многовековой истории нашего народа. Сегодня стремительно и на высоком уровне осуществляется процесс восстановления и реконструкции освобожденных от оккупации территорий. Процесс восстановления и реконструкции, являясь важнейшим и приоритетным направлением, стоящим перед нашим государством, постоянно находится в центре внимания главы государства господина Ильхама Алиева. Все мы являемся свидетелями происходящих на этих территориях важных новшеств.

Следует особо подчеркнуть, что с освобождением наших земель от оккупации юридическая сила Конституции Азербайджанской Республики была восстановлена и на освобожденных от оккупации землях. Сегодня закладывается основа для полного обеспечения ряда закрепленных в Основном законе прав граждан, вынужденно переселенных около 30 лет из родных очагов, в том числе таких прав, как свободное передвижение, выбор места жительства, безопасное проживание.

Уважаемые дамы и господа!

Одной из неоценимых заслуг гениальной личности Гейдара Алиева перед нашим народом и государством явилось то, что была заложена основа успешного процесса государственного строительства. Одним из самых знаменательных событий в рамках этого процесса стало принятие 12 ноября 1995 года путем всенародного голосования первой Конституции независимого Азербайджана.

Принятая путем референдума Конституция Азербайджанской Республики открыла широкие возможности для создания в нашей стране демократического правового государства, гражданского общества и формирования правовой системы в соответствии с современными требованиями.

В целях обеспечения верховенства Конституции, провозгласившей защиту прав и свобод человека высшей целью государства, защиты государством прав и свобод человека, закрепленных в Основном законе, 14 июля 1998 года был создан Конституционный суд Азербайджанской Республики.

В истекшие 25 лет Конституционный суд принял в общей сложности 545 постановлений и 160 определений, причем значительная часть этих постановлений была связана именно с осуществлением прав и свобод человека. В постановлениях дано толкование ряда положений Конституции и законов, наряду с восстановлением нарушенных прав и свобод усовершенствована существующая система правовых гарантий, сформулированы необходимые правовые позиции.

Одним из важных полномочий Конституционного суда является толкование Конституции и законов. В целом толкование Конституции и законов, а также иных нормативных правовых актов занимает важное место в деятельности органов конституционного контроля. Правовые позиции, выраженные в результате буквального толкования содержания Конституции, разъяснения конституционного смысла положений законов и иных нормативных правовых актов путем применения норм Конституции служат устранению неопределенности в том или ином вопросе и развитию законодательства в целом.

Официальные толкования данные Конституционным судом, создавая возможности для разрешения конкретных правовых споров, одновременно представляют

важное значение с точки зрения правильного направления правоприменительной практики судов. Постановлениями, принятыми с учетом основ Конституции, ее верховенства и прямой силы, положений международных договоров, стороной которых является Азербайджан, а также принципа приоритета прав и свобод человека, Конституционный суд внес свой вклад в развитие национальной правовой системы и законодательства, обогатил их идеями конституционализма.

Конституция Азербайджанской Республики обладает в нашем государстве высшей и прямой юридической силой, занимает в иерархии системы законодательства первое место среди других нормативно-правовых актов.

Основные полномочия Конституционного суда нашли отражение именно в Конституции. Основной закон государства выступает в качестве фундаментальной правовой базы для деятельности Конституционного суда.

Поэтому Конституционный суд при осуществлении своей миссии по защите прав и свобод человека в первую очередь руководствуется положениями Конституции, отраженными в ней ценностями и принципами.

Именно ссылка на нормы Основного закона создает гарантию для более эффективной и действенной защиты прав и свобод человека.

В течение 25-летней деятельности Конституционный суд принятыми постановлениями внес вклад в построение правового государства и гражданского общества, наладил широкие международные связи для использования современных тенденций конституционного правосудия. В эти годы суд постоянно совершенствовал свою деятельность по защите прав и свобод и старался применять международную практику, в том числе прецедентное право Европейского суда по правам человека, а также Конвенцию "О защите прав человека и основных свобод" и протоколы к ней.

В то же время Конституционный суд с начала своей деятельности придавал особое значение расширению связей с органами конституционного контроля зарубежных стран, а также международными организациями. Неслучайно мы отмечаем наш 25-летний юбилей именно в формате международной конференции.

Уважаемые участники конференции!

Наша сегодняшняя конференция посвящена очень важному вопросу, теме развития законодательства посредством применения конституционных норм.

Конституционные нормы выступают в качестве важнейшего критерия для определения качества и характера других правовых норм. Тем самым Конституция содействует систематизации права в целом. Все акты, входящие в систему законодательства, должны приниматься именно на основе правовых норм и принципов, нашедших отражение в Основном законе. При толковании и применении той или иной правовой нормы непременно следует учитывать, что нормы конституционного права являются общеобязательными.

По теме сегодняшней конференции ожидаются интересные выступления. Считаю, что мы сможем затронуть важные моменты, связанные с развитием законодательства посредством применения конституционных норм и провести плодотворные дискуссии. Уверен, что, заслушав в рамках конференции интересные выступления об особенностях и путях развития конституционного правосудия в современную эпоху, его современных тенденциях и развитии законодательства посредством применения конституционных норм в практике органов конституционного контроля, мы сможем провести полезный обмен мнениями и дискуссии о различных проблемах конституционного права.

Призываю всех участников к активному участию в работе конференции для достижения общей цели.

Благодарю за внимание!

**Əli HÜSEYNLİ**

***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini***

Hörmətli Fərhad müəllim!
Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycan Milli Məclisinin Sədri xanım Sahibə Qafarovanın adından salamlayır və Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə təbrik edirəm.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş 1995-ci il Konstitusiyasında Konstitusiya Məhkəməsinin də müstəsna yeri vardır. Məhz buna görə də Konstitusiya Məhkəməsi yaradıldıqdan sonra növbəti illərdə ölkədə həyata keçirilən hüquqi islahatlarda fəal iştirak etmişdir. Xüsusi vurğulamaq istərdik ki, bu 25 il ərzində Parlament ilə Konstitusiya Məhkəməsi arasında qarşılıqlı səmərəli əməkdaşlıq mühiti mövcuddur.

Hörmətli konfrans iştirakçıları!

"Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" adlı konfrans adından da göründüyü kimi biz parlamentarilər üçün də maraqlı və aktualdır. Şübhəsiz ki, Konstitusiya normalarının birbaşa tətbiqi qanunvericilikdə olan boşluqların aradan qaldırılması üsullarından biridir. Bu üsul həmçinin qanunlara əlavələr və dəyişikliklər edilməsini təşviq edir.

2002-ci ildə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu qəbul etməklə Azərbaycan Milli Məclisi Avropa İnsan Haqları Konvensiyasına hüquq sistemimizdə bir növ Konstitusion status vermişdir. Beləliklə, Konstitusiya normalarının tətbiqi faktiki olaraq Avropa Konvensiyasının müvafiq müddəalarının da birbaşa tətbiq olunması deməkdir. Yəni Konstitusiya normalarının tətbiqi vasitəsilə biz həmçinin qanunvericiliyimizi Avropa Konvensiyası standartlarına uyğun inkişaf etdirə bilirik. Məhz bu baxımdan Milli Məclis olaraq bu konfransı yüksək qiymətləndiririk. Əminik ki, konfransda səslənəcək fikirlər, təkliflər milli qanunvericiliyin inkişafına öz töhfəsini verəcəkdir.

Bir daha sizi və kollektivinizi yubileyiniz münasibəti ilə təbrik edirik.

**Ali HUSEYNLI**

***The 1st Deputy Chair of the Milli Majlis***

Dear Mr. Abdullayev,
Dear conference participants,

I greet you on behalf of the Speaker of the Azerbaijan Parliament, Mrs. Sahiba Gafarova, and congratulate you on the 25th anniversary of the establishment of the Constitutional Court.

The Constitutional Court has a special place in the 1995 Constitution adopted under the leadership of Great Leader Heydar Aliyev after Azerbaijan gained independence. That is why the Constitutional Court actively participated in the legal reforms implemented in the country in the following years after its establishment. We would like to emphasize that during these 25 years, there has been an environment of mutually effective cooperation between the Parliament and the Constitutional Court.

Dear conference participants,

As the name of the conference "Development of legislation through the application of constitutional norms" suggests, it is also relevant for us parliamentarians. Undoubtedly, the direct application of Constitutional norms is one of the ways to eliminate the loopholes in the legislation. This method also encourages additions and changes to laws.

In 2002, by adopting the Constitutional Law of the Republic of Azerbaijan "On the Regulation of the Implementation of Human Rights and Freedoms in the Republic of Azerbaijan", the Parliament of Azerbaijan gave somewhat Constitutional status to the European Convention on Human Rights in our legal system. Thus, the application of the Constitutional norms actually means the direct application of the relevant provisions of the European Convention. Furthermore, through the application of Constitutional norms, we are also able to develop our legislation in accordance with the standards of the European Convention. From this point of view, as the Parliament, we highly appreciate this conference. We are sure that the ideas and proposals that will be voiced at the conference will contribute to national legislation development.

Once again, we congratulate you and your team on your anniversary.

**Али ГУСЕЙНЛИ**

Первый заместитель председателя Милли Меджлиса

Уважаемый Фархад муаллим!
Уважаемые участники конференции!

От имени Председателя Милли Меджлиса Азербайджана Сахибы Гафаровой приветствую Вас и поздравляю с 25 летием создания Конституционного Суда.

Конституционному суду принадлежит исключительное место в Конституции 1995 года, принятой под руководством Великого Лидера Гейдара Алиева после обретения независимости. Именно поэтому в годы после создания Конституционный суд активно участвовал в проводимых в стране правовых реформах. Хотелось бы особо подчеркнуть, что в течении 25 лет между парламентом и Конституционным судом осуществляется взаимное эффективное сотрудничество.

Уважаемые участники конференции!

Конференция, "Развитие законодательства посредством применения конституционных норм" как видно из названия интересна и актуальна и для нас, парламентариев. Прямое применение конституционных норм несомненно является одним из методов устранения пробелов в законодательстве. Этот метод также поощряет внесение дополнений и изменений в законы.

Приняв в 2002 году Конституционный закон Азербайджанской Республики «О регулировании осуществления прав и свобод человека в Азербайджанской Республике» Милли Меджлис Азербайджана придал Европейской Конвенции прав человека своего рода конституционный статус в нашей правовой системе. Таким образом, применение конституционных норм фактически означает и прямое применение соответствующих положений Европейской Конвенции. То есть, посредством применения норм Конституции мы одновременно можем развивать наше законодательство в соответствии со стандартами Европейской Конвенции. Как Милли Меджлис мы высоко оцениваем нынешнюю конференцию именно с этой точки зрения. Уверены, что мысли и предложения, высказанные на конференции, внесут свой вклад в развитие законодательства.

Еще раз поздравляем Вас и Ваш коллектив с юбилеем!

**Fikrət MƏMMƏDOV**

***Azərbaycan Respublikasının ədliyyə naziri***

Hörmətli cənab sədr!
Dəyərli qonaqlar!
Xanımlar və cənablar!

İlk növbədə, hörmətli Fərhad müəllim, Sizi, Konstitusiya Məhkəməsinin hakimlərini və bütün kollektivini bu mühüm dövlət təsisatının yaradılmasının 25-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.

Yubileyin Ümummilli Liderin 100 illiyi ilə bağlı elan edilmiş "Heydər Əliyev İli"nə təsadüf etməsi xüsusilə əlamətdardır.

Ulu Öndərin müəllifi olduğu milli Konstitusiyamızın aliliyinin qorunması məqsədilə 1998-ci ildə formalaşan Konstitusiya Məhkəməsi uğurlu inkişaf yolu keçmişdir.

Bu münasibətlə təşkil olunmuş beynəlxalq konfrans məhkəmənin keçdiyi şərəfli yola nəzər salmaq, təhlillər aparmaq və təcrübələrlə bölüşmək baxımından olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konfrans iştirakçılarına müraciəti Konstitusiyanın aliliyinin təmin edilməsində bu yüksək Məhkəmənin müstəsna roluna verilən qiymətin əyani təzahürüdür.

Məhkəmənin müstəqillik, qərəzsizlik və ədalətlilik prinsiplərinə daim sadiq qalaraq səmərəli fəaliyyət göstərməsi böyük məmnunluq doğurur. Onun fəaliyyətini tənzimləyən qanunvericilik daim təkmilləşdirilir.

Ali konstitusiya ədalət mühakiməsi orqanı kimi Konstitusiya Məhkəməsinə hər kəsin şikayət hüququnun təsbit olunması qanunun aliliyinin və insanların konstitusion hüquqlarının qorunmasına ölkəmizin verdiyi müstəsna önəmin bariz nümunəsidir.

Bu gün dövlət başçısının rəhbərliyi ilə müasir çağırışlara uyğun aparılan hüquqi islahatlarda fəal iştirak edən Konstitusiya Məhkəməsi qanunvericiliyin təkmilləşdirilməsinə, müasir hüquq sistemimizin zənginləşdirilməsinə əvəzsiz töhfələr verir.

Məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasında Konstitusiya Məhkəməsinin təmsil olunmaqla məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasında, məhkəmə sisteminin nüfuzunun və hakimlərin müstəqilliyinin qorunmasında fəal iştirak etməsi xüsusi qeyd olunmalıdır.

Hörmətli tədbir iştirakçıları!

Hazırda özünün ən qüdrətli dövrünü yaşayan Azərbaycan ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızı 30 illik işğaldan azad edərək Böyük Qələbəmizlə tarixi ədaləti təmin etmiş, həmin ərazilərdə Konstitusiyamızın hüquqi qüvvəsi bərpa edilmişdir.

Artıq dövlət başçısının rəhbərliyi və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə sürətlə yenidən qurulan doğma torpaqlarımıza həmvətənlərimizin qayıdışının və hüquqlarının bərpasının sevincini yaşayırıq.

Konstitusiya Məhkəməsinin əsas hüquq və azadlıqların müdafiəsi, dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi naminə şərəfli missiyasını bundan sonra da uğurla yerinə yetirəcəyinə əminliyimizi ifadə edərək, əlamətdar yubiley münasibətilə bir daha Məhkəmənin kollektivini və hamımızı ürəkdən təbrik edir, konfransın işinə uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram!

**Fikrat MAMMADOV**

***Minister of Justice of the Azerbaijan Republic***

Dear Mr. Chairman,
Dear guests,
Ladies and gentleman!

First of all, Mr. Abdullayev, I sincerely congratulate you, the judges of Constitutional Court and the entire staff on the occasion of the 25th anniversary of the establishment of this important state institution, and I convey my best wishes.

It is particularly significant that the anniversary coincides with the "Year of Heydar Aliyev" announced in connection with the 100th anniversary of the National Leader.

Constitutional Court, which was formed in 1998 in order to protect the supremacy of our national Constitution authored by the Great Leader, has successfully developed.

International conference organized on this occasion is very important in terms of reviewing the honorable path of the court, conducting analyzes and sharing experiences.

The address of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev to the conference participants is a clear manifestation of the appreciation given to the exceptional role of this High Court in ensuring the supremacy of the Constitution.

It is a great satisfaction that the court operates efficiently, always adhering to the principles of independence, impartiality and fairness. The legislation regulating its activity is constantly being improved.

Establishing everyone's right to appeal to the Constitutional Court as a supreme constitutional justice body is a clear example of the exceptional importance our country attaches to the rule of law and the protection of people's constitutional rights.

Today, under the leadership of the head of state, the Constitutional Court, which actively participates in legal reforms in accordance with modern challenges, makes invaluable contributions to the improvement of legislation and the enrichment of our modern legal system.

Special mention should be made of the active participation of the Constitutional Court in increasing the efficiency of judicial activity, protecting the reputation of the judicial system and the independence of judges by representing the Constitutional Court in the Judicial-Legal Council, which is an independent self-governing body of the judiciary.

Dear event participants,

Currently living in its most powerful era, Azerbaijan, under the leadership of the President of the country, the victorious Commander-in-Chief, Mr. Ilham Aliyev, freed our ancestral lands from 30 years of occupation and ensured historical justice with our Great Victory, and the legal force of our Constitution was restored in those territories.

We are already experiencing the joy of returning our compatriots and restoring their rights to our native lands, quickly rebuilt with the active participation of the Head of State and First Vice-President of the Republic Mehriban Aliyeva.

Expressing our confidence that the Constitutional Court will continue to successfully fulfill its honorable mission on protecting basic rights and freedoms and strengthening the legal foundations of the state, I once again congratulate the staff of the Court and all of us on the occasion of a significant anniversary, and I wish success in the work of the conference.

Thanks for your attention!

**Фикрет МАМЕДОВ**

*Министр юстиции Азербайджана*

Уважаемый господин председатель!
Дорогие гости!
Дамы и господа!

Прежде всего сердечно поздравляю Вас, уважаемый Фархад муаллим, судей и весь коллектив Конституционного суда с 25-й годовщиной создания этого важного государственного института и передаю самые добрые пожелания.

Особенно знаменательно то, что юбилей совпал с "Годом Гейдара Алиева", объявленным в связи со 100-летием общенационального лидера.

Конституционный суд, сформированный в 1998 году с целью сохранения верховенства национальной Конституции, автором которой является великий лидер, прошел успешный путь развития.

Международная конференция, организованная по этому случаю, имеет чрезвычайно важное значение с точки зрения рассмотрения пройденного судом славного пути, проведения анализа и обмена опытом.

Обращение Президента Азербайджанской Республики господина Ильхама Алиева к участникам конференции служит наглядным проявлением оценки исключительной роли этого высокого суда в обеспечении верховенства Конституции.

Глубокое удовлетворение вызывает то, что суд осуществляет плодотворную деятельность, всегда придерживаясь принципов независимости, беспристрастности и справедливости. Законодательство, регулирующее его деятельность, постоянно совершенствуется.

Наглядным примером исключительного значения, придаваемого нашей страной защите верховенства закона и конституционных прав людей, является установление права каждого на обращение в Конституционный суд как высший орган конституционного правосудия.

Конституционный суд, активно участвуя в правовых реформах, проводимых сегодня под руководством главы государства в соответствии с велением времени, вносит неоценимый вклад в совершенствование законодательства, наполнение содержания нашей современной правовой системы.

Следует особо отметить, что Конституционный суд, будучи представлен в Судебно-правовом совете, являющемся независимым органом самоуправления судебной власти, активно участвует в повышении эффективности судебной деятельности, защите авторитета судебной системы и независимости судей.

Уважаемые участники мероприятия,

Азербайджан, переживающий в настоящее время самый могущественный период, освободив под руководством Президента страны, Победоносного Верховного Главнокомандующего господина Ильхама Алиева наши исконные земли от 30-летней оккупации, обеспечил благодаря Великой Победе историческую справедливость, восстановил на этих территориях юридическую силу нашей Конституции.

Мы уже переживаем радость возвращения соотечественников на родные земли, которые высокими темпами реконструируются под руководством главы государства и при активном участии Первого вице-президента республики Мехрибан Алиевой, и восстановления прав наших земляков.

Выражая уверенность в том, что Конституционный суд и впредь будет успешно выполнять свою почетную миссию во имя защиты основных прав и свобод, укрепления правовых основ государства, еще раз сердечно поздравляю коллектив суда и всех нас со знаменательным юбилеем, желаю работе конференции успехов.

Благодарю за внимание!

**İnam KƏRİMOV**

***Azərbaycan Respublikası***
***Ali Məhkəməsinin sədri***

Hörmətli Fərhad müəllim!
Hörmətli konfrans iştirakçıları!
Dəyərli qonaqlar, xanımlar və cənablar!

İlk öncə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyi münasibətilə başda sədr Fərhad Abdullayev olmaqla bütün hakimlərini və əməkdaşlarını Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi adından və şəxsən öz adımdan təbrik edirəm.

Bu il həmçinin xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd edir. Ölkəmizdə bütün sahələrin, o cümlədən məhkəmə hakimiyyətinin inkişafı onun adı ilə bağlıdır.

Azərbaycan Xalq Cumhuriyyətinin hüquqi varisi olan müasir Azərbaycan Respublikası 1990-cı illərin əvvəllərində müstəqilliyini bərpa etdikdən sonra böyük çətinliklərlə üz-üzə qaldığı, müstəqilliyimizin az qala itiriləcəyi bir vaxtda xalqımızın təkidilə hakimiyyətə qayıdan Ümummilli Lider əsl xilaskar kimi tarixə düşdü. Ölkədə yaranmış siyasi xaos, parçalanma təhlükəsinin qarşısı müdrik siyasətlə alınaraq parçalanmış, hər sahədə tənəzzül yaşayan bir ölkədən güclü, müasir Azərbaycan yaratmağa nail olundu.

Həmin dövrdə Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində önəmli işlər həyata keçirildi. Ölkəmizdə aparılan institusional və qanunvericilik islahatları ilə dövlətin siyasi, hüquqi və iqtisadi inkişafının əsası qoyuldu. Bütün bu islahatların təməlində isə 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyası dayanır.

Yeni Konstitusiya, mütərəqqi qanunlar, həyata keçirilən təşkilati işlər ölkəmizdə yeni hüquqi dövlətin möhkəm əsasını yaratdı. Yeni Azərbaycanda dövlət institutların müasirləşdirilməsi və gücləndirilməsi istiqamətində uğurlu tədbirlər həyata keçirildi. Ölkəmizdə ədalət mühakiməsinin də tamamilə yenidən yaradılması işlərinə başlanıldı. Qısa zaman ərzində yeni dövlət strukturunda üçpilləli yeni məhkəmə sistemi yaradıldı. 1998-ci ildə ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi fəaliyyətə başladı.

Aparılan islahatlar və görülən işlər yalnız ölkədə məhkəmə sisteminin strukturu və qanunvericilik bazası ilə məhdudlaşmadı. Həmçinin ölkənin hüquqi istiqaməti də müəyyən olundu. 2001-ci ildə Azərbaycan Avropa Şurasına üzv qəbul edildi. Ölkəmiz İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşuldu. Bununla da ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasında yeni mərhələ başladı. Bütün bunlar həmin dövrdə ölkənin hüquq sistemi üçün Konstitusiyasının qəbulu qədər önəmli bir nailiyyət idi.

Konstitusiya Məhkəməsinin yaradılması isə hüquqi dövlət quruculuğunun inkişafına təkan verən mühüm bir addım idi. Konstitusiya ölkənin siyasi mədəniyyətinin tərkib hissəsi kimi onun funksionallığının əsasını təşkil edir. Konstitusiya həmçinin ölkənin ən ali qanunu olmaqla, demoratik cəmiyyətdə hüquq və azadlıqların sərhədlərini də müəyyən edir. Konstitusiyanın aliliyini qorumaq işini Konstitusiya Məhkəməsi yerinə yetirir. Konstitusiya Məhkəməsi bu funksiyanı yerinə yetirməklə ölkədə demokratik təsisatların, konstitusionalizmin və insan hüquq və azadlıqlarının keşikçisi rolunu oynayır.

Ölkəmizdə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Konstitusiyasının və qanunların şərh edilməsi, hakimiyyətlər arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi və s. kimi önəmli səlahiyyətlərə malik ilk xüsusi məhkəmə təsisatıdır.

Baxmayaraq ki, Konstitusiya Məhkəməsi ölkəmizin hüquq sistemində yeni təsisatdır, yarandığı tarixdən etibarən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ölkəmizdə demokratiyanın inkişafına və dövlətçilik ənələlərimizin möhkəmlənməsinə önəmli töhfə vermişdir. Xüsusilə bir sıra konstitusiya normalarının rəsmi şərhi, müxtəlif sahələr üzrə qanunvericiliyin şərhi ilə Konstitusiya Məhkəməsi ölkəmizdə hüququn inkişafında mühüm rol oynayır.

Bildiyiniz kimi, son dövrlərdə ölkəmizdə məhkəmə sahəsində aparılan qanunvericilik islahatları ilə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin formalaşdırmaq vəzifəsi təsbit edilmişdir. Vahid məhkəmə təcrübəsi ölkənin hüquq sistemi üçün böyük əhəmiyyətə malikdir. Belə ki, bu təcrübə hüquqi müəyyənliyi təmin etməklə mübahisələrin məhkəmədən kənar həllinə, eləcə də ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verir.

Bu baxımdan Konstitusiya Məhkəməsi səlahiyyət və vəzifələrinin əsasını təşkil edən Konstitusiyanın və qanunların şərhi ilə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin formalaşdırılması istiqamətində fəaliyyətinə öz müsbət təsirini göstərəcək.

Hörmətli konfrans iştirakçıları!

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və Ordumuzun düşmən üzərində böyük qələbəsindən sonra azad olunmuş ərazilərimizdə Konstitusiyanın birbaşa qüvvəsi təmin edildi. Həmçinin bu möhtəşəm qələbə ilə regionumuzda yeni geosiyasi reallıqlar formalaşdı. Hazırda bu reallıqlar fonunda ölkəmizin qlobal əhəmiyyəti daha da artıb. Həm ölkəmiz, həm də ölkəmizin məhkəmə sistemi qarşısında yeni çağırışlar meydana gəlir. Bu çağırışlara cavab verə biləcək ən önəmli yol birgə əməkdaşlıqdır. Azərbaycan Respublikası Ali Məhkəməsi olaraq biz bütün tərəfdaşlarımızla ölkəmizdə müasir tələblərə cavab verən məhkəmə sisteminin formalaşmasına töhfə verə biləcək istənilən dialoqa və əməkdaşlığa hazırıq.

Mən bir daha sədr Fərhad Abdullayev başda olmaqla şərəfli və məsuliyyətli vəzifəni yerinə yetirən Konstitusiya Məhkəməsinin bütün hakimlərini və əməkdaşlarını Konstitusiya Məhkəməsinin 25 illiyi münasibətilə ürəkdən təbrik edir, işlərində uğurlar arzulayıram.

Diqqətiniz üçün təşəkkür edirəm!

**Inam KARIMOV**

***Chief Justice of Supreme Court of Azerbaijan***

Dear Mr. Abdullayev,
Dear conference participants,
Dear guests, ladies and gentlemen,

First of all, on behalf of the collective of the Supreme Court of the Republic of Azerbaijan and on my own behalf, I would like to congratulate all judges and employees, especially the Chairman Farhad Abdullayev, on the occasion of the 25th anniversary of the Constitutional Court of the Republic of Azerbaijan.

This year, our nation also celebrates the 100th anniversary of the founder of modern Azerbaijan, Great Leader Heydar Aliyev. The development of all areas in our country, including judicial authority, relates to his name.

The National Leader, who returned to power at the insistence of our people, went down in history as a real savior when the modern Republic of Azerbaijan, the legal successor of the Azerbaijan People's Republic, faced great difficulties after regaining its independence in the early 1990s, when our independence was about to be lost. The political chaos and the threat of disintegration in the country were prevented by wise policy, and it was possible to create a strong, modern Azerbaijan from a divided country that was experiencing decline in all areas.

During this period, fruitful work on legal state building was carried out in Azerbaijan. The institutional and legislative reforms carried out in our country laid the foundations for the political, legal and economic development of the state. All these reforms are based on the new Constitution of the Republic of Azerbaijan adopted in 1995.

The new Constitution, progressive laws, implemented organizational works created a solid foundation of a new legal state in our country. Successful measures were taken in the direction of modernization and strengthening of state institutions in new Azerbaijan. The work of completely re-establishing the justice system in our country has been started. In a short time, a new three-level judicial system was created in the new state structure. In 1998, Constitutional Court, which is the supreme constitutional justice body, began to function.

The reforms and the work carried out were not limited to the structure and legislative framework of the judicial system in the country. The legal direction of the country was also determined. In 2001, Azerbaijan became a member of the Council of Europe. Our country joined the European Convention on the Protection of Human Rights and Fundamental Freedoms. With this, a new stage in the protection of human rights and freedoms began in our country. All this was an achievement as important as the adoption of the Constitution for the country's legal system at that time.

The establishment of the Constitutional Court was an important step that encouraged the development of legal state-building. The Constitution is the basis of its functionality as a part of the country's political culture. The Constitution, being the supreme law of the state, also defines the boundaries of rights and freedoms in a democratic society. The work of protecting the supremacy of the Constitution is carried out by the Constitutional Court. By fulfilling this function, the Constitutional Court plays the role of guardian of democratic institutions, constitutionalism and human rights and freedoms in the country.

In our country, the Constitutional Court is the first special judicial institution with such authoritative powers as interpretation of the Constitution and laws of the Republic of Azerbaijan, resolution of disputes between the authorities on the division of powers, verification and approval of election results, etc.

Although the Constitutional Court is a new institution in the legal system of our country, since its establishment, the Constitutional Court of the Republic of Azerbaijan has made an important contribution to the development of democracy in our country and the strengthening of our statehood. In particular, thanks to the official interpretation of a number of constitutional norms, the interpretation of legislation in various areas, the Constitutional Court plays an important role in the development of law in our country.

As you know, recently, legislative reforms in the judicial sphere in our country have set the task of forming a unified judicial practice of the Supreme Court. Uniform judicial practice is of great importance for the legal system of the country. Thus, this practice contributes to the out-of-court settlement of disputes by providing legal certainty, as well as increasing the efficiency and quality of justice.

From this point of view, the Constitutional Court will have a positive influence on the activity of the Supreme Court in the direction of forming a unified judicial practice by interpreting the Constitution and laws that form the basis of its powers and duties.

Dear conference participants!

After the great victory of our people and Army over the enemy under the leadership of the victorious Commander-in-Chief Ilham Aliyev in the 44-day Patriotic War, the direct force of the Constitution was ensured in our liberated territories. Thanks to this grandiose victory, new geopolitical realities have formed in our region. Currently, against the background of these realities, the global importance of our country has increased even more. Both our country and our judicial system face new challenges. The most important way to respond to these challenges is joint cooperation. As the Supreme Court of the Republic of Azerbaijan, we are ready for any dialogue and cooperation with all our partners who can contribute to the formation of a judicial system in our country that meets modern requirements.

Once again, I heartily congratulate all the judges and employees of the Constitutional Court, led by Chairman Farhad

Abdullayev, who have fulfilled their honorable and responsible duties, on the occasion of the 25th anniversary of the Constitutional Court, and wish them success in their work.

Thank you for your attention!

**Инам КЕРИМОВ**

***Председатель Верховного суда Азербайджанской Республики***

Уважаемый Фархад муаллим,
Уважаемые участники конференции,
Дорогие гости, дамы и господа

Прежде всего, от имени коллектива Верховного Суда и от себя лично поздравляю всех судей и сотрудников Конституционного Суда Азербайджанской Республики во главе с председателем Фархадом Абдуллаевым с 25-летием.

В этом году наш народ также отмечает 100 -летие основателя современного Азербайджана великого лидера Гейдара Алиева. Развитие всех сфер, в том числе судебной власти, в нашей стране связано с его именем.

После восстановления независимости в начале 1990-х годов современная Азербайджанская Республика, являющаяся правоприемницей Азербайджанской Демократической Республики, столкнулась большими трудностями, общенациональный лидер, вернувшийся к власти по настоянию народа в период, когда независимость чуть не была утрачена, вошёл в историю как настоящий спаситель. Возникший

Благодаря мудрой политике были предотвращены царившие в стране политический хаос, угроза распада, из страны, переживавшей кризис во всех сферах, был создан могущественный, современный Азербайджан.

В этот период в Азербайджане была проделана важная работа в области строительства правового государства. Благодаря проводимым в нашей стране институциональным и законодательным реформам была заложена основа политического, правового и экономического развития государства. В корне всех этих реформ находится новая Конституция Азербайджанской Республики, принятая в 1995 году.

Новая Конституция, прогрессивные законы, проделанная организационная работа создали прочную основу нового правового государства. В новом Азербайджане были приняты успешные меры, направленные на модернизацию и усиление государственных интересов. В стране также началось создание совершенно новой судебной системы. В краткий срок в новой государственной структуре была создана новая трехступенчатая судебная система. В 1998 году приступил к деятельности Конституционный Суд – орган высшего конституционного правосудия.

Проведенные реформы и проделанная работа не ограничились только структурой судебной системы и законодательной базой в стране. Было намечено также правовое направление страны. В 2001 году Азербайджан был принят в Совет Европы. Наша страна присоединилась к Европейской Конвенции о защите прав человека и основных свобод. Тем самым в нашей стране начался новый этап защиты прав и свобод человека. В тот период все это явилось таким же важным достижением для правовой системы страны, как и принятие новой Конституции.

Создание же Конституционного суда стало важным шагом, придающим импульс развитию строительства правового государства. Конституция как составная часть политической культуры страны, составляет основу её функциональности. Конституция, также являясь основным законом страны устанавливает границы прав и свобод в демократическом обществе. Защиту верховенства Конституции осуществляет Конституционный суд. Выполняя эту функцию Конституционный суд играет роль защитника демократических учреждений, конституционализма, прав и свобод человека в стране.

Конституционный Суд в нашей стране является первым специальным судебным учреждением, обладающим такими важными полномочиями, как толкование Конституции и законов Азербайджанской Республики, разрешение споров, связанных с разграничением полномочий между ветвями власти, проверка и утверждение результатов выборов и т.д.

Несмотря на то, что Конституционный суд – это новый институт в правовой системе страны, с момента создания Конституционный суд Азербайджанской Республики внес весомый вклад в развитие демократии и укрепление традиций государственности в стране. Конституционный суд играет важную роль в развитии права в нашей стране, в частности, благодаря официальному толкованию ряда конституционных норм, толкованию законодательства по различным отраслям.

Как вам известно, перед Верховным судом поставлена задача сформировать в результате законодательных реформ, проводимых в последнее время в судебной системе в нашей стране единую судебную практику. Единая судебная практика представляет большое значение для правовой системы страны. Так данная практика, обеспечивая правовую определенность вносит вклад во внесудебное разрешение споров, а также повышение эффективности и качества правосудия.

В этом контексте Конституционный суд благодаря толкованию Конституции и законов, составляющему основу его полномочий и обязанностей, окажет позитивное влияние на деятельность Верховного суда, направленную на формирование единой судебной практики.

Дорогие участники конференции!

После великой победы нашего народа и армии под руководством Победоносного Верховного главнокомандующего Ильхама Алиева в 44 – дневной Отечественной войне, было обеспечено прямое действие Конституции на наших освобождённых территориях. Кроме того, с этой грандиозной победой в нашем регионе сформировались новые геополитические реалии. В настоящее время на фоне этих реалий глобальное значение нашей страны ещё более возросло. Как перед страной, так и перед её судебной системой возникают новые вызовы. Важнейший путь для ответа на эти вызовы – совместное сотрудничество. Как Верховный суд Азербайджанской Республики мы готовы к любому диалогу и сотрудничеству со всеми партнёрами для внесения вклада в формирование в нашей стране современной судебной системы.

Ещё раз сердечно поздравляю всех судей и сотрудников Конституционного суда, выполняющего почетную и ответственную задачу во главе с Фархадом Абдуллаевым с 25-летием Конституционного Суда и желаю им успехов в работе.

Благодарю за внимание!

**Səbinə ƏLİYEVA**

***Azərbaycan Respublikasının***
***İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***

Hörmətli Fərhad müəllim!

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, məsuliyyətli fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

Konstitusiya Məhkəməsini bu möhtəşəm yubileyi münasibətilə təbrik etmək, həqiqətən də, mənim üçün böyük fəxrdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsinə seçilməzdən əvvəl əməkdaşı olduğum Konstitusiya Məhkəməsi ötən 25 il ərzində özünü Azərbaycan Respublikasının hüquq sistemində müstəqil institut kimi təsdiqləmiş, qəbul etdiyi qərarlar ölkəmizin hüquq sisteminin çox mühüm hissəsinə çevrilmişdir.

Dövlət müstəqilliyimizin bərpasından sonra 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş və Ümummilli Liderin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyası müstəqillik yolunda əsas mərhələnin başlanğıcı olmuş, eyni zamanda, konstitusiya ədalət mühakiməsinin hüquqi əsasını qoymuşdur. Bu müddət ərzində ölkəmiz insanın, onun hüquq və azadlıqlarının ən yüksək dəyər olduğu demokratik hüquqi dövlət quruculuğu yolunda böyük yol keçmişdir.

Ölkəmizdə müxtəlif ictimai münasibətləri nizama salan qanunvericilik sisteminin formalaşması ilə yanaşı, müasir çağırışlara cavab verən məhkəmə-hüquq sisteminin əsasının qoyulması, hüquq-müdafiə mexanizmlərinin yaradılması istiqamətində aparılmış islahatlar çərçivəsində 1997-ci ildə Konstitusiya Məhkəməsi haqqında ilk qanunun qəbul edilməsi bu sahədə mühüm nailiyyətlərdən biri olmuşdur.

Qəbul etdiyi qərarların mütləq əksəriyyəti birbaşa insan hüquq və azadlıqlarının qorunmasına yönələn Konstitusiya Məhkəməsinin hüquqi mövqeyinin məhkəmələr tərəfindən hüquqtətbiqetmə fəaliyyətində istifadə olunması insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təminatları daha da artırır.

Ali konstitusiya mühakiməsi orqanı kimi konstitusion normaların aliliyinin təmin edilməsində yeni tarixi səhifə açan Konstitusiya Məhkəməsi hüququn aliliyinə hörmət prinsipinin möhkəmləndirilməsində yeni imkanlar yaratdı. Qanunvericilik sisteminin təkmilləşdirilməsi, hüququn müəyyənliyi, vahid məhkəmə təcrübəsinin formalaşması, seçki, azadlıq, şəxsi toxunulmazlıq, mülkiyyət, sosial təminat və bu kimi maddi və prosessual hüquqların təmin edilməsi ilə bağlı əhəmiyyətli irəliləyişə və müsbət nəticələrə nail olundu.

Konstitusiya ədalət mühakiməsi orqanının dövlətdaxili hüquq müdafiə vasitələrinin təkmilləşdirilməsində mühüm rolu, həmçinin onun müvafiq dövlət qurumları, qanunvericilik orqanı, habelə Ombudsman təsisatı ilə əməkdaşlığının gücləndirilməsi sahəsində fəaliyyəti xüsusi qeyd edilməlidir.

Ötən müddət ərzində Ombudsman təsisatı ilə dövlət və yerli özünüidarə orqanları, vətəndaş cəmiyyəti institutları arasında insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmini sahəsində geniş işgüzar əlaqələr qurulmuşdur. Bu sırada Konstitusiya

Məhkəməsi ilə Ombudsman təsisatı arasında mövcud olan əməkdaşlıq əlaqələri böyük əhəmiyyət kəsb edir.

İyirmi ildən artıqdır ki, konstitusion-hüquq institutu və müstəqil məhkəmədənkənar hüquq müdafiə mexanizmi kimi fəaliyyət göstərən Ombudsman təsisatının, eyni zamanda, Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququna malik olması insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi sahəsində mühüm vasitələrdən birinə çevrilmişdir.

Bu günədək Müvəkkil tərəfindən Konstitusiya Məhkəməsinə ünvanlanmış 40-dan çox sorğuya baxılmış, aidiyyəti qərar və qərardadlar qəbul edilmişdir ki, bu da ölkəmizdə normativ hüquqi bazanın insan hüquq və azadlıqlarının təmini baxımından davamlı olaraq təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm nailiyyət kimi qiymətləndirilə bilər.

Mütərəqqi prinsiplər əsasında hazırlanmış Azərbaycan Respublikası Konstitusiyasına əsasən, Konstitusiya Məhkəməsi Azərbaycan xalqının taleyində həlledici məsələlərlə bağlı çox mühüm səlahiyyətlərə malik bir orqandır.

Rəhbərlik etdiyiniz qurum Əsas Qanunumuzun aliliyinin təmin edilməsi kimi vacib bir amala xidmət edərək insan hüquq və azadlıqlarının müdafiəsinə zəruri töhfələr verir, üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gəlir.

Konstitusiya prinsiplərinin möhkəmləndirilməsində Konstitusiya Məhkəməsinin artmaqda olan roluna və nüfuzuna diqqəti çəkərək qeyd etmək istərdim ki, bu yüksək dövlət qurumu tərəfindən təşkil olunan bütün tədbirlərdə hüququn strateji məsələlərinə toxunulmuş, qanunvericiliyin insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi və səmərəli təmini üzrə problemlərinə daha geniş yer verilmişdir.

Həm ölkədaxili, həm də beynəlxalq təcrübə onu deməyə əsas verir ki, Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər bir insanın əsas hüquq və azadlıqlarını müdafiə etmək məqsədilə yaradılan Konstitusiya Məhkəməsi ötən 25 ildə böyük təkamül yolu keçmiş, ölkəmizin məhkəmə-hüquq sistemində layiqli yer tutmuşdur.

Konstitusiya Məhkəməsinin malik olduğu yüksək nüfuz milli hüquq sistemi çərçivəsində qanunçuluq və qanunun aliliyi sahəsində təminatların həyata keçirilməsinə böyük töhfələr verməkdədir. Belə ki, bu yüksək dövlət qurumunun vətəndaşların Konstitusiya ilə müəyyən edilmiş hüquqlarının təmini yönümündə əldə etdiyi böyük təcrübə qanunvericiliyin insan hüquq və azadlıqlarının təmini sahəsində səmərəliliyinin artırılması məqsədilə davamlı olaraq təkmilləşdirilməsi üçün əhəmiyyətli vasitədir.

Eyni zamanda nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının yaradılmasının 20 illiyi çərçivəsində və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illik yubileyi münasibətilə tərəfimizdən "Ombudsman və Konstitusiya Məhkəməsi arasında qarşılıqlı əməkdaşlıq: aktlar toplusu (2002-2022-ci illər üzrə)" adlı kitab hazırlanmışdır.

Diqqətinizə çatdırılan bu kitabda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) sorğuları əsasında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilmiş qərarlar (qərardadlar), eləcə də verilmiş sorğular və onlarla bağlı qəbul edilmiş aktların nəticələrinin qısa təsviri, habelə Ombudsmanın Konstitusiya Məhkəməsinə sorğu vermək hüququnu müəyyən edən normativ hüquqi aktlardan çıxarışlar öz əksini tapmışdır.

Bir daha Siz başda olmaqla məhkəmənin bütün hakim heyətini və bu ali dövlət orqanının əməkdaşlarını 25 illik yubiley münasibətilə təbrik edir, Sizə Azərbaycanın hüquq sisteminin inkişafı sahəsində böyük uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sabina ALIYEVA**

***the Commissioner for Human Rights (Ombudsman) of the Azerbaijan Republic***

Dear Mr. Abdullayev,

I sincerely congratulate you and the staff you lead on the occasion of the 25th anniversary of the Constitutional Court of the Republic of Azerbaijan, and I wish you new achievements in your responsible activities.

It is indeed a great honor for me to congratulate the Constitutional Court on this great anniversary.

The Constitutional Court of the Republic of Azerbaijan, in which I worked before being elected to the post of the Commissioner for Human Rights (Ombudsman), over the past 25 years has approved itself as an independent institution in the legal system of the Republic of Azerbaijan, the decisions made have become a very important part of the legal system of our country.

After the restoration of our state independence, the Constitution of the Republic of Azerbaijan, adopted on November 12, 1995 and authored by the National Leader, was the beginning of the main stage on the way to independence, and at the same time, it laid the legal basis of constitutional justice. During this time, our country has come a long way towards a democratic legal state where people, their rights and freedoms are most valuable.

In addition to the formation of a legislative system that regulates various social relations in our country, the adoption of the first law on Constitutional Court in 1997 within the framework of the reforms carried out in the direction of the establishment of the legal system that meets modern challenges and the creation of legal defense mechanisms was one of the important achievements in this field.

The use of the legal position of the Constitutional Court, where the majority of its decisions are directly aimed at the protection of human rights and freedoms, by the courts in law enforcement activities increases the guarantees in the field of protection of human rights and freedoms.

The Constitutional Court, which opened a new historical page in ensuring the supremacy of constitutional norms as the supreme constitutional judicial body, created new opportunities for strengthening the principle of respect for the rule of law. Significant progress and positive results were achieved regarding the improvement of the legislative system, the determination of law, the formation of uniform judicial practice, the provision of material and procedural rights such as election, freedom, personal integrity, property, social security and so on.

The important role of the constitutional justice body in improving domestic legal remedies, as well as its activity in the field of strengthening cooperation with the relevant state institutions, legislative body, as well as the Ombudsman institution, should be specially noted.

During the past period, extensive working relations have been established between the Ombudsman institution and state and local self-government bodies, civil society institutions in the field of more efficient provision of human and civil rights and free-

doms. At the same time, the cooperation between the Constitutional Court and the Ombudsman institution is of great importance.

For more than twenty years, the Ombudsman institution, which has been operating as a constitutional-legal institution and an independent out-of-court legal protection mechanism, and at the same time having the right to appeal to the Constitutional Court with a request, has become one of the important tools in the field of reliable protection of human rights and freedoms.

To date, more than 40 requests addressed to the Constitutional Court by the Commissioner have been examined, relevant decisions and resolutions have been adopted, which can be considered as an important achievement in the direction of continuous improvement of the normative legal framework in our country in terms of ensuring human rights and freedoms and adapting it to international standards.

According to the Constitution of the Republic of Azerbaijan, which was developed on the basis of progressive principles, the Constitutional Court is a body with very important powers related to decisive issues in the fate of the Azerbaijani people.

The institution you lead serves the important task of ensuring the supremacy of our Basic Law, makes necessary contributions to the protection of human rights and freedoms, and successfully copes with the tasks assigned to it.

Drawing attention to the growing role and authority of the Constitutional Court in strengthening the constitutional principles, I would like to note that in all the events organized by this high state institution, the strategic issues of law were touched upon, and the problems of the legislation on more reliable protection and efficient provision of human rights and freedoms were given a wider place.

Both domestic and international experience suggests that the Constitutional Court, established in order to ensure the supremacy of the Constitution of the Republic of Azerbaijan and to protect the basic rights and freedoms of every person, has undergone great evolution in the past 25 years and has taken a worthy place in the judicial and legal system of our country.

The high reputation of the Constitutional Court makes great contributions to the implementation of guarantees in the field of legality and rule of law within the framework of the national legal system. Thus, the great experience gained by this high state institution in the direction of ensuring the rights of citizens determined by the Constitution is an important tool for continuous improvement of the legislation in order to increase the efficiency in the field of ensuring human rights and freedoms.

At the same time, I would like to inform you that within the framework of the 20th anniversary of the establishment of the Human Rights Commissioner (Ombudsman) of the Republic of Azerbaijan and on the occasion of the 25th anniversary of the Constitutional Court of the Republic of Azerbaijan, we have prepared a book called "Mutual cooperation between the Ombudsman and the Constitutional Court: a collection of acts (for the years 2002-2022)".

In this book brought to your attention, the decisions (rulings) adopted by the Constitutional Court of the Republic of Azerbaijan based on the requests of the Human Rights Commissioner (Ombudsman) of the Republic of Azerbaijan, as well as a brief description of the results of the requests and acts adopted in connection with them, as well as extracts from normative legal acts defining the right of the Ombudsman to submit a request to the Constitutional Court have been reflected.

Once again, I congratulate the entire judicial staff of the Court and employees of this highest state body on the occasion of the 25th anniversary, I wish you great success in the development of the legal system of Azerbaijan.

Thank you for your attention!

**Сабина АЛИЕВА**

***Уполномоченный по Правам Человека (Омбудсмен) Азербайджанской Республики***

Уважаемый Фархад муаллим!

Позвольте поздравить Вас и возглавляемый Вами коллектив по случаю 25-летия создания Конституционного Суда Азербайджанской Республики и пожелать Вам больших успехов и дальнейшей плодотворной работы.

Для меня возможность поздравить Конституционный Суд в связи со значимым юбилеем является особой честью.

Конституционный Суд, в котором в рамках профессиональной деятельности мне выпала возможность работать до избрания на должность Уполномоченного по правам человека (Омбудсмена), зарекомендовал себя как независимый институт правовой системы Азербайджанской Республики и за период своего существования превратился в важный механизм регулирования системы конституционного правосудия в нашей стране.

Принятая 12 ноября 1995 года Конституция Азербайджанской Республики, автором которой является Общенациональный лидер Гейдар Алиев, явилась символом государственного строительства и гарантом защиты прав и основных свобод человека. За этот период наша страна прошла большой путь построения демократического правового государства, высшей ценностью которого являются человек, его права и свободы.

Большим достижением в этой области явилось принятие в 1997-ом году первого Закона "О Конституционном Суде", сопутствующего созданию нормативно-правовой системы, регулирующей различные общественные отношения и основанию судебно-правовой системы, отвечающей вызовам современного мира.

Использование судами в правоприменительной деятельности правовой позиции Конституционного Суда, большинство решений которого напрямую имеет отношение к области защиты прав и свобод человека, повышает гарантии в сфере защиты прав и свобод человека.

Конституционный Суд, открывший новую историческую страницу в области обеспечения конституционных принципов и норм, как высший судебный орган конституционного контроля создал новые возможности в сфере эффективного соблюдения верховенства закона. Значительный прогресс и положительные результаты были достигнуты в области совершенствования законодательной системы и системы правоотношений, формирования единой судебной практики, обеспечения материальных и процессуальных прав, таких, как избрание, свобода, неприкосновенность личности, собственность, социальное обеспечение.

Особо следует отметить важную роль органа конституционной юстиции в совершенствовании внутригосударственных механизмов правовой защиты, а также деятельность в сфере укрепления сотрудничества с соответствующими государственными учреждениями, законодательным органом, а также институтом Омбудсмена.

Аппарат Уполномоченного по правам человека (Омбудсмен) Азербайджанской Республики установил широкие деловые связи с государственными ведомствами, представителями гражданского общества в целях более эффективного обеспечения прав и свобод человека. В этой связи немаловажная роль отводится развитию плодотворного сотрудничества с Конституционным Судом страны.

Одним из важных инструментов в сфере надежной защиты прав и свобод человека стало укрепление за институтом Омбудсмена, действующего в качестве конституционно-правового и внесудебного правозащитного механизма на протяжении более 20 лет, права обращаться с запросом в Конституционный Суд.

Конституционным Судом Азербайджана было рассмотрено более 40 обращений Уполномоченного, в результате чего были приняты соответствующие решения и постановления. Все это является ярким показателем слаженной деятельности по усовершенствованию нормативно-правой базы в сфере защиты прав и свобод человека в нашей стране.

Возглавляемое Вами ведомство выполняет важную роль в вопросах обеспечения верховенства Конституции, вносит значимый вклад в область защиты прав и свобод человека, успешно справляется с возложенными на него задачами.

Учитывая возрастающую роль и авторитет Конституционного Суда в укреплении конституционных принципов, хотелось бы отметить, что на всех мероприятиях, организованных этим высшим государственным органом, затрагиваются наиболее важные стратегические вопросы по соблюдению верховенства права, усовершенствованию нормативно-правовой системы, более эффективной защите и обеспечению прав и свобод человека.

Конституционный Суд как высший орган конституционного правосудия за последние 25 лет внес большой вклад в развитие правовых ценностей и занял достойное место в судебно-правовой системе нашей страны.

Своей эффективной деятельностью Конституционный Суд стал надежным гарантом прав человека и верховенства закона. Большой опыт, накопленный этим высшим государственным ведомством в области обеспечения прав человека, определенных Конституцией, способствует устойчивому развитию и совершенствованию национального законодательства в области защиты прав человека.

Позвольте еще раз поздравить Вас и возглавляемый Вами коллектив с 25-летием Конституционного Суда и пожелать дальнейших успехов в вашей деятельности, направленной на соблюдение верховенства закона и эффективное обеспечение прав человека.

Благодарю за внимание!

**Heydər MƏMMƏDOV**

***Azərbaycan Respublikası***
***Baş prokurorunun müavini***

Hörmətli Fərhad müəllim, hörmətli tədbir iştirakçıları!

Bu gün Azərbaycan Respublikasında ali konstitusiya ədalət mühakiməsi orqanının – Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasının 25 illik yubileyi qeyd olunur. Ölkəmizdə tam yeni dövlət institutu olan konstitusiya nəzarəti orqanının yaradılması bu il 100 illik yubileyini qeyd etdiyimiz Xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycan Respublikasının siyasi rəhbərliyinə qayıdışından sonra ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu siyasətinin gerçəkləşdirilməsinə başlanılmış, bu siyasətin mühüm tərkib hissəsi kimi hüquqi islahatlar aparılmış, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması, təkmil qanunvericilik bazasının yaradılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

İctimai münasibətlər sisteminin müasir dəyərlərə uyğun təşkilini tələb edən bu mürəkkəb proses çərçivəsində ən əhəmiyyətli hadisə Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi olmuşdur. Yeni Konstitusiya ölkəmizin dayanıqlı inkişafının əsas prioritetlərini müəyyənləşdirməklə yanaşı, siyasi, hüquqi, eləcə də sosial-iqtisadi sahələrdə ciddi islahatların aparılmasına, milli səviyyədə bir çox fundamental problemlərin həllinə imkan yaratmışdır.

Məlum olduğu kimi, Konstitusiya hər bir ölkənin əsas qanunu olmaqla qanunvericilik sistemində xüsusi yer tutur, dövlətin və cəmiyyətin inkişafının strateji məqsəd və vəzifələrini, dövlət quruluşunu müəyyənləşdirir, insan, cəmiyyət və dövlət arasında münasibətləri tənzimləyən əsasları təsbit edir. Hüquqi və siyasi sistemin təməlini əks etdirən Konstitusiyanın ən yüksək və ali hüquqi qüvvəyə malik normaları bütün hüquqi tənzimetmə sisteminin əsasında durur, onların qəbulu, xüsusən də oradakı müddəaların reallaşdırılması ictimai münasibətlərin inkişafında sabitlik və müəyyənlik amili qismində çıxış edir.

Konstitusiyanın Azərbaycanın hüquq sisteminə gətirdiyi əhəmiyyətli yeniliklərdən biri də həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan institutun – konstitusiya nəzarəti orqanının yaradılması olmuşdur.

Qeyd edilməlidir ki, müasir dünyada konstitusiya nəzarəti institutu hüququn aliliyinin təmin edilməsinin, hakimiyyət sisteminin demokratikləşdirilməsinin, habelə insan hüquq və azadlıqlarının müdafiə olunmasının etibarlı mexanizmlərindən biri kimi qəbul edilir.

Konstitusiyamızda Konstitusiya Məhkəməsinin dövlət orqanları sistemində yeri və rolu, habelə səlahiyyətlərinin dairəsi müəyyənləşdirilmişdir. 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul

edilmiş, 1998-ci il iyulun 14-də Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi ilə və 4 gün sonra Ulu Öndər Heydər Əliyevin Konstitusiya Məhkəməsinin müstəqilliyini və hakimlərinin hüquqi statusunu təmin etmək məqsədi ilə imzaladığı Fərmanla Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başlamış oldu. Bu baxımdan ölkəmizdə konstitusionalizm ideyalarının inkişafı, konstitusiya nəzarəti orqanının real fəaliyyətə başlaması, onun müstəqilliyinin təmin edilməsi, hakimlərinin sosial təminatının və müdafiəsinin gücləndirilməsində məhz xalqımızın Ümummilli Lideri, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin misilsiz xidmətləri danılmazdır.

Konstitusiya məhkəməsinin yaranmasından ötən 25 il ərzində Konstitusiya Məhkəməsi ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində fəal iştirak etmiş, qəbul etdiyi qərarlarla Əsas Qanununun aliliyinin təmin edilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə öz dəyərli töhfələrini vermişdir.

Məhkəmə islahatları çoxsaylı konstitusiya dəyişikliklərindən və 2016-cı ildə qəbul edilmiş bir sıra qanunlardan ibarət idi. Hakimlərin və prokurorların dürüstlüyünün və peşəkarlığının "yoxlama prosesi" adlanan inzibati/kvazimәhkәmә (Kvazimәhkәmә-mәhkәmә orqanı olmadan mәhkәmәyә yaxın funksiyanı hәyata keçirәn orqana deyilir) yenidən qiymətləndirilmə prosesi vasitəsilə təmin edilməsinə dair yeni xüsusi qanun qəbul edilmişdir. Hakimlərin və prokurorların yenidən qiymətləndirilməsi prosesi üç komponentə əsaslanır: şəxsi aktivlər (daşınar əmlak və pul vəsaitləri), şəxsi keyfiyyət və peşəkarlıq. Birinci yoxlamadan keçməyən hakim və prokurorlar Konstitusiya Məhkəməsinin bu məqsədlə yaradılmış xüsusi palatasına apellyasiya şikayəti verə bilərlər. İndiyədək hakim və prokurorların 80%-i qiymətləndirilib və onların yarısının yoxlanışdan keçməməsi məhkəmə sistemində xeyli sayda vakant yerlərin yaranmasına

səbəb olub. Bu, bütün məhkəmə instansiyalarında məhkəmə proseslərinin ləngiməsinə, digər hakim və prokurorların iş yükünün əhəmiyyətli dərəcədə artmasına səbəb oldu.

Bundan əlavə, məhkəmə islahatları çərçivəsində Prezident, baş nazirlər, parlament üzvləri, hakim və prokurorlar kimi yüksək rütbəli dövlət məmurlarının arasında korrupsiya hallarının araşdırılması və mühakimə olunması məqsədilə korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə xüsusi prokurorluq və xüsusi məhkəmə yaradılmışdır. Hazırda istintaq və məhkəmə icraatında 24 nəfər yüksək biliklərə malik olan məmur var. Müsadirə edilmiş əmlakın və dövlət büdcəsinə köcürülən məbləğin dəyəri 6 milyon avrodan yuxarıdır.

Konstitusiya Məhkəməsinə gəlincə, məhkəmə islahatlarının tərkib hissəsi kimi qanunvericiliyə edilən dəyişikliklərdə əsas diqqət məhkəmənin müstəqilliyi və qərəzsizliyini artırmaq üçün məhkəmənin tərkibinə, o cümlədən müvafiq hüquqi prosedura əsaslanan şikayətlərdən əlavə olaraq əsas insan hüquqlarının pozulduğunu iddia edən şəxslərə daha geniş çatımlılıq imkanını təmin etmək məqsədilə məhkəmənin yurisdiksiyasına yönəlmişdir.

Konstitusiya dəyişiklikləri Konstitusiya Məhkəməsi hakimlərinin seçilməsi və təyinatı sistemini dəyişdirmişdir. Məhkəmə islahatları ilə bağlı dəyişikliklərdən əvvəl Konstitusiya Məhkəməsinin üzvlərini Parlamentin razılığı ilə Prezident təyin edirdisə, dəyişikliklərdən sonra üzvlərin üçdə biri (1/3) Prezident, üçdə biri (1/3) Parlament və qalan üçdə bir hissəsi (1/3) Ali Məhkəmə tərəfindən seçilir.

Yuxarıda qeyd etdiyim kimi namizədlərin Respublika Prezidenti, Parlament, Ali Məhkəmə tərəfindən seçilməsi yalnız ən yüksək reytinqə malik üç namizədlə məhdudlaşır və onlar Hakimlərin Təyinatı Şurası (Məhkəmə Hüquq Şurası) adlanan kollegial şura tərəfindən qiymətləndirilir. Bu Şura müxtəlif məhkəmə orqanlarının nümayəndələrindən (birinci instansiya və apellyasiya məhkəmələri, birinci instansiya və apellyasiya prokurorluqları, Konstitusiya Məhkəməsinin iki hakimi və Ali Məhkəmənin iki hakimi) ibarətdir. Təyinat Şurasının üzvləri yalnız bir il müddətinə seçilir. Belə bir mexanizm və düstur Konstitusiya Məhkəməsinin üzvlərinin obyektiv və ləyaqətə əsaslanan meyarlar əsasında seçilməsi və sıralanmasını təmin etmək məqsədi daşıyır.

Bu yeni təyinat sisteminin tətbiqi təcrübədə bir çox problemlərin yaranmasına səbəb olub. Faktiki olaraq, Konstitusiya Məhkəməsi təqribən üç ilə yaxın tam fəaliyyət göstərməmiş, 2020-ci ilin dekabrında qismən tərkibdə fəaliyyətini bərpa edərək 2022-ci ilin dekabrında tam şəkildə fəaliyyətə başlamışdır.

2016-cı ilin məhkəmə islahatlarına əsasən 2023-cü ilin yanvar ayından etibarən Konstitusiya Məhkəməsinin tərkibi seçilmiş doqquz hakimdən ibarətdir. 2023-cü ilin fevralında Məhkəmə Sədrinin ilk dəfə Məhkəmənin üzvləri tərəfindən seçilməsi islahatlarda mövcud yeniliklərdən biri idi.

Konstitusiya Məhkəməsinin hazırkı tərkibi qanunvericiliyə edilən dəyişikliklərin məqsədini əks etdirərək, hakimlərin əvvəlki təcrübəsi və biliyi sayəsində hüququn müxtəlif sahələrindən olan təcrübəni birləşdirməyə imkan verir ki, bununla da konstitusiya hüququnun arzu olunan tərəqqisi və inkişafı üçün müsbət ilkin şərait yaranaraq, onu insan hüquqları və konstitusionalizmin müasir beynəlxalq standartlarına uyğunlaşdırmış olur.

Albaniyada aparılan məhkəmə islahatları ilə bağlı qanunvericiliyə edilən dəyişikliklər Konstitusiya Məhkəməsinin tərkibi ilə yanaşı, fərdi şikayətlərə baxılması ilə də Konstitusiya Məhkəməsinin səlahiyyətlərini genişləndirmişdir. İslahatlardan

əvvəl fərdlər yalnız müvafiq prosessual normaların pozulması ilə bağlı Məhkəməyə müraciət edə bilərdilər. Bu gün Məhkəmə fərdi şikayətlər əsasında hər hansı bir qanuna və ya dövlət orqanının normativ hüquqi aktına konstitusiya nəzarəti qaydasında yenidən baxmaq səlahiyyətinə o halda malikdir ki, Konstitusiya ilə təmin edilmiş insan hüquq və azadlıqlarının pozulmasını iddia edən yekun məhkəmə qərarına yenidən baxılması üçün xüsusi maraq olsun.

Fərdi şikayətlərin Konstitusiya Məhkəməsinə verilməsi mexanizmi fərdlərin müdafiəsinə daha çox təminat vermiş, nəticədə fərdi şikayətlərin əhəmiyyətli dərəcədə artması ilə nəticələnmişdir.

Bu göstərici eyni zamanda əhalinin Konstitusiya Məhkəməsinə etimadının artmasının konkret sübutudur.

İctimaiyyətin gözləntilərini doğrultmaq və etimadını daha da gücləndirmək məqsədi ilə Konstitusiya Məhkəməsi – insan ləyaqətinə, əsas hüquq və azadlıqlarına hörmət edilməsi, demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsi kimi üzərinə düşən missiyanı səmərəli şəkildə yerinə yetirmək üçün konstitusiya nəzarəti qaydasının vicdanla yerinə yetirilməsinə daha da həvəsli və sadiqdir.

Təşəkkür edirəm!

**Алла БОДАК**

*Судья Конституционного Суда*
*Республики Беларусь,*
*кандидат юридических наук, доцент*

# КОНСТИТУЦИОННЫЙ КОНТРОЛЬ: КОНСТИТУЦИОНАЛИЗАЦИЯ ЗАКОНОДАТЕЛЬСТВА

Уважаемые коллеги!
Уважаемые участники конференции!

Позвольте от имени Конституционного Суда Республики Беларусь сердечно поздравить Конституционный Суд Азербайджанской Республики с 25-летним юбилеем.

Желаю всем судьям Конституционного Суда, работникам аппарата Конституционного Суда крепкого здоровья, благополучия, дальнейшей плодотворной деятельности по обеспечению верховенства Конституции Азербайджанской Республики, защите основных прав и свобод граждан, укреплению конституционного правопорядка.

1. Современное конституционное развитие подтверждает, что фундаментальные конституционные положения обладают наряду с нормативно-правовым содержанием высоким уровнем политико-идеологических, нравственно-этических, социокультурных начал конкретно-исторического характера. Система ценностей, составляющих обязательные элементы конституционализма, находит легитимное нормативное закрепление в Конституции и реализуется посредством правового регулирования общественных отношений.

Конституционный Суд Республики Беларусь в послании Президенту и палатам Национального собрания Республики Беларусь о состоянии конституционной законности в Республике Беларусь, принятом 14 марта 2023 г., отметил значительную роль конституционализации права в укреплении конституционного правопорядка в современных условиях.

Конституционализация права обеспечивается законодательством, основанным на верховенстве и прямом действии Конституции как определяющем факторе гармоничного и устойчивого развития общества и государства, а также соблюдением конституционно-правового режима правоприменения.

Правовые механизмы, гарантирующие воплощение конституционных положений в жизнь, предопределены верховенством и прямым действием Конституции.

Посредством утверждения верховенства Конституции, конституционных ценностей в нормотворчестве и правоприменении осуществляется конституционализация общественных отношений, устанавливается режим конституционной

законности, при котором государство, все его органы и должностные лица, а также организации и граждане действуют на основе и в соответствии с Конституцией, а право как важнейший социальный регулятор обеспечивает достижение целей и решение задач, определенных Основным Законом государства.

Прямое действие Конституции обусловливает интеграцию конституционной модели организации общественных отношений в социальную практику как непосредственно, так и путем выработки на законодательном уровне правовых механизмов для полной реализации гражданами закрепленных в Конституции прав и свобод, а также непосредственное применение конституционных норм всеми правоприменительными органами путем их индивидуализации с учетом жизненной ситуации, требующей разрешения применительно к конкретному субъекту правоотношения.

При осуществлении правового регулирования общественных отношений от нормотворческих органов требуются последовательная и системная реализация и развитие конституционных принципов и ценностей в целях легитимности и социальной приемлемости нормативных правовых актов

2. Важная роль в процессе приведения законодательства в соответствие с положениями Конституции принадлежит в настоящее время органам конституционного контроля, наделяемым для реализации данной задачи соответствующими полномочиями:

• разъяснять содержание положений Конституции;

• оценивать соответствие Конституции нормативных правовых актов и практики их применения;

• выявлять пробелы и иные дефекты правового регулирования;

• устанавливать конституционно-правовой смысл правового регулирования и др.

Конституционализация законодательства под влиянием решений конституционных судов является одной из наиболее отчетливых тенденций последних десятилетий. Эти тенденции обусловлены общественной значимостью вопросов, рассматриваемых конституционными судами, включая существенные проблемы в правовой системе или конституционные конфликты, а также особыми правовыми последствиями решений конституционных судов. Исходя из предназначения института конституционного контроля в государстве конституционные суды при реализации всех своих полномочий стремятся способствовать, чтобы развитие законодательства и правоприменительной практики складывалось в конституционно-правовом русле.

Развитие конституционного контроля в Республике Беларусь свидетельствует о закономерном и поступательном возрастании роли Конституционного Суда Республики Беларусь в конституционализации национального законодательства.

3. 27 февраля 2022 г. на республиканском референдуме были приняты изменения в Конституцию Республики Беларусь. Скорректированы преамбула и 85 статей Конституции, включено 11 новых статей, исключены 2 статьи.

Существенные изменения претерпели положения о конституционном контроле. Обновленная Конституция Республики Беларусь уточнила некоторые полномочия Конституционного Суда, предусмотренные ранее действовавшим правовым регулированием, а также установила ряд новых полномочий:

3.1. расширен круг государственных органов, наделенных правом вносить Конституционному Суду предложения о даче заключения о соответствии

Конституции законов, указов Президента, постановлений Совета Министров, нормативных правовых актов других государственных органов. Помимо Президента, Палат Парламента, Верховного Суда и Правительства Республики Беларусь, таким полномочием наделен Президиум Всебелорусского народного собрания, высшего представительного органа народовластия Республики Беларусь, определяющего стратегические направления развития общества и государства, обеспечивающего незыблемость конституционного строя, преемственность поколений и гражданское согласие;

3.2. вместо обязательного введен факультативный предварительный контроль конституционности законов. Предложение о даче заключения о соответствии Конституции закона, принятого Национальным собранием, представленного в установленном порядке на подпись Президенту Республики Беларусь, вправе внести в Конституционный Суд Президент.

Конституционный Суд, реализуя полномочия по контролю за конституционностью нормативных правовых актов в государстве, в том числе в порядке осуществления предварительного контроля законов, принятых Парламентом, утверждает верховенство Конституции, раскрывает и развивает регулятивный потенциал конституционных принципов и норм для правовой системы страны.

Конституционный Суд в указанном выше Послании от 14 марта 2023 г. отметил, что принятые Парламентом законы, относящиеся к конституционному законодательству, до их подписания Президентом следует, как правило, направлять в Конституционный Суд для проверки их конституционности;

3.3. Конституционный Суд наделен таким значимым полномочием, как официальное толкование Конституции (ранее этим правом был наделен Парламент), что укрепляет статус Конституционного Суда как органа, формирующего конституционную доктрину государства;

3.4. установлено полномочие Конституционного Суда осуществлять по предложению Президента предварительный контроль конституционности проектов законов о внесении изменений в Конституцию.

Таким образом, на конституционном уровне определено, что если изменения в текст Конституции вносятся законом, который принимает Парламент, то проект закона по предложению Президента проверяется Конституционным Судом. Это свидетельствует о повышении роли Конституционного Суда в процессе конституционных преобразований.

4. Конституционализация законодательства обеспечивается осуществлением не только абстрактного конституционного контроля, не связанного с правоприменением, но и конкретного конституционного контроля.

Обновленной Конституцией предусмотрена возможность граждан обращаться в Конституционный Суд с жалобами на нарушения конституционных прав и свобод вследствие применения в конкретном деле, по их мнению, не соответствующих Конституции законов, если исчерпаны все другие средства судебной защиты.

Институт конституционной жалобы является не только важнейшей юридической гарантией обеспечения права конкретного гражданина на судебную защиту, но и способствует повышению уровня защищенности конституционных прав и свобод человека и гражданина.

На упреждение неконституционного правоприменения направлено полномочие Конституционного Суда проверять по запросам судов конституционность норма-

тивных правовых актов, подлежащих применению при рассмотрении судами конкретных дел.

5. Предусмотренные обновленной Конституцией Республики Беларусь полномочия Конституционного Суда направлены на защиту конституционного строя и демократических устоев государства и общества, обеспечение конституционных прав и свобод личности, укрепление конституционной законности в стране, развитие доктрины современного конституционализма, конституционализацию законодательства и правоприменительной практики, формирование конституционно ориентированного правосознания граждан и должностных лиц.

Конституционного Суда при осуществлении конституционного правосудия выявляет и раскрывает содержание конституционных ценностей, принципов и норм, ориентирует уполномоченные государственные органы на развитие в законодательстве многогранного содержания Конституции, недопустимость искажения в законодательстве конституционных положений, в необходимых случаях указывает на необходимость осуществления нового либо дополнительного правового регулирования общественных отношений в конкретных сферах жизнедеятельности.

Последовательное осуществление конституционализации законодательства способствует повышению эффективности деятельности органов публичной власти, обеспечивает качественное состояние конституционного правопорядка в государстве.

Спасибо за внимание!

**Alla BODAK**

***Belarus Respublikasının***
***Konstitusiya Məhkəməsinin hakimi,***
***hüquq elmləri namizədi, dosent***

# KONSTİTUSİYA NƏZARƏTİ: QANUNVERİCİLİYİN KONSTİTUSİYALAŞDIRILMASI

Hörmətli həmkarlar!
Hörmətli konfrans iştirakçıları!

İcazə verin, Belarus Respublikasının Konstitusiya Məhkəməsi adından Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsini 25 illik yubileyi münasibətilə ürəkdən təbrik edim.

Konstitusiya Məhkəməsinin bütün hakimlərinə, Konstitusiya Məhkəməsi Aparatının əməkdaşlarına möhkəm cansağlığı, firavanlıq, Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsi, vətəndaşların əsas hüquq və azadlıqlarının qorunması, konstitusiya hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində bundan sonra da səmərəli fəaliyyət göstərilməsini arzulayıram.

1. Konstitusiyanın müasir inkişafı təsdiq edir ki, fundamental Konstitusiya müddəaları normativ hüquqi məzmunla yanaşı, yüksək səviyyədə konkret tarixi xarakterli siyasi-ideoloji, əxlaqi-etik, sosial-mədəni əsaslara malikdir. Konstitusionalizmin məcburi elementlərini təşkil edən dəyərlər sistemi öz hüquqi-normativ təsbitini Konstitusiyada tapır və ictimai münasibətlərin hüquqi tənzimlənməsi yolu ilə həyata keçirilir.

Belarus Respublikası Konstitusiya Məhkəməsi, Belarus Respublikası Prezidentinə və Milli Məclisinin palatalarına Belarus Respublikasında 14 mart 2023-cü ildə qəbul edilmiş Konstitusiya qanununun vəziyyəti barədə müraciətində, müasir şəraitdə Konstitusiya hüquq qaydasının möhkəmləndirilməsində hüququn konstitusiyalaşdırılmasının əhəmiyyətli rolunu qeyd etdi.

Hüququn konstitusiyalaşdırılması cəmiyyətin və dövlətin ahəngdar və davamlı inkişafının müəyyənedici amili kimi, Konstitusiyanın aliliyinə və birbaşa tətbiqinə, habelə hüquqtətbiqetmənin konstitusiya-hüquqi rejiminə riayət olunmasına əsaslanan qanunvericiliklə təmin edilir.

Konstitusiya müddəalarının həyata keçirilməsini təmin edən hüquqi mexanizmlər Konstitusiyanın aliliyi və birbaşa tətbiqi ilə əvvəlcədən müəyyən edilmişdir.

Konstitusiyanın aliliyinin, Konstitusiya dəyərlərinin normayaratma və hüquqtətbiqetmədə təsbit edilməsi yolu ilə ictimai münasibətlərin konstitusiyalaşdırılması həyata keçirilir, dövlətin, onun bütün orqanlarının və vəzifəli şəxslərinin, habelə təşkilatların və

vətəndaşların konstitusiya əsasında və uyğun olaraq hərəkət etdiyi Konstitusiya qanuniliyi rejimi qurulur və ən vacib ictimai tənzimləyici kimi hüquq dövlətin Əsas Qanunu ilə müəyyən edilmiş məqsədlərə çatmağı və problemlərin həllini təmin edir.

Konstitusiyanın birbaşa tətbiqi, vətəndaşların Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqları tam həyata keçirməsi üçün həm birbaşa, həm də qanunvericilik səviyyəsində hüquqi mexanizmlərin hazırlanması yolu ilə ictimai münasibətlərin təşkili üzrə Konstitusiya modelinin sosial praktikaya inteqrasiyasını, habelə Konstitusiya normalarının bütün hüquqtətbiqetmə orqanları tərəfindən hüquq münasibətlərinin konkret subyektinə münasibətdə həll yolunu tələb edən həyat vəziyyətini nəzərə almaqla fərdiləşdirmək yolu ilə birbaşa tətbiqini müəyyənləşdirir.

İctimai münasibətlərin hüquqi tənzimlənməsini həyata keçirərkən normativ hüquqi aktların qanuniliyi və sosial məqbulluğu məqsədilə normayaratma orqanlarından Konstitusiya prinsiplərinin və dəyərlərinin ardıcıl və sistemli şəkildə həyata keçirilməsi və inkişafı tələb olunur.

2. Qanunvericiliyin Konstitusiyanın müddəalarına uyğunlaşdırılması prosesində mühüm rol hazırda bu vəzifəni yerinə yetirmək üçün müvafiq səlahiyyətlərə malik olan konstitusiya nəzarəti orqanlarına aiddir:

• Konstitusiyanın müddəalarının məzmununu izah etmək;

• normativ-hüquqi aktların və onların tətbiqi praktikasının Konstitusiyaya uyğunluğunu qiymətləndirmək;

• hüquqi tənzimləmənin boşluqlarını və digər qüsurlarını müəyyənləşdirmək;

• hüquqi tənzimlənmənin konstitusiya-hüquqi mənasını müəyyənləşdirmək və s.

Konstitusiya məhkəmələrinin qərarlarının təsiri altında qanunvericiliyin konstitusiyalaşdırılması son onilliklərin ən aydın tendensiyalarından biridir. Bu tendensiyalar hüquq sistemindəki əhəmiyyətli problemlər və ya Konstitusoya mübahisələri də daxil olmaqla konstitusiya məhkəmələri tərəfindən baxılan məsələlərin, habelə Konstitusiya məhkəmələrinin qərarlarının xüsusi hüquqi nəticələri ilə əlaqədardır. Dövlətdəki konstitusiya nəzarəti institutunun məqsədinə əsaslanaraq, konstitusiya məhkəmələri bütün səlahiyyətlərini həyata keçirərkən qanunvericiliyin və hüquqtətbiqetmə təcrübəsinin Konstitusiya və hüquqi istiqamətdə inkişaf etməsinə kömək etməyə çalışırlar.

Belarus Respublikasında konstitusiya nəzarətinin inkişafı milli qanunvericiliyin konstitusiyalaşdırılmasında Belarus Respublikası Konstitusiya Məhkəməsinin rolunun məntiqi və irəliləyən artımını göstərir.

3. 27 fevral 2022-ci ildə Respublika referendumunda Belarus Respublikasının Konstitusiyasına dəyişikliklər qəbul edildi. Konstitusiyanın preambula və 85 maddəsi düzəldilib, 11 yeni maddə daxil edilib, 2 maddə çıxarılıb.

Konstitusiya nəzarəti ilə bağlı müddəalar əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Belarus Respublikasının yenilənmiş Konstitusiyası Konstitusiya Məhkəməsinin əvvəl qüvvədə olan hüquqi tənzimləmə ilə nəzərdə tutulmuş bəzi səlahiyyətlərini dəqiqləşdirdi və bir sıra yeni səlahiyyətlər təyin etdi:

3.1. Konstitusiya Məhkəməsinə qanunların, Prezident fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının, digər dövlət orqanlarının normativ-hüquqi aktlarının Konstitusiyaya uyğunluğu barədə rəy vermək üçün təkliflər irəli sürmək hüququ olan dövlət orqanlarının dairəsi genişləndirilmişdir. Belarus Respublikasının Prezidenti, Parlament Palataları, Ali Məhkəməsi və Hökuməti ilə yanaşı, Ümumbelarus Xalq Məclisinin Rəyasət Heyətinə, cəmiyyətin və dövlətin inkişafının strateji istiqamətlərini

müəyyənləşdirən, konstitusiya quruluşunun toxunulmazlığını, nəsillərin bir-birini əvəz etməsini və vətəndaş razılığını təmin edən, Belarus Respublikasında xalq hakimiyyətinin ən yüksək nümayəndəli orqanına bu səlahiyyət verilmişdir.

3.2. Qanunların Konstitusiyaya uyğunluğuna məcburi nəzarət əvəzinə, fakultativ ilkin nəzarət tətbiq edilmişdir. Milli Məclis tərəfindən qəbul edilən və müəyyən edilmiş qaydada imzalanması üçün Belarus Respublikasının Prezidentinə təqdim edilən qanunun Konstitusiyaya uyğunluğu barəsində rəy verilməsi üçün təklif Konstitusiya Məhkəməsinə Prezident tərəfindən təqdim edilə bilər.

Konstitusiya Məhkəməsi, dövlətdə normativ hüquqi aktların, o cümlədən ilkin nəzarətin həyata keçirilməsi qaydasında parlament tərəfindən qəbul edilmiş qanunların Konstitusiyaya uyğunluğuna nəzarət etmək səlahiyyətlərini həyata keçirərək, Konstitusiyanın üstünlüyünü təsdiqləyir və ölkənin hüquq sistemi üçün konstitusiya prinsipləri və normalarının tənzimləmə potensialını ortaya qoyur və inkişaf etdirir.

Konstitusiya Məhkəməsi, yuxarıda göstərilən 14 mart 2023-cü il tarixli Müraciətdə, Parlamentin Konstitusiya qanunvericiliyinə dair qəbul etdiyi qanunların Prezident tərəfindən imzalanmazdan əvvəl, konstitusiyaya uyğunluğunu yoxlamaq üçün bir qayda olaraq, Konstitusiya Məhkəməsinə göndərilməli olduğunu qeyd etmişdir;

3.3. Konstitusiya Məhkəməsinə Konstitusiyanın rəsmi təfsiri kimi əhəmiyyətli səlahiyyət (əvvəllər bu hüquqa Parlament sahib olmuşdur) verilir ki, bu da Konstitusiya Məhkəməsinin dövlətin konstitusiya doktrinasını formalaşdıran orqan statusunu gücləndirir;

3.4. Konstitusiya Məhkəməsinin Prezidentin təklifi ilə Konstitusiyaya dəyişikliklər edilməsi haqqında qanun layihələrinin Konstitusiyaya uyğunluğuna ilkin nəzarəti həyata keçirmək səlahiyyəti müəyyən edilmişdir.

Beləliklə, konstitusiya səviyyəsində müəyyən edilir ki, Konstitusiyanın mətninə dəyişikliklər Parlamentin qəbul etdiyi qanunla edilərsə, Prezidentin təklifi ilə qanun layihəsi Konstitusiya Məhkəməsi tərəfindən yoxlanılır. Bu, Konstitusiya dəyişiklikləri prosesində Konstitusiya Məhkəməsinin rolunun artdığını göstərir.

4. Qanunvericiliyin konstitusiyalaşdırılması yalnız hüquqtətbiqetmə ilə əlaqəli olmayan mücərrəd konstitusiya nəzarətinin deyil, həm də konkret konstitusiya nəzarətinin həyata keçirilməsi ilə təmin edilir.

Yenilənmiş Konstitusiya vətəndaşların bütün digər məhkəmə müdafiə vasitələri tükəndiyi halda Konstitusiya Məhkəməsinə, onların fikrincə, Konstitusiyaya uyğun olmayan qanunların müəyyən bir işdə tətbiqi səbəbindən konstitusiya hüquq və azadlıqlarının pozulmasına dair şikayətlərlə müraciət etmək imkanını təmin edir.

Konstitusiya şikayəti institutu yalnız müəyyən bir vətəndaşın məhkəmə müdafiəsi hüququnu təmin etmək üçün ən vacib hüquqi təminat deyil, həm də insan və vətəndaşın konstitusiya hüquq və azadlıqlarının müdafiəsi səviyyəsini artırmağa kömək edir.

Konstitusiya Məhkəməsinin məhkəmələrin tələbi ilə məhkəmələr tərəfindən konkret işlərə baxılarkən tətbiq ediləcək normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunu yoxlamaq səlahiyyəti konstitusiyaya zidd hüquqtətbiqetmənin aparılmasına qarşı yönəlmişdir.

5. Belarus Respublikasının yenilənmiş Konstitusiyasında nəzərdə tutulmuş Konstitusiya Məhkəməsinin səlahiyyətləri dövlətin və cəmiyyətin konstitusiya “quruluşunu və demokratik əsaslarını qorumaq, şəxsiyyətin konstitusiya hüquq və azadlıqlarını təmin etmək, ölkədə konstitusiya qanunçuluğunu gücləndirmək, müasir konstitusionalizm doktrinasını inkişaf etdirmək, qanunvericilik və hüquq tətbiqetmə təcrübəsini

konstitusiyalaşdırmaq, vətəndaşlarda və vəzifəli şəxslərdə Konstitusiyaya yönümlü hüquqi şüur formalaşdırmaq məqsədi daşıyır.

Konstitusiya Məhkəməsi Konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsində Konstitusiya dəyərlərinin, prinsip və normalarının məzmununu müəyyənləşdirir və açıqlayır, səlahiyyətli dövlət orqanlarını qanunvericilikdə Konstitusiyanın çoxşaxəli məzmununu inkişaf etdirməyə yönəldir, qanunvericilikdə Konstitusiya müddəalarının təhrif edilməsinin yolverilməzliyi, zəruri hallarda həyatın müəyyən sahələrində sosial münasibətlərin yeni və ya əlavə hüquqi tənzimlənməsinin həyata keçirilməsinin zəruriliyini təsbit edir.

Qanunvericiliyin konstitusiyalaşdırılmasının ardıcıl həyata keçirilməsi dövlət orqanlarının səmərəliliyinin arıtırlmasına kömək edir, dövlətdə konstitusiya hüquq qaydasının keyfiyyətli vəziyyətdə olmasını təmin edir.

Diqqətiniz üçün təşəkkür edirik!

**Prof. Dr. Anwar USMAN**

*Chief Justice of the Constitutional Court*
*of the Republic of Indonesia*

## THE ROLE OF HUMAN RIGHTS AND THE RULE OF LAW IN FOSTERING LEGISLATION DEVELOPMENT IN INDONESIA

Bismillahirahmanirahim,
Assalamu'alaikum Wa Rahmatullahi Wa Barakatuh,
Peace be upon us all,

• His Excellency, President of the Constitutional Court of Azerbaijan, Mr. Farhad Abdullayev and Deputy Chairman Mrs. Sona Salmanova, and also Excellencies Judges of Constitutional Court of Azerbaijan;

• Your Excellencies, Chief Justice and Justices of the Constitutional Court and delegates;

• All participants of the International Conference.

First, I would like to thank His Excellency Mr. Farhad Abdullayev, the Chairman of the Constitutional Court of Azerbaijan, for organizing this Conference. On this opprtunity, I would also like to congratulate the Constitutional Court of Azerbaijan for its 25th Anniversary. I am convince that the Constitutional Court of Azerbaijan will be more success in upholding the Constitution for the greatest of the nation.

Excellencies, Ladies and gentlemen,

Today, I stand before you to share a presentation that holds significance not only for the people of Indonesia but for all those who believe in the power of constitutional norms and the progression of legislation. The subject of my presentation is "The Role Of Human Rights and The Rule Of Law In Fostering Legislation Development In Indonesia"

Indonesia, as a country that known for its rich cultural heritage, diverse population, and vibrant democracy, has made significant strides in its legislative journey. As a nation, we have recognized the importance of upholding the principles enshrined in our Constitution, which serves as the fundament of our legal system. Through applying constitutional norms, we have witnessed the steady progression of legislation that seeks to promote justice, equality, and the overall well-being of our citizens.

The first crucial aspect in the progression of legislation lies in understanding the essence of constitutional norms. These norms act as guiding principles derived from the Constitution that provide a framework for creating, interpreting, and implementing laws. They ensure the legislation is consistent with our Constitution's fundamental

values and principles. By adhering to these norms, we can ensure that our laws align with the aspirations and rights of the Indonesian people.

One of the fundamental constitutional norms that have played a pivotal role in the progression of legislation is the principle of human rights. As a signatory to various international human rights instruments, Indonesia recognizes the importance of protecting and promoting every individual's inherent dignity and rights. Through the application of this norm, we have witnessed the enactment of laws that safeguard the rights of marginalized communities, promote gender equality, and protect freedom of speech and expression.

Furthermore, the principle of the rule of law has been instrumental in shaping the legislative landscape of Indonesia. The rule of law ensures that no one, including the government, is above the law and that all individuals are subject to the same legal framework. It provides a solid foundation for a just and equitable society. By applying this norm, we have witnessed the establishment of an independent judiciary, the separation of powers, and the enactment of laws that promote transparency, accountability, and good governance.

In addition to these fundamental norms, the principle of constitutional review has played a vital role in the progression of legislation in Indonesia. The Constitutional Court, as the guardian of our Constitution, has the power to review laws and regulations to ensure their conformity with the Constitution. This judicial mechanism has allowed citizens and institutions to challenge unconstitutional laws, leading to the amendment or repeal of legislation inconsistent with constitutional norms. Through this process, we have witnessed the evolution of laws that harmonize with our constitutional principles.

It is important to note that the progression of legislation through the application of constitutional norms is an ongoing process. As our society evolves, new challenges and issues require legislative responses. It is through a constant evaluation and adaptation of our laws that we can ensure they remain relevant, just, and in line with the changing needs of our citizens.

However, it has its challenges. The journey often met obstacles, including resistance to change, vested interests, and a need for more awareness about constitutional norms. Overcoming these challenges requires the collective effort of all stakeholders – the government, judiciary, civil society, and the people at large. By fostering a culture of constitutionalism and promoting legal literacy, we can empower individuals to actively participate in the legislative process and contribute to the progression of legislation.

In conclusion, the progression of legislation through the application of constitutional norms is a testament to the commitment of the Indonesian people to uphold justice, equality, and the principles enshrined in our Constitution. Through these norms, we can ensure the laws of our land are in harmony with the aspirations of our citizens and promote a just and inclusive society.

Thank you for your attention, and may God bless us always.

Wassalamu‘alaikum Warahmatullahi Wabarakatuh, and

Good morning.

***Prof. dr. Ənvər USMAN***

***İndoneziya Konstitusiya Məhkəməsinin sədri***

# İNDONEZİYADA QANUNVERİCİLİYİN İNKİŞAFININ TƏŞVİQİNDƏ İNSAN HÜQUQLARININ VƏ QANUNUN ALİLİYİNİN ROLU

• Zati-aliləri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri cənab Fərhad Abdullayev və sədr müavini Sona Salmanova, habelə Azərbaycanın Konstitusiya Məhkəməsinin hakimləri!

• Zati-aliləri, konstitusiya məhkəmələrinin sədrləri, hakimləri və nümayəndələr!

• Beynəlxalq Konfransın bütün iştirakçıları!

Öncə bu Konfransın təşkilinə görə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Zati-aliləri cənab Fərhad Abdullayevə təşəkkürümü bildirirəm. Bu fürsətdən istifadə edərək mən Azərbaycanın Konstitusiya Məhkəməsini 25 illik yubileyi münasibətilə təbrik etmək istəyirəm. Əminəm ki, Azərbaycanın Konstitusiya Məhkəməsi xalq üçün Konstitusiyanın müdafiəsində daha çox uğur qazanacaq.

Zati-aliləri, xanımlar və cənablar!

Bu gün mən təkcə İndoneziya xalqı üçün deyil, konstitusiya normalarının qüvvəsinə və qanunvericiliyin inkişafına inananların hamısı üçün əhəmiyyət kəsb edən bir çıxış ilə bölüşmək məqsədilə sizin qarşınızdayam. Çıxışımın mövzusu "İndoneziyada qanunvericiliyin inkişafının təşviqində insan hüquqlarının və qanunun aliliyinin rolu"dur.

Zəngin mədəni irsi, müxtəlif əhalisi və canlı demokratiyası ilə tanınan bir ölkə kimi İndoneziya qanunvericilik yolunda mühüm addımlar atmışdır. Biz bir xalq olaraq hüquq sistemimizin əsasını təşkil edən Konstitusiyamızda təsbit olunmuş prinsiplərə əməl etməyin mühümlüyünü dərk etmişik. Konstitusiya normalarını tətbiq etməklə biz, ədaləti, bərabərliyi və vətəndaşlarımızın bütövlükdə rifahını təşviq etməyə çalışan qanunvericiliyin davamlı inkişafının şahidi olduq.

Qanunvericiliyin tərəqqisində birinci həlledici aspekt konstitusiya normalarının mahiyyətinin dərk edilməsindən ibarətdir. Bu normalar qanunların yaradılması, şərhi və həyata keçirilməsini təmin edən Konstitusiyadan irəli gələn rəhbər prinsiplər kimi çıxış edir. Onlar qanunvericiliyimizin Konstitusiyanın əsas dəyər və prinsiplərinə uyğun olmasını təmin edirlər. Bu normalara riayət etməklə qanunlarımızın İndoneziya xalqının istək və hüquqlarına uyğun olmasını təmin edə bilərik.

Qanunvericiliyin inkişafında əsas rol oynayan konstitusiya normalarından biri də insan hüquqları prinsipidir. Müxtəlif beynəlxalq insan hüquqları ilə bağlı sənədləri imzalayan İndoneziya hər bir insanın özünəməxsus ləyaqətini və hüquqlarını qorumaq və habelə təşviq etməyin mühümlüyünü qəbul edir. Bu normanın tətbiqi ilə biz təcrid

olunmuş icmaların hüquqlarını qoruyan, gender bərabərliyini təşviq edən, söz və ifadə azadlığını müdafiə edən qanunların qəbul edilməsinin şahidi olduq.

Bundan əlavə, qanunun aliliyi prinsipi İndoneziyanın qanunvericiliyinin formalaşmasında mühüm rol oynamışdır. Qanunun aliliyi heç kimin, o cümlədən hökumətin qanundan üstün olmadığını və bütün şəxslərin eyni hüquqlara malik olmasını təmin edir. O, ədalətli və bərabər hüquqlu cəmiyyət üçün möhkəm təməl təmin edir. Bu normanı tətbiq etməklə biz müstəqil məhkəmə hakimiyyətinin yaradılmasının, səlahiyyətlərin bölünməsinin və şəffaflığı, hesabatlılığı, düzgün idarəetməni təşviq edən qanunların qəbul edilməsinin şahidi olduq.

Konstitusiya nəzarəti prinsipi bu fundamental normalara əlavə olaraq İndoneziyanın qanunvericiliyinin inkişafında mühüm rol oynamışdır. Konstitusiya Məhkəməsi Konstitusiyamızın qoruyucusu kimi qanunların və normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunu təmin etmək üçün onlara nəzarət etmək səlahiyyətinə malikdir. Bu məhkəmə mexanizmi vətəndaşlara və qurumlara konstitusiya ilə ziddiyyət təşkil edən qanunlarla əlaqədar məhkəməyə müraciət etmək imkanı verib və bu, konstitusiyaya zidd olan normaların dəyişdirilməsi və ya ləğv edilməsinə gətirib çıxarmışdır. Bu proses vasitəsilə biz konstitusiya prinsiplərimizə uyğun gələn qanunların inkişaf etməsinin şahidi olduq.

Qeyd etmək lazımdır ki, konstitusiya normalarının tətbiqi yolu ilə qanunvericiliyin inkişafı davamlı prosesdir. Cəmiyyətimiz inkişaf etdikcə, yeniliklər və problemlər qanunvericilikdə öz həllini tapmalıdır. Qanunlarımızın daimi qiymətləndirilməsi və uyğunlaşdırılması vasitəsilə biz onların aktual, ədalətli və vətəndaşlarımızın dəyişən ehtiyaclarına uyğun olmasını təmin edə bilərik.

Lakin onun öz problemləri var. O tez-tez maneələrə, o cümlədən dəyişikliklərə müqavimət göstərməyə, mənafeləşdirmə maraqlarına və konstitusiya normaları haqqında məlumatlılığın artırılmasının zəruriliyinə rast gəlinirdi. Bu çətinliklərin öhdəsindən gəlmək üçün bütün maraqlı tərəflərin – hökumətin, məhkəmə sisteminin, vətəndaş cəmiyyətinin və xalqın birgə səy göstərməsi lazımdır. Konstitusionalizm mədəniyyətini inkişaf etdirmək və hüquqi savadlılığı təşviq etməklə biz insanlara qanunvericilik prosesində fəal iştirak etmək və qanunvericiliyin tərəqqisinə töhfə vermək imkanı verə bilərik.

Çıxışımın sonunda qeyd etmək istərdim ki, konstitusiya normalarının tətbiqi yolu ilə qanunvericiliyin inkişafı Indoneziya xalqının ədalətin, bərabərliyin və Konstitusiyamızda təsbit edilmiş prinsiplərin təmin edilməsi işinə sadiqliyinin sübutudur. Bu normaların köməyi ilə biz ölkəmizin qanunlarının vətəndaşlarımızın arzularına uyğunluğunu təmin edərək ədalətli və inklüziv cəmiyyətin yaradılmasına kömək göstərə bilərik.

Diqqətinizə görə təşəkkür edirəm. Allah bizi hər zaman qorusun.

**Мирза-Улугбек АБДУСАЛАМОВ**

*Председатель Конституционного суда*
*Республики Узбекистан,*
*Заслуженный юрист*
*Республики Узбекистан*

## КОНСТИТУЦИОННАЯ РЕФОРМА И НОВЫЙ ЭТАП РАЗВИТИЯ КОНСТИТУЦИОННОГО КОНТРОЛЯ В УЗБЕКИСТАНЕ

Уважаемые участники международной конференции!
Дорогие коллеги! Дамы и господа!

Я искренне рад приветствовать вас на сегодняшней международной конференции, посвященной 25-летию Конституционного Суда Азербайджанской Республики!

Позвольте поздравить наших коллег, представителей Конституционного суда Азербайджанской Республики с этой знаменательной датой.

Хочу также, выразить глубокую признательность – господину Фархаду Абдуллаеву за приглашение и предоставленную возможность участия в работе конференции!

Закономерно, что каждое государство, определяя собственный курс развития, закрепляет в Конституции самые важные принципы обеспечения прав и свобод человека, государственное устройство.

Конституция должна сплотить людей, чтобы все граждане могли видеть в ней свои мечты и желания, права и интересы, образно говоря — решение своих проблем.

Вместе с тем она должна соответствовать изменяющимся мировым и внутренним реалиям. Как следствие, внесение изменений и поправок в Конституцию, обусловлено развитием общества и политики.

Примером последовательности конституционных реформ, является опыт Узбекистана. Так, 30 апреля этого года в нашей стране прошел референдум по новой Конституции Узбекистана. Граждане нашей страны более чем 90 % голосов сделали свой выбор в определении будущего страны, приняв новую редакцию Конституции Республики Узбекистан.

Уважаемые участники конференции!

Позвольте вкратце проинформировать вас о сути конституционной реформы в Узбекистане, целью которой определено дальнейшее повышение благосостояния нашего народа на основе принципа «Во имя достоинства человека», «Новый Узбекистан – социальное государство».

В ходе всенародных обсуждений проекта Конституционного закона, поступило более двухсот предложений, на их основе проект дорабатывался и совершенствовался. Каждое четвертое предложение нашло свое отражение в проекте.

Таким образом, 65 процентов текста Основного закона было обновлено на основе предложений нашего народа, положения о правах и свободах человека увеличились в три с половиной раза. Количество статей Конституции увеличилось с 128 до 155, норм – с 275 до 434.

Активное участие в разработке проекта широкой общественности, политических партий, общественных организаций, представителей экспертных и научных кругов, интеллигенции, дает основание для вывода, что Основной закон страны стал поистине народным.

С учетом особой важности для страны принятия обновленной Конституции нижняя палата парламента принял решение обратиться в Конституционный суд с запросом об определение конституционности постановления Законодательной палаты Олий Мажлиса о назначения референдума по вопросу принятия проекта Конституции Республики Узбекистан в новой редакции.

На состоявшемся 13 марта 2023 года заседании Конституционным судом был рассмотрен вопрос о соответствии Конституции Республики Узбекистан Постановления Законодательной палаты Олий Мажлиса Республики Узбекистан «О проведении референдума Республики Узбекистан по проекту Конституционного закона Республики Узбекистан «О Конституции Республики Узбекистан».

При изучения этого вопроса Конституционный суд обратил внимание на следующие вопросы:

соблюдение Законодательной палатой Олий Мажлиса Республики Узбекистан установленного порядка принятия проекта Конституционного закона «О Конституции Республики Узбекистан»;

соблюдение порядок назначения референдума;

наличие в проекте выносимого на референдум Конституционного закона Республики Узбекистан «О Конституции Республики Узбекистан» вопросов, которые не могут быть предметом референдума.

После всестороннего изучения и анализа указанных вопросов, Конституционный суд признал Постановление Законодательной палаты Олий Мажлиса Республики Узбекистан «О проведении референдума Республики Узбекистан по проекту Конституционного закона Республики Узбекистан «О Конституции Республики Узбекистан» соответствующим Конституции Республики Узбекистан.

Конституционный суд в своем решение обратил внимания на тот факт, что принятие Конституции Республики Узбекистан путем проведения референдума практикуется впервые в истории страны. Референдум является непосредственным выражением воли народа, решения, принятые на референдуме, высшей юридической силой. Опираясь на эти конституционные принципы, Конституционный суд признал, что отнесение Законодательной палатой Олий Мажлиса принятия Конституции к волеизъявлению народа служит реализации конституционного принципа народовластия.

Уважаемые коллеги!

Пользуясь случаем, хочу остановиться на основных положениях обновленной Конституции.

**Первое,** в Конституции втрое увеличены нормы, содержащие социальные обязательства государства, что является свидетельством того, что сильная социальная защита остается важным направлением государственной политики.

**Второе,** усилены конституционные гарантии прав и свобод человека. Обеспечение прав и свобод человека определены высшей обязанностью государства. Предусмотрено, что человеческое достоинство и честь неприкосновенны и ничто не может быть основанием для их попрания.

Конституция устанавливает, что возникающие в законодательстве неясности между гражданином и органами государственной власти подлежат толкованию в пользу гражданина, а правовые меры должны быть достаточными и соразмерными для достижения правовой цели.

Вместе с тем, высказывается предположение, что (чрезмерно) частое использование конституционно-конформного толкования, в конечном итоге может нанести ущерб авторитету органа конституционного правосудия. В данном случае следует иметь ввиду, что raison d'etre создания и функционирования специализированных органов конституционной юстиции является контроль за законодательной властью. Для удовлетворительной реализации данной функции необходимо, чтобы оспариваемые законы, с определенной степенью регулярности признавались несоответствующими Конституции и поэтому недействительными. Это дает понять политическим институтам и заинтересованным сторонам в обществе, что суд серьезно относится к своей роли и, таким образом, отвечает ожиданиям, возлагаемым на него. В этой связи интересно отметить, например, в Италии в 2008 г. в 30 из 44 постановлений Конституционного суда принятых по запросам о признании неконституционности оспариваемое положение было истолковано в соответствии с Конституцией.

Наконец, конституционно-конформное толкование может создать определенные сложности субъектам права, в особенности физическим лицам. Чтобы узнать о реальном содержании их прав, законных интересов и обязанностей, приходится ознакомиться не только с соответствующим законом, но и его конституционным истолкованием.

Несмотря на существующую оппозицию конституционно-конформному толкованию, являющегося, по мнению его критиков, проявлением вторжения органов конституционного правосудия в сферу, зарезервированную за законодательной властью, представляется, что такой вид толкования является скорее проявлением прагматизма в деятельности конституционных судов, которые, не вступая в прямую конфронтацию с законодателем, признают закон конституционным, запрещая тот или иной вид его истолкования.

В продолжение сказанного следует отметить, что конституционно-конформное толкование выглядит приемлемым и разумным решением также при его рассмотрении сквозь призму экономической эффективности. Кроме того, в некоторых ситуациях признание утратившим силу неконституционного закона может создать законодательный пробел и, таким образом, лишить возможности реализации своих конституционных прав тех групп населения, которые охватываются его регулированием, приведя к еще большим конституционным проблемам.

Благодарю за внимание!

**Alış QASIMOV**

***Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin***
***Əmək və ekologiya hüququ kafedrasının müdiri,***
***hüquq elmləri doktoru, professor***

# ƏMƏK MƏZUNİYYƏTLƏRİNİN HÜQUQI TƏNZİMLƏNMƏSİ: MÖVCUD BOŞLUQLAR VƏ ONLARIN KONSTİTUSİYA NORMALARININ ŞƏRHİ VASİTƏSİ İLƏ ARADAN QALDIRILMASI

Çox hörmətli cənab Sədr!
Hörmətli xanımlar və cənablar!
Hörmətli konfrans iştirakçıları!

Məruzəmə başlamamışdan öncə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri cənab Fərhad Abdullayev başda olmaqla Konstitusiya Məhkəməsinin bütün hakimlərini və aparat əməkdaşlarını Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, Azərbaycan Respublikasının Konstitusiyasının aliliyinin təmin edilməsi, hər kəsin əsas hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi kimi müqəddəs işinizdə daha böyük uğurlar arzulayıram.

İkincisi, məhz belə bir mötəbər beynəlxalq konfransda məruzə ilə çıxış etməyimə şərait yaratdığınıza görə Fərhad müəllim şəxsən sizə və təşkilat komitəsinə dərin minnətdarlığımı bildirirəm.

AR Konstitusiyasının 37-ci maddəsinə görə hər kəsin istirahət hüququ vardır. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

Məzuniyyət hüququ ilə bağlı müddəalar İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, Dəyişdirilmiş Avropa Sosial Xartiyasında və s. beynəlxalq hüquqi aktlarda öz əksini tapmışdır. Azərbaycan Respublikasının 1994-cü il 19 iyul tarixdə qoşulduğu Beynəlxalq Əmək Təşkilatının (BƏT) «Ödənişli məzuniyyətlər haqqında» 132 nömrəli Konvensiyasının (1970-ci ildə yenidən baxılmış) 3-cü maddəsinin birinci hissəsinə görə hər bir şəxs müəyyən edilmiş minimum müddətli illik ödənişli məzuniyyət hüququna malikdir.

Bu gün qüvvədə olan AR ƏM-in 29 maddəsi bilavasitə əmək məzuniyyətlərinin tənzimlənməsinə həsr olunmuşdur. Müxtəlif illərdə əmək məzuniyyətlərini tənzimləyən normalara müvafiq qanunlarla 11 dəfə əlavə və dəyişikliklər edilmiş, AR ƏM-ə bir yeni maddə – 118-1 "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərin əlavə məzuniyyəti" adlı maddə əlavə edilmiş, 135-ci maddə ("Əmək

məzuniyyətlərinin verilməsinin yolverilməzliyi") tamamilə yeni redaksiyada verilmiş, 144-cü maddənin birinci hissəsi isə qüvvədən düşmüşdür.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətləri AR Konstitusiyası ilə müəyyən edilir və həyata keçirilir. Konstitusiya Məhkəməsinin AR Konstitusiyasının 130-cu maddəsində nəzərdə tutulmuş səlahiyyətlərini iki yerə ayırmaq olar. Birincisi, konstitusiya və qanunların şərhi, ikincisi isə müxtəlif normativ və məhkəmə aktlarının Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılması.

Bildiyimiz kimi, hüquq tətbiqetmə prosesinin əsas mərhələlərindən biri normanın mənasının onun şərh edilməsi yolu ilə müəyyənləşdirilməsidir.

Normativ hüquqi aktın məzmununda bəzi qeyri-müəyyənliklərin və kolliziyaların, habelə onların tətbiqi təcrübəsində ziddiyyətlərin aşkar edilməsi normativ hüquqi aktın şərhini zəruri edir. Bu baxımdan əmək qanunvericiliyi normalarının şərhi də istisna təşkil etmir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri cənab F.S.Abdullayev məqalələrindən birində qeyd edir ki, konstitusiyanın və qanunların şərhi məhkəməyə bu və ya digər normanın məzmununu aydınlaşdırmaqla, onun real konstitusiya-hüquqi predmetini hüquq tətbiqedicilərin nəzərinə çatdırmağa və həmin normanı məhz bu normaya uyğun dəqiq və eyni cür tətbiqi təcrübəsini formalaşdırmağa imkan verir. Konstitusiya Məhkəməsinin verdiyi rəsmi şərhlər hüquq norması müasir dəyərlər baxımından dolğunlaşdırılaraq daha təkmil forma alır və həmin normanı hər hansı digər qeyri-konstitusion formada tətbiqi mümkünsüz olur. Beləliklə də, normanın tətbiqi qaydası dəqiqləşdirilməklə onun məhdudlaşdırıcı və genişləndirici formada olan qeyri-konstitusion tətbiqi təcrübəsi dəyişdirilmiş olur. Bu isə geniş mənada hüququn tətbiqi təcrübəsinin konstitusiya hüququna müvafiq inkişaf etdirilməsi məqsədinə xidmət edir (1, s.106). F.S.Abdullayevin bu fikrini daha da inkişaf etdirərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi cənab R.S.Qvaladze yazır: "Konstitusiya Məhkəməsi tərəfindən şərh olunan normanın Konstitusiyanın prinsipləri və dəyərləri nəzərə alınmaqla mənası açıqlanır, normanın real məzmunu və qanunvericinin əsl mövqeyi hüquq tətbiqedici orqanların diqqətinə çatdırılır. Hər hansı normativ hüquqi akt şərh olunarkən onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onların qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növünün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və başqa əlaqələri müəyyən edilir. Yalnız normativ hüquqi aktın mətni və mənası arasında açıq-aşkar fərq olduqda onun genişləndirici və ya məhdudlaşdırıcı "şərh edilməsinə yol verilir" (13, s.146).

Biz R.S.Qvaladzenin belə bir fikrini dəstəkləyirik ki, Konstitusiya Məhkəməsi qanunvericilik normalarının təfsiri vasitəsilə hüquq tətbiqetmə praktikasını birbaşa istiqamətləndirməklə, qanunvericiliyin bütün sahələrinə əhəmiyyətli təsir göstərir və onları konstitusiya prinsiplərinə uyğun təkmilləşdirir (13, s.147).

Hörmətli, Fərhad müəllim giriş nitqində qeyd etdi ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən 25 il ərzində 545 qərar və 160 qərardad qəbul olunmuşdur. AR məhkəmələrinin müraciəti əsasında qanunların şərhi ilə əlaqədar 168 qərar və 28 qərardad, fərdi şikayətlər üzrə isə 213 qərar qəbul olunmuşdur. Qeyd etmək istəyirəm ki, Konstitusiya Məhkəməsi tərəfindən əmək qanunvericiliyi normalarının AR Konstitusiyasına uyğunluğu və şərhi ilə bağlı 12 qərar qəbul edilmişdir ki, onların da 5-i məhz əmək məzuniyyətləri ilə bağlı olmuşdur. Bunlar aşağıdakılardır:

1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 143-cü maddəsinin birinci hissəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 37-ci maddələrinə və 149-cu maddəsinin

I hissəsinə uyğunluğu haqqında" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 23 fevral 2000-ci il tarixli Qərarı;

2. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 116-cı maddəsinin ikinci hissəsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 noyabr 2000-ci il tarixli Qərarı;

3. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 132-ci maddəsinin ikinci hissəsinin azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsi müddəasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 19 aprel 2001-ci il tarixli Qərarı;

4. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəasının ikinci hissəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 noyabr 2002-ci il tarixli Qərarı;

5. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 115-ci maddəsinin birinci hissəsinin, 116-cı maddəsinin birinci hissəsinin və 136-cı maddəsinin ikinci hissəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 17 iyun 2003-cü il tarixli Qərarı.

Bu beş qərar AR Ali Məhkəməsinin sorğusu əsasında qəbul edilmişdir.

Qeyd olunan qərarlar vasitəsi ilə AR Konstitusiyasına uyğun olmayan AR ƏM-in normaları qüvvədən düşmüş hesab edilmiş, habelə əmək məzuniyyətlərini tənzimləyən normalardakı boşluqlar aradan qaldırılmış və işçilərin konstitusion istirahət hüququnun müdafiəsi təmin edilmişdir. Çıxışımda həmin beş qərarın mahiyyətinə qısaca da olsa toxunmağa çalışacağam.

Əmək məzuniyyətlərinin hüquqi tənzimlənməsindəki mövcud boşluqları şərti olaraq iki yerə ayırmaq olar. Birincisi, Konstitusiya Məhkəməsi tərəfindən konstitusiya normalarının şərhi vasitəsi ilə aradan qaldırılmış boşluqlar, ikincisi isə bu günədək qalmaqda olan mövcud boşluqlar. Təəssüf ki, bu boşluqların da tədricən qanunverici orqan tərəfindən aradan qaldırılmasına baxmayaraq, hələ də qalmaqdadır. Mən onların bəzilərini imkan daxilində Sizin nəzərinizə çatdırmağa çalışacağam.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin əmək məzuniyyətləri ilə bağlı ilk qərarı AR ƏM-in 143-cü maddəsinin birinci hissəsi ilə əlaqədar olmuşdur.

AR ƏM-in 143-cü ("Əmək münasibətlərinə xitam verilərkən məzuniyyət hüququnun həyata keçirilməsi") maddəsinin birinci hissəsinə əsasən müvafiq iş ilinin (illərinin) məzuniyyətindən istifadə etməmiş işçi ilə, bu Məcəllənin 70-ci maddəsinin «a» və «ç» bəndlərində nəzərdə tutulmuş əsaslarla işdən çıxarılma halları istisna olmaqla qalan hallarda əmək müqaviləsinə xitam verilərkən işçinin arzusu ilə həmin iş ili (illəri) üçün ona məzuniyyət verilir və işdənçıxma tarixi məzuniyyətin son günü hesab edilir.

Azərbaycan Respublikası Ali Məhkəməsi 22 dekabr 1999-cu il tarixdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək işəgötürənin təşəbbüsü ilə işdən çıxarma zamanı istifadə olunmamış məzuniyyət verilərkən AR ƏM-in 143-cü maddəsinin birinci hissəsinin və bu Məcəllənin 70-ci maddəsinin "a" və "ç" bəndləri ilə işdən çıxarma hallarının istisna edilməsinə aid hissəsinin AR Konstitusiyasının 37-ci maddəsinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Konstitusiya Məhkəməsi sorğuya baxaraq qeyd etmişdir ki, AR ƏM-in 110-cu maddəsinin birinci hissəsinə əsasən işçilər vəzifəsindən (peşəsindən), əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, bu Məcəllə ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər. Qanunvericinin bu göstərişlərinə görə, əmək məzuniyyətindən istifadə etmək hüququ işçilər arasında fərq qoyulmadan

yaranır. AR ƏM-in 143-cü maddəsinin birinci hissəsi isə həmin müddəalara zidd olaraq əmək münasibətlərinə xitam verilərkən məzuniyyət hüququnun həyata keçirilməsini əmək müqaviləsinin ləğv edilməsinin əsasları ilə fərqləndirir. Belə fərqləndirmə AR Konstitusiyasının 25-ci maddəsində təsbit edilmiş bərabərlik prinsipi ilə də uyğunsuzluq təşkil edir.

AR ƏM-in 70-ci maddəsinin «a» bəndi müəssisənin ləğv edilməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsini nəzərdə tutur. Müəssisənin ləğv edilməsi işçinin təqsiri üzündən deyil, işəgötürənin fəaliyyəti ilə bağlı olduğundan, bu əsaslarla əmək münasibətlərinə xitam verilərkən işçini onun heç bir təqsiri olmadığı halda, məzuniyyət hüququndan məhrum etmək, barəsində cəza tədbirinin tətbiqi kimi qiymətləndirilə bilər.

AR ƏM-in 70-ci maddəsinin «ç» bəndi ilə əmək müqaviləsinə xitam verildikdə AR ƏM-in 143-cü maddəsinin birinci hissəsinə əsasən işçi faktiki olaraq iki cəzaya məruz qalır: həm işdən çıxarılır, həm də məzuniyyətdən məhrum olur.

Beləliklə, AR ƏM-in 143-cü maddəsinin birinci hissəsində nəzərdə tutulan istisnalar isə, bu qəbildən olan işçilərlə digər işçilər arasında ayrı-seçkilik yaratmaqla AR Konstitusiyasında təsbit edilmiş bərabərlik prinsipini pozmuş olur.

AR Konstitusiyasının 149-cu maddəsinin I hissəsində göstərilir ki, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Bu baxımdan AR ƏM-in 143-cü maddəsinin birinci hissəsinin həmin Məcəllənin 70-ci maddəsinin «a» və «ç» bəndləri ilə bağlı olan müddəaları Konstitusiyada təsbit olunmuş normativ hüquqi aktların haqq-ədalətə əsaslanması prinsipinə də müvafiq deyildir.

Konstitusiya Məhkəməsi belə qənaətə gəlmişdir ki, yuxarıda qeyd olunan iki halda işçinin məzuniyyətdən istifadə etmək hüququnun məhdudlaşdırılması AR Konstitusiyasının, əmək qanunvericiliyinin və beynəlxalq hüquqi aktların bir sıra normalarına uyğun deyildir.

Konstitusiya Məhkəməsinin 23 fevral 2000-ci il tarixli Qərarı ilə AR ƏM-in 143-cü maddəsinin birinci hissəsinin, bu Məcəllənin 70-ci maddəsinin "a" və "ç" bəndləri ilə əlaqədar əmək münasibətlərinə xitam verilərkən məzuniyyət hüququnu məhdudlaşdıran müddəaları AR Konstitusiyasının 25, 37-ci maddələrinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığı üçün qüvvədən düşmüş hesab edilmişdir (9).

AR ƏM-in 143-cü maddəsinin ikinci hissəsində deyilir ki, işçi bu maddədə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətdən istifadə etmək istəmədikdə ona bu Məcəllənin 144-cü maddəsi ilə müəyyən edilmiş qaydada və şərtlərlə istifadə edilməmiş məzuniyyətə görə pul əvəzi ödənilir.

AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsinə əsasən əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq, işçiyə işdən çıxan günədək hər hansı şərt və məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir.

Hesab edirik ki, işçinin istifadə etmədiyi iş ili (illərinin) məzuniyyətindən istifadə etdikdə ona həm əsas, həm də əlavə məzuniyyətlərin cəmlənərək verildiyi və haqqı ödənildiyi halda, iş ilinin (illərinin) məzuniyyətindən istifadə etməməklə işdən çıxdıqda ona yalnız istifadə etmədiyi bütün əsas məzuniyyətlərə görə pul əvəzinin ödənilməsi AR Konstitusiyasının 25, 37-ci maddələrinə və 149-cu maddəsinin I hissəsinə uyğun deyildir, yəni bu normaya görə yalnız əsas məzuniyyətin pulla əvəz olunması müddəası işçinin konstitusion istirahət hüququnu məhdudlaşdırır. Əmək məzuniyyəti əsas və əlavə hissələrdən ibarətdir və bu məzuniyyətlərə hüququ işçi müəyyən zaman kəsiyində işləməklə nail olur, yəni bu məzuniyyət heç də işçiyə bəxş (hədiyyə) olunmur. Ona görə də əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan günədək hər hansı

şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin həm əsas, həm də əlavə məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir. AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsinin normasının əmək məzuniyyəti yalnız bir hissədən – əsas məzuniyyətdən ibarət olan işçi barəsində, yəni əlavə məzuniyyətə hüququ olmayan işçi barəsində tətbiqi ədalətli görünə bilər. O işçilər ki, həm əsas, həm də əlavə məzuniyyət hüququna malikdirlər, onlar barəsində bu normanın tətbiqi, fikrimizcə, işçilərin subyektiv konstitusion istirahət hüququnu məhdudlaşdırır. Bu məhdudiyyəti aradan qaldırmaq üçün AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsində "əsas məzuniyyətlərinə" sözlərinin "əmək məzuniyyətlərinə" sözləri ilə əvəz olunmasını, həmin maddənin üçüncü hissəsindəki "bu Məcəllənin 115 və 116-cı maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyətlərə" sözlərinin çıxarılmasını təklif edirik.

Yuxarıda qeyd etdik ki, Konstitusiya Məhkəməsinin səlahiyyətlərindən biri də konstitusiya və qanunların şərh edilməsidir. Biz bunu əmək məzuniyyətlərini tənzimləyən normaların timsalında nəzərdən keçirmək istərdik.

AR ƏM-in 116-cı ("Əmək stajına görə əlavə məzuniyyətlərin müddətləri və verilmə qaydası") maddəsinin ikinci hissəsinin ilkin redaksiyasında qeyd edilirdi ki, əmək stajına görə əlavə məzuniyyətin müddəti işçinin bir müəssisədə işəgötürənlə əmək müqaviləsi bağlayaraq faktik olaraq işlədiyi dövrə əsasən müəyyən edilir. Bu əmək stajına işçinin əmək müqaviləsi üzrə faktik işlədiyi müddətdən başqa, yalnız əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə bu Məcəllənin 179-cu maddəsində nəzərdə tutulan hallarda iş yeri və orta əmək haqqı saxlanıldığı dövrlər daxil edilir.

Azərbaycan Respublikası Ali Məhkəməsi 5 oktyabr 2000-ci il tarixdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək AR ƏM-in 116-cı maddəsinin ikinci hissəsinin şərh olunmasını xahiş etmişdir. Konstitusiya Məhkəməsi həmin sorğuya baxaraq qeyd etmişdir ki, AR ƏM-də işçilərə əsas məzuniyyətlə yanaşı əməyin xarakterindən və əmək stajından asılı olaraq əlavə məzuniyyət müddətinin verilməsi də nəzərdə tutulmuşdur. Belə məzuniyyətin verilməsi bir tərəfdən əmək funksiyalarının həyata keçirilməsi ilə əlaqədar işçilərin səhhətinin bərpasına, digər tərəfdən onların uzun müddət səmərəli işləmələrinə görə mükafatlandırılmalarına yönəlir.

AR ƏM-in 116-cı maddəsinin birinci hissəsinə əsasən işçiyə əmək stajı beş ildən on ilədək olduqda – 2, on ildən on beş ilədək olduqda – 4 və on beş ildən çox olduqda – 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

Lakin həmin maddənin ikinci hissəsində əmək stajına görə əlavə məzuniyyət müddətinin verilməsi işçinin bir müəssisədə işəgötürənlə əmək müqaviləsi bağlayaraq faktiki olaraq işlədiyi dövrə aid edilir.

AR ƏM-in müddəalarına görə eyni kateqoriyalı işçilər üçün əmək müqaviləsinin bağlanmasının əsasları və qaydası, iş vaxtının tənzimlənməsi qaydaları, istirahət vaxtı və s. eynidir. Buna baxmayaraq AR ƏM-in 116-cı maddəsinin ikinci hissəsində heç bir hüquqi əsas göstərilmədən məhz bir müəssisədə işləyib beş il və daha çox əmək stajı əldə edən işçilərə əlavə məzuniyyətin verilməsi nəzərdə tutulmuşdur. Eyni əsaslarla işə qəbul olunmuş, eyni iş vaxtını işləmiş və eyni şəraitdə fəaliyyət göstərmiş, lakin əmək qanunvericiliyində nəzərdə tutulan əmək stajını bir müəssisədə deyil, bir neçə müəssisədə əldə edən işçi isə həmin əlavə məzuniyyətdən məhrum olunur. Əsası olmayan belə qeyri-bərabərlik AR Konstitusiyasının 25-ci maddəsinin I hissəsində nəzərdə tutulmuş bərabərlik hüququna uyğun deyildir. Digər tərəfdən, işçilərin bir müəssisədə fəaliyyətini uzun müddət fasiləsiz davam etdirməsi bəzi hallarda onların istək və arzularından asılı olmur.

Əmək qanunvericiliyinə əsasən müəssisə ləğv olunduqda, işçilərin sayı və ya ştatları ixtisar edildikdə, işçi əmək müqaviləsində nəzərdə tutulan funksiyalarını öz səhhəti ilə bağlı olaraq yerinə yetirə bilməməsi nəticəsində işdən azad olunduqda, əmək müqaviləsinə, onun

iradəsindən asılı olmayaraq xitam verilir və belə vəziyyət işçini başqa müəssisələrdə əmək fəaliyyətini davam etdirməyə məcbur edir. Bu halda AR ƏM-in 116-cı maddəsinin ikinci hissəsi baxımından yuxarıda göstərilən işçilər bir müəssisədə işləyib əmək stajını əldə edən işçilərlə qeyri-bərabər vəziyyətə düşmüş olur. Göstərilən qeyri-bərabərlik isə AR ƏM-in 116-cı maddəsinin müddəalarının AR Konstitusiyasının 149-cu maddəsinin I hissəsində təsbit edilmiş normativ hüquqi aktların hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanması prinsipinə zidd olduğunu göstərir.

Yuxarıdakılara əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi belə nəticəyə gəlinmişdir ki, AR ƏM-in 116-cı maddəsinin ikinci hissəsində əmək stajına görə əlavə məzuniyyətin müddətini məhdudlaşdıran «bir müəssisədə» müddəası AR Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun hesab edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 noyabr 2000-ci il tarxili Qərarı ilə AR ƏM-in 116-cı maddəsinin ikinci hissəsində əmək stajına görə əlavə məzuniyyətin müddətini məhdudlaşdıran «bir müəssisədə» müddəası AR Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilmişdir (7).

AR ƏM-in 132-ci (“Məzuniyyət hüququ verən əmək stajı hesablanarkən nəzərə alınan və alınmayan dövrlər”) maddəsinin ikinci hissənin ilkin redaksiyasında deyilirdi ki, bu Məcəllənin 127-ci maddəsində nəzərdə tutulan qismən ödənişli sosial məzuniyyət müddəti, habelə azadlıqdan məhrumetmədən, islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddət məzuniyyət hüququ verən əmək stajına daxil edilmir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi 16 mart 2001-ci il tarixdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək AR ƏM-in 132-ci maddəsinin ikinci hissəsinin azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilmiş şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsi müddəasının şərh olunmasını xahiş etmişdir. AR Konstitusiya Məhkəməsi sorğuya baxaraq öz qərarında qeyd etmişdir ki, belə məhdudiyyət Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra qısaca olaraq AR CİM) 10-cu və 44.3-cü maddələri ilə uzlaşmır. Belə ki, adı çəkilən Məcəllənin 10.2.3-cü maddəsinə əsasən cəzaların icrası və çəkilməsi zamanı məhkumların istirahət etmək hüququ var. Məhz buna görə həmin Məcəllənin 44.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, islah işləri növündə cəzaya məhkum olunmuş şəxslər əmək qanunvericiliyi ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər. Xüsusi ilə qeyd edilməlidir ki, azadlıqdan məhrum etməyə məhkum olunmuş və əmək fəaliyyəti ilə məşğul olan şəxslərə də AR CİM-nin | 96.5-ci maddəsinə uyğun olaraq hər il əmək qanunvericiliyi ilə müəyyən edilmiş ödənişli məzuniyyət verilməlidir.

AR CİM-nin yuxarıda qeyd edilən normalarının təhlili göstərir ki, islah işlərinə məhkum olunmuş şəxslər işəgötürən ilə bağladığı əmək müqaviləsi əsasında cəzasını işlədikləri müəssisədə, əvvəlki vəzifədə və ya işdə qalmaqla çəkirlər. Həmin şəxslərə əmək qanunvericiliyində işçilərə nəzərdə tutulan iş vaxtı, istirahət vaxtı, əmək normaları, əməyin ödənilməsi normaları, qaydaları və təminatları tətbiq olunur. Bu Məcəllədə AR ƏM-in 132-ci maddəsinin ikinci hissəsindən fərqli olaraq məhkumların AR Konstitusiyasının 37-ci maddəsi ilə təmin olunan istirahət hüququnun məhdudlaşdırılmasına dair heç bir müddəa yoxdur.

AR ƏM-in 132-ci maddəsinin ikinci hissəsinin azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsinə dair müddəası AR Konstitusiyasının 37-ci maddəsində təsbit olunan

istirahət hüququnu məhdudlaşdırır. AR Konstitusiyasının 71-ci maddəsinin II hissəsinə əsasən isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, AR Konstitusiya Məhkəməsinin 19 aprel 2001-ci il tarixli qərarı ilə AR ƏM-in 132-ci maddəsinin ikinci hissəsinin azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsinə dair müddəası AR Konstitusiyasının 37-ci maddəsinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilmişdir.

AR ƏM-in 144-cü ("İstifadə edilməmiş məzuniyyətlər üçün pul əvəzinin verilməsi") maddəsinin ikinci hissəsinə əsasən əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan günədək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi 29 oktyabr 2002-ci il tarixdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsinin müddəalarının həmin Məcəllə qüvvəyə minənədək ötən illərin məzuniyyətindən istifadə etməmiş işçilərə şamil edilib-edilmədiyini müəyyənləşdirmək üçün bu normanın şərh olunmasını xahiş etmişdir.

AR Konstitusiya Məhkəməsi sorğuya baxaraq qeyd etmişdir ki, 1994-cü ildə qəbul olunmuş və 1997-ci ildə AR ƏM-ə əlavə edilmiş "Məzuniyyətlər haqqında" AR Qanunu ilə müəyyənləşdirilən məzuniyyət növləri sırasında əmək məzuniyyəti də göstərilmişdir. Bu Qanunla əmək məzuniyyəti əsas və əlavə məzuniyyətdən ibarət olmaqla əsas məzuniyyət 21, 30 təqvim günü, əlavə məzuniyyət isə 3, 6, 9 təqvim günü müəyyən edilmişdir.

Həmin Qanunun 32-ci maddəsinə əsasən əmək müqaviləsinə xitam verilərkən sosial məzuniyyətlər və uşaqlı analara verilən məzuniyyətlər istisna olmaqla qalan hallarda istifadə edilməmiş məzuniyyətlərə görə pul əvəzi ödənilir.

1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsində "Məzuniyyətlər haqqında" AR Qanununun 32-ci maddəsindən fərqli olaraq əmək müqaviləsinə xitam verilərkən işçiyə işdən çıxan günədək istifadə etmədiyi bütün iş illərinin yalnız əsas məzuniyyətlərinə görə pul əvəzinin ödənilməsini nəzərdə tutulmuşdur. Göründüyü kimi adı çəkilən normalarda istifadə olunmayan iş illərinin məzuniyyətinin əvəzinin pul ilə ödənilməsinin tənzimlənməsinə qanunverici fərqli yanaşmışdır.

Konstitusiya Məhkəməsi hesab etmişdir ki, AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsi tətbiq olunarkən AR Konstitusiyasının 149-cu maddəsinin VII hissəsi və AR ƏM-in 317-ci maddəsinin ikinci hissəsi nəzərə alınmalıdır. Belə ki, AR Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində təsbit olunmuşdur ki, fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

AR ƏM-in 317-ci maddəsinin ikinci hissəsində isə göstərilmişdir ki, bu Məcəllənin tətbiqi zamanı əmək müqaviləsinin tərəflərinin hüquqlarının və mənafelərinin müdafiə olunmasını təmin edən, onların məsuliyyətə cəlb olunmasını istisna edən və ya yüngülləşdirən müddəaların qüvvəsinin geriyə şamil edilməsinə yol verilir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 29 noyabr 2002-ci il tarixli qərarı ilə müəyyən edilmişdir ki, əmək müqaviləsinə xitam verilərkən 1999-cu il iyulun 1-dək istifadə olunmamış məzuniyyətlərə görə pul əvəzi həmin dövrdə qüvvədə olan qanunvericiliklə, həmin tarixdən sonra istifadə

olunmamış məzuniyyətlərə görə pul əvəzi isə qüvvədə olan AR ƏM-in 144-cü maddəsinin ikinci hissəsinə müvafiq olaraq ödənilməlidir (8).

Azərbaycan Respublikasının Ali Məhkəməsi 15 may 2003-cü il tarixdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək AR ƏM-in 115-ci maddəsinin birinci hissəsində əmək şəraitinə və əmək funksiyasının xususiyyətlərinə görə, 116-cı maddəsinin birinci hissəsində isə əmək stajından asılı olaraq əlavə məzuniyyət verildiyinin müəyyənləşdirildiyini, bu Məcəllənin 136-cı maddəsinin ikinci hissəsində isə işçinin eyni vaxtda həmin Məcəllənin 115 və 116-cı maddələrində nəzərdə tutulan iki və daha çox əlavə məzuniyyətə hüququ olduqda onun əsas məzuniyyətinə daha çox müddətli bir əlavə məzuniyyət birləşdirilməsinin göstərildiyini qeyd edir. Əlavə məzuniyyətlərin cəmlənməsi qaydası haqqında AR ƏM-in 136-cı maddəsinin ikinci hissəsi aydın tərtib edilmədiyi üçün onun tətbiqinin müəssisə, idarə və təşkilatların fəaliyyətində, habelə məhkəmə təcrübəsində çətinlik yaratdığına, vahid məhkəmə təcrübəsinə mənfi təsir etdiyinə əsaslanaraq, AR ƏM-in 115-ci maddəsinin birinci, 116-cı maddəsinin birinci, 136-cı maddəsinin ikinci hissələrinin şərh edilməsini xahiş edir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sorğuya baxaraq qeyd etmişdir ki, istirahət hüququ AR Konstitusiyasında təsbit olunmuş əsas hüquqlar və azadlıqlar sırasındadır.

Konstitusiya Məhkəməsinin 2000-ci il 29 noyabr tarixli qərarında qeyd edildiyi kimi işçilərə əsas məzuniyyətlərlə yanaşı əməyin xarakterindən və əmək stajından asılı olaraq əlavə məzuniyyət müddətinin verilməsi bir tərəfdən əmək funksiyalarının həyata keçirilməsi ilə əlaqədar işçilərin səhhətinin bərpasına, digər tərəfdən onların uzun müddət səmərəli işləmələrinə görə mükafatlandırılmasına yönəlib.

AR ƏM-in məzuniyyətin növlərini nəzərdə tutan 112-ci maddəsinin birinci hissəsinin «a» bəndinə görə əmək məzuniyyəti əsas və əlavə məzuniyyətlərdən ibarətdir.

Bu Məcəllənin 113-cü maddəsinin ikinci hissəsində göstərilir ki, əmək məzuniyyəti müvafiq peşə (vəzifə) üzrə əmək funksiyasını yerinə yetirən işçilərə verilən illik əsas məzuniyyətdən və istehsalın, əməyin xarakterinə və əmək stajına görə, habelə uşaqlı qadınlara verilən əlavə məzuniyyətdən ibarət olub istər birlikdə, istərsə də ayrılıqda verilə bilər.

AR ƏM-in 115-ci maddəsinin birinci hissəsinə əsasən yeraltı işlərdə çalışan, əmək şəraiti zərərli və ağır, habelə əmək funksiyası yüksək həssaslıq, həyəcan, zehni və fiziki gərginliklə bağlı olan işçilərə əməyin şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətlər verilir. Əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətin müddəti 6 təqvim günündən az olmamalıdır.

AR ƏM-in 116-cı maddəsinin birinci hissəsində qeyd olunur ki, əmək stajından asılı olaraq işçilərə, beş ildən on ilədək əmək stajı olduqda – 2 təqvim günü, on ildən on beş ilədək əmək stajı olduqda – 4 təqvim günü, on beş ildən çox əmək stajı olduqda – 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir. O da qeyd olunmalıdır ki, əmək stajına, o cümlədən əmək şəraitinə görə əlavə məzuniyyətlər bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş işçilərə tətbiq edilmir.

Əsas və əlavə məzuniyyətlərin müddətlərinin cəmlənməsi qaydasını müəyyənləşdirən AR ƏM-in 136-cı maddəsinin birinci hissəsinə əsasən bu Məcəllənin 114-cü maddəsində nəzərdə tutulmuş əsas məzuniyyət yalnız 115 və 116-cı maddələrlə müəyyən edilmiş əlavə məzuniyyətlərlə cəmlənərək birlikdə verilməlidir.

Həmin maddənin ikinci hissəsində isə qeyd olunur ki, işçinin eyni vaxtda bu Məcəllənin 115 və 116-cı maddələrində nəzərdə tutulmuş iki və daha çox əlavə məzuniyyətə hüququ olduqda, onun əsas məzuniyyətinə daha çox müddətli bir əlavə məzuniyyət birləşdirilir.

Qanunverici tərəfindən AR ƏM-in 115 və 116-cı maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyətlərin mahiyyətləri müxtəlifdir.

Belə ki, 115-ci maddədə müəyyənləşdirilən əlavə məzuniyyət müddətləri ilk növbədə əmək öhdəliklərini yerinə yetirən zaman işçinin sağlamlığına zərər yetirən mənfi amillərin təsirini kompensasiya etmək məqsədi güdürsə, 116-cı maddədə göstərilən əlavə məzuniyyətlərin müddətləri işçinin təssərüfat sahəsində uzun müddət işləməsinin stimullaşdırılmasına xidmət edir.

İşçinin əmək stajına görə, əlavə məzuniyyət hüququnun qanunvericilikdə nəzərdə tutulan müəyyən iş stajına malik olduğu andan yaranmasından fərqli olaraq, əmək şəraitinə və əmək funsiyalarının xususiyyətlərinə görə əlavə məzuniyyət hüququnun əmələ gəlməsi işçinin əmək şəraiti zərərli və ağır olan müvafiq istehsalatda, peşə və ya vəzifədə iş ili ərzində üst-üstə azı altı ay işlədiyi müddətin mövcudluğu ilə əlaqələndirilmişdir.

Bu hal, digər əsaslarla yanaşı, göstərilən hüquqların hüquqi təbiətinə görə birini digərindən fərqləndirən əsas amillər sırasındadır.

Əmək şəraitinə və əmək funksiyalarının xüsusiyyətlərinə görə, işçilərin sağlamlığına pis təsir göstərən neqativ amillərin intensivliyi və davamlılığını, müxtəlif peşə xəstəliklərinə daha tez tutulmaq təhlükəsinin reallığını əsas götürərək, qanunverici AR ƏM-in 115-ci maddəsinin birinci hissəsində əlavə məzuniyyətlərin müddətlərinin aşağı həddini müəyyənləşdirmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi daha sonra qeyd etmişdir ki, AR ƏM-in 115 və 116-cı maddələrindəki bir neçə əlavə məzuniyyətlərə hüququn mövcudluğu heç də onlardan eyni vaxtda tam həcmdə istifadə edilməsini nəzərdə tutmur. AR ƏM-in 136-cı maddəsinin ikinci hissəsinə görə işçinin eyni vaxtda bu Məcəllənin 115 və 116-cı maddələrində müəyyənləşdirilmiş iki və daha çox əlavə məzuniyyətə hüququ olduqda, onun əsas məzuniyyətinə daha çox müddətli bir əlavə məzuniyyət birləşdirilir.

Beləliklə, qanunverici əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə bir neçə əlavə məzuniyyət müddətini müəyyənləşdirir. AR ƏM-in 116-cı maddəsində isə əmək stajına görə konkret üç əlavə məzuniyyət müddəti göstərilir.

AR ƏM-in 136-cı maddəsinin birinci hissəsində qeyd olunur ki, bu Məcəllənin 114-cü maddəsində nəzərdə tutulmuş əsas məzuniyyət yalnız 115 və 116-cı maddələrdə müəyyən edilmiş əlavə məzuniyyətlərlə cəmlənərək birlikdə verilməlidir. Göründüyü kimi, qanunverici həm əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə həm də əmək stajına görə əlavə məzuniyyət hüquqlarını tanımaqla onların müddətlərinin əsas məzuniyyətlə cəmlənərək birlikdə verilməsini imperativ norma kimi müəyyənləşdirir. İşçiyə məzuniyyət verilərkən, bu hüquqlardan hər hansı birinin əsas məzuniyyətə birləşdirilməsinin məhdudlaşdırılması, belə hüququn hüquqi təminatdan kənarda qalmasına və deklarativ xarakter daşımasına zəmin yaratmış olardı.

Qanunverici AR ƏM-in 136-cı maddəsinin ikinci hissəsində işçinin əsas məzuniyyətinə bu Məcəllənin 115 və 116-cı maddələrində nəzərdə tutulan iki və daha çox əlavə məzuniyyətlərdən yalnız birinin, daha çox müddətlisinin birləşdirilməsini nəzərdə tutmuşdur.

Göstərilənlərə əsasən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi belə bir qənaətə gəlmişdir ki, AR ƏM-in 136-cı maddəsinin birinci hissəsinə müvafiq olaraq, işçiyə əsas məzuniyyət yalnız bu Məcəllənin 115-ci maddəsində nəzərdə tutulan əmək şəraitinə

və əmək funksiyalarının xüsusiyyətlərinə, habelə həmin Məcəllənin 116-cı maddəsində müəyyənləşdirilən əmək stajına görə əlavə məzuniyyətlərlə cəmlənərək birlikdə verilməlidir.

AR ƏM-in 136-cı maddəsinin ikinci hissəsinə əsasən işçinin eyni vaxtda həm əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə, həm də əmək stajına görə AR ƏM-in 115 və 116-cı maddələrində nəzərdə tutulan iki və daha çox əlavə məzuniyyətə hüququ olduqda, bu maddələrin ayrılıqda hər biri üzrə əldə etdiyi daha çox müddətli bir əlavə məzuniyyət onun əsas məzuniyyətinə birləşdirilir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 17 iyun 2003-ci il tarixli qərarı ilə müəyyən olunmuşdur ki, AR ƏM-in 136-cı maddəsinin birinci hissəsinə müvafiq olaraq, işçiyə əsas məzuniyyət yalnız bu Məcəllənin 115-ci maddəsində nəzərdə tutulan əmək şəraitinə və əmək funksiyalarının xüsusiyyətlərinə, habelə həmin Məcəllənin 116-cı maddəsində müəyyənləşdirilən əmək stajına görə əlavə məzuniyyətlərlə cəmlənərək birlikdə verilməlidir.

Bu maddənin ikinci hissəsinə əsasən işçinin eyni vaxtda həm əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə, həm də əmək stajına görə AR ƏM-in 115 və 116-cı maddələrində nəzərdə tutulan iki və daha çox əlavə məzuniyyətə hüququ olduqda, bu maddələrin ayrılıqda hər biri üzrə əldə etdiyi daha çox müddətli bir əlavə məzuniyyət onun əsas məzuniyyətinə birləşdirilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi şərhi vasitəsilə hüquqi tənzimetmə sahəsində mövcud boşluqlar aradan qaldırılaraq, qanunvericilik normaları ictimai münasibətlərin hüquqi tənzimetmədən kənar qalmış hissəsinə də konstitusiya prinsipləri nəzərə alınmaqla tətbiq olunur.

Göründüyü kimi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi konstitusiya normalarının şərhi vasitəsilə əmək məzuniyyətlərini tənzimləyən normalardakı mövcud boşluqlar tamamilə aradan qaldırılmışdır.

İndi isə icazənizlə əmək məzuniyyətlərini tənzimləyən digər normalardakı bəzi mövcud boşluqlar və kolliziyalar, habelə onların aradan qaldırılması haqqında fikirlərimizi nəzərinizə çatdırmaq istərdim.

1) Azərbaycan Respublikası 19 may 1992-ci ildən BƏT-in üzvüdür və BƏT-in 50-dən çox Konvensiyası ilə yanaşı 19 iyul 1994-cü ildə "Ödənişli məzuniyyətlər haqqında" 132 nömrəli Konvensiyanı (1970-ci ildə yenidən baxılmış) ratifikasiya etmişdir. AR ƏM-də ilk dövrlərdə iş günü hesab edilməyən bayram günləri əmək məzuniyyəti dövrünə düşdükdə onun hesablanmasının fərqli qaydası müəyyən edilmişdir. AR ƏƏSMN və AHİK-sı 27 iyun 2000-ci il tarixdə «Bayram və ümumxalq hüzn günü əmək məzuniyyəti dövrünə düşdüyü hallarda əmək məzuniyyətinin müddətinin uzadılması barədə» İzahat qəbul etmişlər. Həmin İzahatda göstərilirdi ki, BƏT-in «Ödənişli məzuniyyətlər haqqında» 132 nömrəli Konvensiyasının (1970-ci ildə yenidən baxılmış) 6-cı maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasında bayram və ya ümumxalq hüzn günləri əmək məzuniyyəti dövrünə düşdükdə, 5 günlük iş həftəsində işləyənlər üçün həmin günlər şənbə və bazar günlərinə, 6 günlük iş həftəsində işləyənlər üçün isə bazar gününə düşməzlərsə, əmək məzuniyyətinin müddəti bu günləri sayı qədər haqqı ödənilmədən uzadılır (12). AR ƏƏSMN-nin və AHİK-nın verdiyi bu İzahat AR Konstitusiyasına və BƏT-in «Ödənişli məzuniyyətlər haqqında» 132 nömrəli Konvensiyasının (1970-ci ildə yenidən baxılmış) tamamilə zidd idi.

AR Konstitusiyasının 148-ci maddəsinin ikinci hissəsinə əsasən AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-nın qanunvercilik sisteminin ayrılmaz tərkib hissəsidir. AR

Konstitusiyasının 151-ci maddəsinə görə AR-nın qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir (2). AR ƏƏSMN-nin və AHİK-nın bu İzahatı göstərilən aktlarla ziddiyyət təşkil etdiyi üçün tətbiq edilməməli olduğu halda xeyli müddət ərzində respublikamızda tətbiq olunmuşdur.

Əmək məzuniyyətinin təqvim günləri ilə hesablanması ilk dəfə «Məzuniyyətlər haqqında» Azərbaycan Respublikasının 1994-cü il 19 iyul tarixli Qanununda nəzərdə tutulmuşdur (14). Əmək məzuniyyətinin müddəti təqvim günləri ilə hesablandığından həftəlik istirahət günləri (şənbə və bazar) məzuniyyət günlərinin sayına daxil edilir. İş günü hesab olunmayan bayram günləri, ümumxalq hüzn günü və səsvermə günü əmək məzuniyyəti dövrünə təsadüf etdikdə isə onun müddətinin hesablanmasının fərqli qaydası müəyyən edilmişdir. Belə ki, AR ƏM-in 114-cü maddəsinin altıncı hissəsinə əsasən, əmək məzuniyyəti dövrünə təsadüf edən iş günü hesab olunmayan bayram günləri məzuniyyətin təqvim günlərinə daxil edilmir və ödənilmir.

Bu gün qüvvədə olan AR ƏM-in müddəalarına görə ümumxalq hüzn günü və səsvermə günü işçinin əmək məzuniyyətinin müddətinə daxil edilir və haqqı ödənilir, lakin məzuniyyətin müddəti uzadılmır. Hesab edirik ki, AR ƏM-in bu norması BƏT-in «Ödənişli məzuniyyətlər haqqında» 132 nömrəli Konvensiyasının (1970-ci ildə yenidən baxılmış) 6-cı maddəsinin birinci hissəsinə ziddir. Həmin Konvensiyanın 6-cı maddəsinin birinci hissəsində deyilir ki, rəsmi və ənənəvi bayram və qeyri-iş günləri işçinin illik məzuniyyət müddətinə düşüb-düşməməsindən asılı olmayaraq bu Konvensiyanın 3-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulan illik ödənişli minimum məzuniyyətin bir hissəsi kimi hesaba alınmır. Həmin Konvensiyanın 3-cü maddəsinin üçüncü hissəsinə əsasən, bir il işləməyə görə məzuniyyət, heç bir halda üç iş həftəsindən az ola bilməz (11).

AR ƏM-in 105-1-ci maddəsinə görə, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir (3).

AR ƏM-in 106-cı maddəsinə əsasən, hər il yanvarın 20-si Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü – ümumxalq hüzn günüdür. Bu gün iş günü hesab edilmir (3). Ümumxalq hüzn günü və səsvermə günü də qeyri-iş günləri sırasına aid edilməsinə baxmayaraq, işçinin əmək məzuniyyəti dövrünə düşdükdə əmək məzuniyyətinin müddətinin uzadılmaması vətəndaşların konstitusion istirahət hüququnun təminatlarından biri olan məzuniyyət hüququnun kobud surətdə pozulmasıdır. Bunu aradan qaldırmaq üçün o, AR ƏM-in 114-cü maddəsinin altıncı hissəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirik: «Əmək məzuniyyəti dövrünə təsadüf edən iş günü hesab edilməyən bayram günləri, səsvermə günü və ümumxalq hüzn günü məzuniyyətin təqvim günlərinə daxil edilmir və ödənilmir, lakin məzuniyyətin müddəti həmin günlərin sayı qədər uzadılır».

2) Azərbaycan SSR-in 10 dekabr 1971-ci il tarixli Əmək Qanunları Məcəlləsindən fərqli olaraq bu gün qüvvədə olan əmək qanunvericiliyi işçinin məzuniyyətdən geriçağırma hallarını və qaydasını da ətraflı şəkildə tənzimləyir. Belə ki, AR ƏM-in 137-ci maddəsinin ikinci hissəsinə əsasən, müstəsna hallarda – istehsalatda baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması, habelə təxirəsalınmaz işlərin görülməsi zərurəti olduqda əmək məzuniyyətində olan işçi ancaq onun razılığı ilə məzuniyyətdən geri çağırıla bilər. Əmək məzuniyyətindən geriçağırma əmrlə (sərəncamla, qərarla) rəsmiləşdirməlidir (3).

Qanunverici bu zaman işçinin razılığının ifadə formasına nədənsə heç bir önəm verməmişdir. Bu da işçinin telefonla məzuniyyətdən geri çağrıldığı və şifahi formada razılığını verdiyi, bu faktın sənədli təsdiqini tapmadığı mübahisəli vəziyyətlərin yaranmasına səbəb ola bilər. Buna görə də AR ƏM-in 137-ci maddəsinin ikinci hissəsindəki «işçi ancaq onun razılığı ilə» sözlərinin «işçi ancaq onun yazılı razılığı ilə» sözləri ilə əvəz edilməsini məqsədəmüvafiq hesab edirik.

İşçi məzuniyyətdən geri çağırılmaq barədə işəgötürənin təklifindən imtina edərsə, bu əmək intizamının pozulması kimi qiymətləndirilə bilməz. Bu baxımdan hesab edirik ki, AR ƏM-in 137-ci maddəsinin ikinci hissəsinə aşağıdakı məzmunda əlavə edilməlidir: «Əmək məzuniyyətindən geri çağrılma barədə işəgötürənin təklifindən imtina etmək əmək intizamının pozulması hesab olunmur və işçi barəsində hər hansı intizam tənbeh tədbiri tətbiq oluna bilməz».

Belə bir müddəanın AR ƏM-in 137-ci maddəsinə əlavə olunmasını məqsədəmüvafiq hesab edirik.

3) Azərbaycan SSR-in ƏQM-nin 73-cü maddəsində məzuniyyətin başqa vaxta keçirilməsinin və ya uzadılmasının müstəsna halları nəzərdə tutulmuşdur. Həmin maddənin ikinci hissəsində göstərilirdi ki, hər il verilən məzuniyyət aşağıdakı hallarda başqa vaxta keçirilməli və ya uzadılmalıdır: fəhlə və ya qulluqçu əmək qabiliyyətini müvəqqəti itirdikdə, fəhlə və ya qulluqçu dövlət vəzifələrini və ya ictimai vəzifələri yerinə yetirməyə cəlb olunduqda, qanunvericilikdə nəzərdə tutulmuş başqa hallarda (4).

Lakin bu gün qüvvədə olan AR ƏM-də əmək məzuniyyətinin uzadılmasını nəzərdə tutan norma yoxdur. Fikrimizcə, bu AR ƏM-in ciddi boşluğu kimi qiymətləndirilməlidir və onun doldurulmasına ciddi zərurət vardır.

Əvvəllər qüvvədə olmuş Azərbaycan SSR-in ƏQM-nin 73-cü maddəsinə əsasən işçi məzuniyyətə getməmişdən əvvəl əmək qabiliyyətini müvəqqəti itirərdisə, onun əmək məzuniyyəti başqa vaxta keçirilirdi və yaxud işçi məzuniyyətdə olduğu vaxt xəstələnərdisə onun məzuniyyəti məzuniyyətə düşən günün (günlərin) sayı qədər uzadılırdı və ya başqa vaxta keçirilirdi. Bu gün qüvvədə olan AR ƏM-in 134-cü maddəsinin məzmununa görə işçi yalnız məzuniyyətə çıxanadək əmək qabiliyyətini müvəqqəti itirərsə, onun əmək məzuniyyəti başqa vaxta keçirilməlidir. Lakin işçi məzuniyyətdə olduğu vaxtda əmək qabiliyyətini müvəqqəti itirərsə, məzuniyyət dövrünə düşən xəstəlik müddəti qədər əmək məzuniyyətinin uzadılması və ya başqa vaxta keçirilməsi müəyyən edilməmişdir. BƏT-in «Ödənişli məzuniyyətlər haqqında» 132 nömrəli Konvensiyasının (1970-ci ildə yenidən baxılmış) 6-cı maddəsinin ikinci hissəsində göstərilir ki, hər bir ölkənin səlahiyyətli hökumət orqanı və ya digər müvafiq orqan tərəfindən müəyyən edilmiş şərtlərə uyğun olaraq xəstəlik və ya bədbəxt hadisələr üzündən əmək qabiliyyətinin itirildiyi dövr bu konvensiyasının üçüncü maddəsinin üçüncü hissəsində nəzərdə tutulan illik ödənişli minimum məzuniyyətin bir hissəsi kimi nəzərə alınmaya bilər. Ancaq nədənsə AR ƏM qəbul edilərkən bu mühüm məsələ ilə əlaqədar Məcəllədə müvafiq norma nəzərdə tutulmamışdır. Bu boşluğu doldurmaq məqsədilə təklif edirik ki, AR ƏM-in 111-ci maddəsinin ikinci hissəsi üçüncü hissə hesab edilsin və ikinci hissə aşağıdakı redaksiyada verilsin: «İşçi məzuniyyətdə olduğu dövrdə xəstələnərsə və ya zədə alınması nəticəsində əmək qabiliyyətini müvəqqəti itirərsə, bu günlərin sayı qədər əmək məzuniyyətinin müddəti uzadılır və ödənilmir və ya (yaxud) işçinin arzusu ilə başqa vaxtda ödənişsiz əlavə istirahət günləri (əvəz gün) verilir».

4) AR ƏM-in 138-ci maddəsinin birinci hissəsinə əsasən, bütün növ məzuniyətlərin verilməsi işçinin ərizəsi əsasında işəgötürənin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilir. Bəzən elə olur ki, işçinin məzuniyyətlərin növbəlilik cədvəlində müəyyən olunmuş müddət

gəlib çatır, lakin o, məzuniyyətə çıxmaq üçün ərizə yazmır. Sual olunur. Belə olan halda işəgötürən işçinin ərizəsi olmadan onu əmək məzuniyyətinə göndərə bilərmi? Hazırda bunu tənzimləyən norma AR ƏM-də yoxdur. Bu bir boşluqdur. Bu boşluğu doldurmaq üçün AR ƏM-in 138-ci maddəsinə ("Məzuniyyətlərin verilməsinin rəsmiləşdirilməsi və uçotunun aparılması") aşağıdakı məzmunda 2-1 hissəsinin əlavə olunmasını təklif edirik: "İşəgötürənin şifahi və ya yazılı xəbərdarlığından sonra işçi əmək məzuniyyətinin növbəlilik cədvəlinə və əmək məzuniyyətinin başqa vaxta keçirilməsi şərtləri və qaydasına riayət etməyərək əmək məzuniyyətindən istifadə etmək üçün işəgötürənə ərizə ilə müraciət etmədikdə işəgötürənin əmri ( sərəncamı, qərarı) ilə müvafiq iş ilinin əmək məzuniyyətinə göndərilə bilər".

AR ƏM-in 138-ci maddəsinin birinci hissəsinin 1-ci cümləsinin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir: "Bu maddənin 2-1-ci hissəsində müəyyən edilmuş hal istisna olmaqla, bütün növ məzuniyyətlərin verilməsi işçinin ərizəsi əsasında işəgötürənin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilir".

5) AR ƏM-in 135-ci maddəsinin ("Əmək məzuniyyətinin verilməməsinin yolverilməzliyi") birinci hissəsinə aşağıdakı məzmunda normanın əlavə olunmasını təklif edirik: "Təqvim və ya iş ili ərzində işçi başqa vaxta keçirilməmiş əsas məzuniyyətdən mütləq istifadə etməlidir".

Eyni zamanda AR ƏM-in 135-ci maddəsinə aşağıdakı məzmunda 2-ci hissənin əlavə olunmasını təklif edirik: "Növbəti iş və ya təqvim ilinə keçirilərək istifadə edilməmiş əsas məzuniyyət günlərinə görə kompensasiya bu Məcəllənin 144-cü maddəsinin ikinci hissəsi ilə müəyyən edilmiş qaydada ödənilir".

6) AR ƏM-in 134-cü maddəsinə ("Əmək məzuniyyətinin başqa vaxta keçirilməsi şərtləri və qaydası") aşağıdakı məzmunda 4-1- hissəsi əlavə edilsin: "Bu maddənin 3-cü və 4-cü hissələrində göstərilən hallar istisna olmaqla əmək məzuniyyətinin əsas hissəsinin növbəti iş və ya təqvim ilinə keçirilməsinə yol verilmir".

7) İşçilərin məzuniyyət hüququnun təmin edilməsinin növlərindən biri əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyətidir. Əmək məzuniyyətinin leqal anlayışı ilk dəfə "Məzuniyyətlər haqqında" AR Qanununun 5-ci maddəsində təsbit olunmuşdur. Həmin maddədə deyilirdi: "Əmək məzuniyyəti işverənlə əmək münasibətlərində olan işçinin əməyinin və istehsalın xarakterinə görə normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi istirahət vaxtıdır" (14). Sonra bu tərif çox cüzi dəyişikliklərlə bu gün qüvvədə olan AR ƏM-in 113-cü maddəsinin birinci hissəsində təsbit edildi. Orada deyilir: "Əmək məzuniyyəti – işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi, müddəti bu Məcəllədə nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır" (3).

AR ƏM-in 113-cü maddəsinin birinci hissəsini təhlil edərkən aydın olur ki, həmin tərifdə hüquqi kateqoriya kimi əmək məzuniyyətini xarakterizə edən iki ən mühüm əlamət öz təsbitini tapmamışdır. Birincisi, maddi təminat, yəni işçinin orta əmək haqqının saxlanılması, ikincisi, əmək məzuniyyətinə çıxan işçinin iş yerinin (vəzifənin) saxlanılması kimi mühüm əlamətlər göstərilmir. Ona görə də əmək məzuniyyətinin leqal tərifinin verildiyi AR ƏM-in 113-cü maddəsinin birinci hissəsinin birinci cümləsinin aşağıdakı redaksiyasında verilməsi təklif edilir: «Əmək məzuniyyəti – işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün iş yeri (vəzifəsi) və orta əmək haqqı saxlanılmaqla işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi, müddəti bu Məcəllədə, kollektiv müqavilədə və ya əmək müqaviləsində nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır».

8) Qüvvədə olan AR ƏM-də əmək məzuniyyətinin leqal anlayışı verildiyi halda, əlavə məzuniyyətin tərifi verilməmişdir. Əlavə məzuniyyətə aşağıdakı kimi tərif verilməsi təklif olunur: "Əlavə məzuniyyət əvvəlcədən müəyyən olunmuş məqsədlərlə iş yeri (vəzifə) və orta əmək haqqı saxlanılmaqla istirahət üçün verilən əsas məzuniyyət günlərindən artıq istirahət vaxtının bu Məcəllə, kollektiv müqavilə və ya əmək müqaviləsi ilə müəyyən edilmiş müddətidir".

9) AR ƏM-in 113-cü maddəsinin ikinci hissəsinə əsasən, əmək məzuniyyəti müvafiq peşə (vəzifə) üzrə əmək funksiyasını yerinə yetirən işçilərə verilən illik əsas məzuniyyətdən və istehsalın, əməyin xarakterinə və əmək stajına görə, habelə uşaqlı qadınlara verilən əlavə məzuniyyətdən ibarət olub, istər birlikdə, istərsə də ayrılıqda verilə bilər.

Qeyd edək ki, uşaqlı qadınların əlavə məzuniyyətləri məqsədli təyinatına görə əmək məzuniyyəti rubrikasına aid olmayıb sosial məzuniyyətlər sisteminə, yəni AR ƏM-in XIX fəslinə ("Sosial məzuniyyətlər") aiddir. Ona görə də bu məzunyyət növünün "Sosial məzuniyyətlər" fəslinə keçirilməsini məqsədəmüvafiq hesab edirik. Çünki uşaqlı qadınlara verilən əlavə məzuniyyətin əmək məzuniyyəti ilə heç bir əlaqəsi yoxdur.

Digər tərəfdən isə qadınlara uşağı olması səbəbinə görə onlara əlavə məzuniyyətin verilməsi AR ƏM-in 113-cü maddəsinin birinci hissəsində göstərilən əsaslarla qətiyyən uzlaşmır. Ona görə də AR ƏM-in 113-cü maddəsinin ikinci hissəsində, habelə "uşaqlı qadınların" sözlərinin çıxarılmasını da məqsədəuyğun hesab edirik.

10) AR ƏM-in 114-cü maddəsinin beşinci hissəsinə əsasən mövsümi işlərdə çalışan işçilərə əsas məzuniyyət, bir qayda olaraq, mövsümün sonunda hər iş ayına görə iki təqvim günündən az olmayan müddətə verilir. Lakin bu norma mövsümi işlərdə çalışan işçilərin bütün mövsüm ərzində əsas məzuniyyətdən istifadə etmək hüququnu məhdudlaşdırır. Ona görə də AR ƏM-in 114-cü maddəsinin beşinci hissəsinin cüzi dəyişikliklərlə aşağıdakı redaksiyada verilməsini məqsədəuyğun hesab edirik: «5. Mövsümi işlərdə çalışan işçilərə əsas məzuniyyət mövsümün sonunda və ya işçinin xahişi və işəgötürənin razılığı ilə mövsüm ərzində hər iş ayına görə iki təqvim günündən az olmayan müddətə verilir».

11) AR ƏM-in 62-ci maddəsinin üçüncü hissəsinə görə üzrlü səbəbdən icbari ilkin və ya vaxtaşırı tibbi müayinədən keçməyən işçilər işdən kənarlaşdırıldıqda, onlara işdən kənar edildiyi vaxt ərzində boşdayanma qaydasında əmək haqqı ödənilməsinə baxmayaraq belə işçilərin işdən kənarlaşdırıldığı dövrün əmək məzuniyyətinə hüquq verən əmək stajına daxil edilib-edilməməsi açıq qalmışdır. Qanunvericilikdə olan bu boşluğu aradan qaldırmaq üçün AR ƏM-in 132-ci maddəsinə aşağıdakı məzmunda d) bəndinin əlavə edilməsini təklif edirik: « d) üzrlü səbəblərdən (işçinin təqsiri olmadan) icbari ilkin və ya vaxtaşırı tibbi müayinədən keçməyən işçilərin işdən kənarlaşdırıldığı dövr».

12) Qanunvericilikdə olan digər bir boşluq işçinin üzrlü səbəblərdən işdə olmadığı dövrlərin əmək məzuniyyətinə hüquq verən əmək stajına daxil olunub-olunmaması ilə əlaqədardır. Belə ki, AR ƏM-in 132-ci maddəsində bu suala cavab tapmaq qeyri-mümkündür. Ona görə də qeyd olunan məsələnin dəqiq hüquqi tənzimlənməsi məqsədilə AR ƏM-in 132-ci maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda e) bəndinin əlavə edilməsini məqsədəuyğun hesab edirik: « e) işçinin üzrlü səbəblərdən işdə olmadığı dövr».

13) AR ƏM-in 132-ci maddəsinin ikinci hissəsindən belə bir suala da cavab tapmaq çətindir ki, işçinin xahişi ilə müəyyən müddətə verilən ödənişsiz məzuniyyətlər əmək məzuniyyətinə hüquq verən əmək stajına daxildirmi? AR ƏM-dən fərqli olaraq MDB ölkələrinin bəzilərinin ƏM-də bu məsələ ətraflı surətdə tənzimlənir.

Ona görə də gələcəkdə yarana biləcək hər hansı mübahisədən qaçmaq və AR ƏM-i təkmilləşdirmək məqsədilə 132-ci maddənin ikinci hissəsinin aşağıdakı redaksiyada

verilməsini təklif edirik: «2. Əmək məzuniyyətinə hüquq verən əmək stajına aşağıdakı dövrlər daxil edilmir: a) bu Məcəllənin 127-ci maddəsində nəzərdə tutulan qismən ödənişli sosial məzuniyyət müddəti; b) işçinin xahişi ilə 14 təqvim günündən artıq olan müddətə verilən ödənişsiz məzuniyyət müddəti».

14) AR ƏM-in 133-cü maddəsinin birinci hissəsinə əsasən hər il yanvarın sonunadək əmək məzuniyyətlərinin verilməsi üçün növbəlilik cədvəli tərtib edilə bilər. Deməli, belə növbəlilik cədvəlləri tərtib olunmaya da bilər. Bu isə işəgötürənin öz hüquqlarından sui-istifadəyə gətirib çıxara bilər. Ona görə də AR ƏM-in 133-cü maddəsinin birinci hissəsində «tərtib edilə bilər» sözlərinin «tərtib edilir» sözləri ilə əvəz olunmasını məqsədəmüvafiq hesab edirik.

Bundan başqa AR ƏM-də təsdiq olunmuş məzuniyyət cədvəllərinin həm işçi, həm də işəgötürən üçün məcburiliyini təsbit edən norma nəzərdə tutulmamışdır. MDB-yə üzv dövlətlərin əmək məcəllələrində isə belə norma, məsələn RF ƏM-in 123-cü maddəsində təsbit olunmuşdur. Məzuniyyət cədvəli həm işçi, həm də işəgötürən üçün məcburidir. Bu onu bildirir ki, nə işəgötürən, nə də işçi məzuniyyətə getmək üçün müəyyən olunmuş vaxtı birtərəfli qaydada dəyişdirə bilməz. AR ƏM-də belə bir normanın verilməsinə də ciddi ehtiyac vardır.

Ona görə də AR ƏM-in 133-cü maddəsinə aşağıdakı məzmunda 2-1 hissənin əlavə edilməsini təklif edirik: «2-1. Əmək məzuniyyətinin növbəlilik cədvəli həm işçi, həm də işəgötürən üçün məcburidir və birtərəfli qaydada dəyişdirilə bilməz».

15) AR ƏM-in 134-cü maddəsinin üçüncü hissəsi müəyyən edir ki, işçinin təşəbbüsü ilə aşağıdakı hallarda əmək məzuniyyəti başqa vaxta keçirilə bilər:

a) əmək qabiliyyəti müvəqqəti itirildikdə;

b) əmək məzuniyyəti ilə sosial məzuniyyət bir vaxta düşdükdə;

c) işəgötürənin tapşırıqlarını yerinə yetirmək üçün başqa yerə ezam edildikdə».

Hesab edirik ki, AR ƏM-in bu normasının da təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Çünki real həyatda elə hallar vardır ki, onlar mövcud olduqda əmək məzuniyyəti hökmən başqa vaxta keçirilməlidir. Bu hallar isə təəssüflər olsun ki, AR ƏM-in 134-cü maddəsinin üçüncü hissəsində təsbit olunmamışdır. Məsələn, işçinin əmək məzuniyyəti ödənişli təhsil məzuniyyəti ilə üst-üstə düşdükdə; işçi qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada işdən ayrılmaqla dövlət və ictimai vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə və s. Ona görə də hesab edirik ki, AR ƏM-in 134-cü maddəsinin üçüncü hissəsinə aşağıdakı məzmunda «ç» və «d» bəndləri əlavə edilməlidir:

« ç) əmək məzuniyyəti ödənişli təhsil məzuniyyəti ilə üst-üstə düşdükdə;

d) işçi qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada işdən ayrılmaqla dövlət və ictimai vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə;

16) AR ƏM-in 134-cü maddəsinin dördüncü hissəsinə əsasən işçiyə əmək məzuniyyətinin müəyyən edilmiş növbədə nəzərdə tutulan vaxtda verilməsinin istehsalın, işin, xidmətlərin normal gedişinə xələl gətirə biləcəyi hallarda işəgötürənin təşəbbüsü və işçinin razılığı ilə əmək məzuniyyəti başqa vaxta keçirilə bilər. Bu normada işçinin razılığının ifadə forması müəyyən edilməmişdir. Gələcəkdə yarana biləcək mübahisəli vəziyyətdən qaçmaq üçün AR ƏM-in 134-cü maddəsinin dördüncü hissəsindəki «işəgötürənin təşəbbüsü və işçinin razılığı» sözlərinin «işçinin yazılı razılığı və yalnız işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı)» sözləri ilə əvəz olunmasını məqsəduyğun hesab edirik.

17) İşçilərin elə kateqoriyaları vardır ki, əmək müqaviləsinə xitam verilməsi halları istisna olmaqla onların əmək məzuniyyətinin pulla kompensasiya olunması məqsədəuyğun deyil-

dir. Məsələn, əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyət hüququ olan işçilərin, hamilə qadınların, yaşı 18-dən az olan işçilərin və s. Ona görə də AR ƏM-in 135-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissənin əlavə olunmasını təklif edirik: «3. Əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyət hüququ olan işçilərin, hamilə qadınların, yaşı 18-dən aşağı olan işçilərin bir işi ilindən artıq dövrün əmək məzuniyyətinin verilməməsi, bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş qaydada və məbləğdə kompensasiya ödənilməsi və ya onun başqa iş ilinə keçirilməsi qadağandır».

18) AR ƏM-in 175-ci maddəsinə əsasən, işəgötürənin sərəncamı ilə işçinin əmək haqqından müvafiq iş ilinə görə məzuniyyətə çıxmış və həmin iş ili bitənədək işdən çıxdığı halda məzuniyyətin işlənməmiş günlərinə düşən məzuniyyət pulu tutulur. Lakin AR ƏM-in 144-cü maddəsinin dördüncü hissəsində isə göstərilir ki, müəyyən iş ilinə görə əmək məzuniyyətindən istifadə etmiş işçinin əmək müqaviləsinə həmin iş ili başa çatanadək xitam verilərkən ödənilmiş məzuniyyət haqqının müvafiq hissəsi işçidən tutula bilər. Göründüyü kimi, qanunverici burada imperativ norma müəyyən etməmişdir. AR ƏM-in 144-cü maddəsinin dördüncü hissəsindən belə bir nəticə çıxır ki, göstərilən halda ödənilmiş məzuniyyət haqqının müvafiq hissəsi işçidən tutulmaya da bilər.

Ona görə də AR ƏM-in 144-cü maddəsinin üçüncü hissəsinin 175-ci maddənin ikinci hissəsinin «ç» bəndinə uyğunlaşdırmaq üçün AR ƏM-in 144-cü madəsinin üçüncü hissəsinin sonunda «işçidən tutula bilər» sözlərinin «işçidən tutulur» sözləri əvəz olunmasını məqsədəmüvafiq hesab edirik.

Hörmətli konfrans iştirakçıları!

Çıxışımı Azərbaycan xalqının ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin hələ 2003-cü ildə Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasının 5 illiyi münasibəti ilə göndərdiyi təbrik məktubunda ifadə etdiyi sözlərlə bitirmək istərdim: "Konstitusiya Məhkəməsinin simasında milli dövlətçiliyimizi, insan və vətəndaş hüquq və azadlıqlarını müdafiə edən mötəbər təsisata malikik".

Hüquq ictimaiyyətinin bir nümayəndəsi olaraq inanıram ki, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesində bundan sonra da daha fəal iştirak edəcək, Konstitusiyanın aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi işinə töhfəsini verməklə davam edəcəkdir.

Çıxışımın sonunda bir daha Sizi yubiley münasibətilə təbrik edir, konfransın işinə uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Abdullayev F.S. Azərbaycan Respublikasının Konstitusiyası mütərəqqi dəyərləri əks etdirən ali hüquqi sənəddir//Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məlumatı, 2015, № 1, s.98-109

2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2021, 68 s.

3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2023, 284 s.

4. Azərbaycan SSR Əmək Qanunları Məcəlləsi. Bakı: Azərnəşr, 1972, 166 s.

5. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2023, 140 s.
6. «Azərbaycan Respublikası Əmək Məcəlləsinin 115-ci maddəsinin I hissəsinin, 116-cı maddəsinin birinci hissəsinin və 136-cı maddəsinin ikinci hissəsinin şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2003-cü il 17 iyun tarixli Qərarı / Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, s.329-334
7. «Azərbaycan Respublikası Əmək Məcəlləsinin 116-cı maddəsinin ikinci hissəsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2000-ci il 29 noyabr tarixli Qərarı / Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, s.160-163
8. «Azərbaycan Respublikası Əmək Məcəlləsinin 132-ci maddəsinin ikinci hissəsinin azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsi müddəasına dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2001-ci il tarixli 19 aprel Qərarı / Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, s.176-179
9. «Azərbaycan Respublikası Əmək Məcəlləsinin 143-cü maddəsinin birinci hissəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 37-ci maddələrinə və 149-cu maddəsinin birinci hissəsinə uyğunluğu haqqında» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2000-ci il 23 fevral tarixli Qərarı / Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, s.102-106
10. «Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin ikinci hissəsinin şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2002-ci il 29 noyabr tarixli Qərarı / Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, s.290-294
11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, 936 s.
12. Beynəlxalq Əmək Təşkilatının «Ödənişli məzuniyyətlər haqqında» 132 nömrəli Konvensiyası / Beynəlxalq Əmək Təşkilatı. Konvensiyalar və tövsiyələr. Bakı, 1996, s.394-401
13. Qvaladze R.S. Konstitusiya Məhkəməsi tərəfindən konstitusiya və qanunların şərhi yolu ilə qanunvericiliyin təkmilləşdirilməsi//Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məlumatı, 2018, № 2, s.143-150
14. «Məzuniyyətlər haqqında» Azərbaycan Respublikasının Qanunu / Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 23-24, maddə 343

**Fərhad ABDULLAYEV**

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri***

## YEKUN NİTQİ

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda keçirilən beynəlxalq konfrans öz işini başa çatdırmaq üzrədir.

Tədbir zamanı Konstitusiya Məhkəməsinin ünvanına deyilən xoş sözlərə və 25 illik yubiley münasibətilə səslənən təbriklərə görə Məhkəmənin bütün kollektivi adından hər birinizə öz minnətdarlığımı bildirirəm.

Konfrans həqiqətən həm elmi, həm də praktiki məzmun daşıyan müzakirələrlə zəngin keçdi. Səslənən çıxışlarda və müzakirələrdə olduqca maraqlı elmi və praktiki araşdırmalar təqdim edildi.

Hesab edirəm ki, konfransın gedişatında müxtəlif aktual mövzulara toxunaraq, maraqlı və eyni zamanda səmərəli fikir mübadiləsi aparmağa nail olmuşuq. Burada təqdim edilən çıxışlar və onların ətrafında aparılan müzakirələr bir daha onu göstərir ki, konstitusiya normalarının düzgün tətbiqi və bununla da insan hüquq və azadlıqlarının müdafiəsi istənilən demokratik dövlət qarşısında duran ən vacib vəzifələrdən biridir.

Tədbirdə konstitusiya nəzarəti orqanlarının Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafında rolu barədə, bu istiqamətdə mövcud suallar və onların həlli yollarına dair fikirlərə geniş yer verildi. Hesab edirəm ki, müxtəlif hüquq sistemlərinə malik ölkələrin öz təcrübələrinin bölüşdüyü bugünkü konfransda maraqlı fikir mübadilələri və diskussiyalar aparıldı, konstitusiya hüququnun müxtəlif sahələri, xüsusilə də Konstitusiya Məhkəməsinin qərarlarında formalaşdırdığı hüquqi mövqelər və bu qərarlarda konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericilikdə boşluqların aradan qaldırılması, onun inkişafı ilə bağlı maraqlı fikirlər ifadə edildi.

Hörmətli həmkarlar!

Qeyd edildiyi kimi, konstitusiya hüquq normalarının dəqiq tətbiq edilməsi həmin normaların daha geniş təhlil olunmasını tələb edir. Bunun həyata keçirilməsi üçün isə konstitusiya nəzarəti orqanlarının üzərinə böyük vəzifə düşür. Məruzələrdə də vurğulandığı kimi, konstitusiya normalarını əsas tutmaqla həyata keçirilən konstitusiya nəzarəti vasitəsilə qanunvericilik sistemində olan kolliziyalar aradan qaldırılır, hüquqtətbiqetmə təcrübəsinin harmonik inkişafı təmin olunur.

Bunları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin qərarlarının hüququn mənbəyi hesab edilməsi üçün kifayət qədər əsaslar vardır. Konstitusiya Məhkəməsi qanunvericiliyin təkmilləşdirilməsi prosesində özünəməxsus rolda çıxış etməklə qüsurlu hüquq normalarını hüquq sistemindən kənarlaşdırır.

Nəzərə almaq lazımdır ki, Konstitusiya Məhkəməsi qanunverici rolunda çıxış etmir, onu əvəz etmir. Məhkəmə bir çox hallarda qanunvericilikdə mümkün hüquqi kolliziyalara diqqət yetirir. Lakin bu halda da o, kənar "seyirci" kimi çıxış etmir. Əksinə, Konstitusiya Məhkəməsi qanunvericiliyə pozitiv müdaxilə vasitəsilə təcrübədə icrası mümkün olan, hüquqtətbiqedici orqanlar üçün aydın və birmənalı anlam daşıyan və ən əsası isə insanla dövlət arasında qarşılıqlı etimadı gücləndirən hüquqi təfsir verməyə çalışır.

Konstitusiya Məhkəməsi qəbul etdiyi qərarlarda verdiyi açıqlamalar vasitəsilə Konstitusiyada təsbit edilmiş dəyər və prinsiplərə əsaslanan qanunlara əməl olunması vacibliyinə bütün cəmiyyətin diqqətini cəlb edir.

Dəyərli qonaqlar!

Xüsusilə vurğulanmalıdır ki, Dövlət Başçısı cənab İlham Əliyevin məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olması hər zaman məhkəmələrin müstəqil və şəffaf fəaliyyətinə, qərəzsiz şəkildə qərarların qəbul edilməsinə imkan yaradır. Öz növbəsində Konstitusiya Məhkəməsi də fəaliyyət göstərdiyi müddət ərzində ilk əvvəl Ulu Öndər Heydər Əliyevin, bu gün isə möhtərəm cənab Prezidentin dəstəyini hər zaman hiss edib. Bu dəstək əlbəttə ki, bizim üçün qürurverici olmaqla yanaşı, eyni zamanda olduqca böyük məsuliyyət deməkdir. Biz hər zaman üzərimizə düşən bu məsuliyyətli missiyanı layiqincə yerinə yetirməyə çalışırıq.

Ümidvaram ki, konfrans səmərəli keçməklə, ümumi işimizə öz töhfəsini verdi, habelə gələcək əməkdaşlığımız və bu istiqamətdə yeni müzakirələrin davam etdirilməsi üçün zəmin oldu.

Bir daha Bakı şəhərinə təşrif buyurmuş xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının rəhbər və nümayəndələrinə, habelə bizim yerli təsisatlardan həmkarlarımıza minnətdarlığımı bildirir, gələcək fəaliyyətlərinizdə sizə uğurlar arzulayıram və inanıram ki, səmərəli əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.

Ümidvar olduğumu bildirirəm ki, bizim xarici qonaqlar Bakı şəhərində olduqları müddət ərzində gözəl paytaxtımız ilə tanış olub xoş vaxt keçirməyə imkan tapacaqlar.

Diqqətinizə görə təşəkkür edirəm.

**Mr. Farhad ABDULLAYEV**

***Chairman of the Constitutional Court of the Republic of Azerbaijan***

## CLOSING SPEECH

Dear ladies and gentlemen,
Dear guests,

The international conference "Progression of legislation through application of constitutional norms" devoted to the 25th anniversary of the Constitutional Court of the Republic of Azerbaijan ends its work.

On behalf of the entire staff of the Court, I express my gratitude to each of you for the kind words addressed to the Constitutional Court during the event and the congratulations on the occasion of its 25th anniversary.

The conference was really full of discussions with both scientific and practical content. Very interesting scientific and practical studies were presented in the speeches and discussions.

I believe that during the conference we were able to exchange interesting and at the same time effective views, touching on various topical topics. The speeches presented here, and the discussions conducted around them once again show that the correct application of constitutional norms and thus the protection of human rights and freedoms is one of the most important tasks facing any democratic state.

At the event, the role of constitutional review bodies in the development of legislation through the application of constitutional norms, the existing questions in this direction and the ways to solve them were widely discussed. I believe that at today's conference, at which countries with different legal systems shared their experience, interesting exchanges of views and discussions were held, interesting opinions were expressed on various areas of constitutional law, in particular, on the legal positions formulated in the decisions of the Constitutional Court, and the elimination of gaps in legislation through the application of constitutional norms in these decisions and its development.

Dear Colleagues,

As mentioned, the precise application of constitutional legal norms requires a wider analysis of those norms. In order to implement this, the constitutional review bodies have a great responsibility. As it is emphasized in the reports, conflicts in the legislative system are eliminated through the constitutional review based on the constitutional norms, and the harmonious development of law enforcement practice is ensured.

Taking these into account, there are sufficient grounds for considering the decisions of the Constitutional Court as a source of law. The Constitutional Court, acting in a

unique role in the process of improving legislation, excludes defective legal norms from the legal system.

It should be noted that the Constitutional Court does not act as a legislator, does not replace it. In many cases, the Court focuses on possible legal conflicts in legislation. However, even in this case, it does not act as an outside "spectator". On the contrary, the Constitutional Court tries to provide a legal interpretation that can be implemented in practice, has a clear and unambiguous meaning for the law enforcement agencies and, most importantly, strengthens the mutual trust between the people and the state through positive intervention in the legislation.

The Constitutional Court draws the attention of the whole society to the importance of following the laws based on the values and principles established in the Constitution through the statements made in its decisions.

Dear guests,

It should be especially emphasized that the fact that the Head of State, Mr. Ilham Aliyev is the guarantor of the independence of the judiciary, always enables the independent and transparent functioning of the courts and the adoption of decisions in an impartial manner. In turn, the Constitutional Court during its functioning has always been supported first by the Great Leader Heydar Aliyev, and today, by the Honorable Mr. President. This support, of course, means not only pride in us, but also quite a big responsibility. We always try to fulfill this responsible mission with dignity.

I hope that the conference was successful and contributed to our common work, as well as a basis for our future cooperation and the continuation of new discussions in this direction.

Once again, I express my gratitude to the heads and representatives of the constitutional control bodies of foreign countries who visited Baku, as well as to our colleagues from local institutions, I wish you success in your future activities and I believe that we will continue our effective cooperation in the future.

I hope that our foreign guests will have the opportunity to get to know our beautiful capital and have a good time during their stay in Baku.

Thank you for your attention.

**Фархада АБДУЛЛАЕВ**

***Председателя Конституционного суда Азербайджанской Республики***

## ЗАКЛЮЧИТЕЛЬНАЯ РЕЧЬ

Уважаемые дамы и господа!
Дорогие гости!

Международная конференция на тему “Развитие законодательства посредством применения конституционных норм”, посвященная 25-летию Конституционного суда Азербайджанской Республики, завершает свою работу.

От имени всего коллектива суда выражаю каждому из вас свою благодарность за добрые слова, высказанные в ходе мероприятия в адрес Конституционного суда и поздравления, прозвучавшие по случаю 25-летнего юбилея.

Конференция действительно была насыщена дискуссиями, которые имели как научное, так и практическое содержание. В прозвучавших выступлениях и дискуссиях были представлены чрезвычайно интересные научные и практические исследования.

Считаю, что, коснувшись в ходе конференции различных актуальных тем, мы смогли провести интересный и в то же время плодотворный обмен мнениями. Представленные здесь выступления и проведенные вокруг них дискуссии, еще раз свидетельствуют о том, что правильное применение конституционных норм и защита тем самым прав и свобод человека являются одной из важнейших задач, стоящих перед любым демократическим государством.

Широкое место на мероприятии было отведено мыслям о роли органов конституционного контроля в развитии законодательства посредством применения конституционных норм, вопросам на эту тему и путям их разрешения. Считаю, что на нынешней конференции, где страны с различными правовыми системами, делились своим опытом, были проведены интересный обмен мнениями и дискуссии, высказаны интересные мысли о различных сферах конституционного права, в частности, правовых позициях, сформированных в постановлениях Конституционного суда, и устранении пробелов в законодательстве посредством применения в этих постановлениях конституционных норм, его развитии.

Уважаемые коллеги!

Как уже отмечалось, четкое применение норм конституционного права требует более широкого анализа данных норм. Для осуществления же этого на плечи органов конституционного контроля ложится большая обязанность. Как подчерки-

валось в докладах, посредством конституционного контроля, осуществляемого с соблюдением конституционных норм, устраняются коллизии в системе законодательства, обеспечивается гармоничное развитие правоприменительной практики.

С учетом этого, есть достаточно оснований считать постановления Конституционного суда источником права. Выступая в специфической роли в процессе совершенствования законодательства, Конституционный суд исключает из правовой системы несовершенные правовые нормы.

Следует иметь в виду, что Конституционный суд не выступает в роли законодателя, не замещает его. Суд зачастую уделяет внимание возможным правовым коллизиям в законодательстве. Однако и в этом случае он не выступает в качестве стороннего "наблюдателя". Напротив, Конституционный суд посредством позитивного вмешательства в законодательство старается дать правовое толкование, исполнение которого представляется возможным на практике, имеющее ясный и однозначный смысл для правоприменительных органов и, самое главное, повышающее взаимное доверие между человеком и государством.

Посредством данных в принятых постановлениях разъяснений Конституционный суд привлекает внимание всего общества к важности соблюдения законов, основанных на ценностях и принципах, закрепленных в Конституции.

Уважаемые гости!

Следует особо подчеркнуть, что глава государства господин Ильхам Алиев, являясь гарантом независимости судебной власти, всегда создает возможность для независимой и прозрачной деятельности судов, беспристрастного принятия решений. В свою очередь, Конституционный суд в период деятельности всегда ощущал поддержку сначала великого лидера Гейдара Алиева, а сегодня – уважаемого господина Президента. Эта поддержка, конечно, вызывает у нас чувство гордости, в то же время возлагает на нас чрезвычайно большую ответственность. Мы всегда стараемся достойно выполнять возложенную на нас эту ответственную миссию.

Надеюсь, что конференция прошла плодотворно и внесла вклад в наше общее дело, а также заложила основу для дальнейшего сотрудничества и продолжения новых дискуссий в этом направлении.

Еще раз выражаю признательность пожаловавшим в Баку руководителям и представителям органов конституционного контроля зарубежных стран, а также нашим коллегам из местных учреждений, желаю вам успехов в дальнейшей деятельности, верю, что мы и впредь будем продолжать наше плодотворное сотрудничество.

Надеюсь, что наши зарубежные гости во время пребывания в Баку найдут возможность ознакомиться с нашей замечательной столицей и приятно провести время.

Благодарю за внимание.

Redaktorlar:

**Tələt Binnətzadə**
**Nigar Yusubova**
**Cəmilə Məmmədova**
**Günel Kərimova-Səmədova**
**Ellada Məhəmmədova**
**Südabə Əliyeva**

Çapa imzalanmışdır 22.12.2023. Kağız formatı 60x90 1/8.
Fiziki çap vərəqi 18,50. Tirajı 200.

---

"ZƏNGƏZURDA" çap evində çap olunmuşdur.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: (050) 209 59 68; (055) 209 59 68; (012) 510 63 99
e-mail: zengezurda1868@mail.ru